ŞURƏDDİN MƏMMƏDLİ



# ALIN YAZIMIZ



downloaded from KitabYurdu.org

◘

ŞURƏDDİN MƏMMƏDLİ

Prof. Dr.; Gürcüstan Milli Akademiyasının həqiqi üzvü

◘

# ALIN YAZIMIZ

< Gürcüstan azərbaycanlılarının tarixi, mədəniyyəti >

◘

Müəllifin 1997-ci ildə yayınlanmış "ALIN YAZIMIZ" kitabı əsasında hazırlanmışdır.

◘

MƏMMƏDLİ Şurəddin. Alın Yazımız. – Tbilisi: Dayaq, 1997; 104 s.

Xüsusi redaktoru: Valeh HACIYEV – filologiya elmləri doktoru, professor, S.-S. Orbeliani adına Tbilisi Dövlət Pedaqoji Universitetinin kafedra müdiri

◘

Bu elektron kitab Gürcüstan Respublikasının Kvemo (Aşağı) Kartli deyilən bölgəsində daha çox və yığcam yaşayan Borçalılıların keçmişinə, dününinə, bugününə, başqa deyişlə, Gürcüstan Azər Türklərinin tarixinə, etnoqrafyasına, mədəni-sosyal-iqtisadi yaşamına ayna tutur.

◘


downloaded from KitabYurdu.org

◘

YAZARDAN

Elmi tədqiqlərimdə də, publisistik məqalələrimdə də, lirik əsərlərimdə də doğma dədə oçağımız, ata yurdumuzun da obrazı, müqəddəs həniri var. Öz içimdə və dost-tanışların istəyilə ilgili olaraq, qan yaddaşımızı çözələməyə ehtiyaç duydum və ulu baba-nənələrimiz, ata-analarımız beşiyi olmuş, bu gün bizim ömrümüzdən keçən ata yurdumuzun, yurddaşlarımızın tarixi taleyinə – alın yazımıza ayna tutmaq diləyilə, hər çür iddiadan uzaq xoş niyyətlə bu əsəri üzə çıxartdım. Kitab yurd tarixinə bir baxış, vətən sevgili içmal içərikli olduğuna görə bilərəkdən ətəkqeydlər də vermədim. Burada hər olqunun / faktın arxasında danılmaz gerçəklik durur.



◘

İÇİNDƏKİLƏR:


> Borçalı və Borçalılılar Deyəndə...
> Əzəl Qaynaqlar
> Onaltıncı Yüzil
> Onyeddinci Yüzil
> Onsəkkizinci Yüzil
> Ondoqquzuncu Yüzil
> İyirminci Yüzil
> İyirmibirinci Yüzil


◘




downloaded from KitabYurdu.org

◘

... EHEY, ALIN YAZIM, QAN YADDAŞIM – ULU TARİXİM!
NƏ QƏDƏR SİRLİ-SEHİRLİSƏN!..

◘

## BORÇALI VƏ BORÇALILILAR DEYƏNDƏ...

B o r ç a l ı deyəndə bu gün Gürcüstan'ın Kvemo (aşağı) Kartli bölgəsinin Marneuli, Bolnisi, Dmanisi rayonları, habelə Qardabani, Tetrisxaro, Zalqa rayonlarının müəyyən qismləri, qismən də yörələr nəzərdə tutulur; başqa sözlə, bu gün 41°48`–40°16` quzey, 61°10`–62°47` güney qütb qurşaqlarındakı, Güney Qafqaz'ın mərkəz hissəsindəki Kürüstü qarışıq Boşşalı çökəyi, Ehrəm–Maşaver–Bolus yönləri, Başkeçid, Ərcivan yaylaqları... düşünülür.
Borçalı çökəyinin mərkəzi Sarvan dəniz səviyyəsindən 516 metr hündürlükdədir. Ən uca dağ zirvəmiz dəniz səviyyəsindən 3053 metr hündürlükdəki Yemlikli (Şiştəpə) zirvəsidir. Əyriqar (İrcan) zirvəsinin ucalığı 2976, Dəvəqıran zirvəsinin ucalığı 2821, Ərcivan-Cəmcəm'in ucalığı 2757, Ləlvər'inki 2558, Lök'ünkü 2145, Eldağı'nkı 852, Yağılca-Ağburun'unku 766 metrdir.
Yurdun sınırları içində Kür, Alget, Ehrəm, Şüləver, Dəvəd, Bənöyşə, Maşaver, Oruzman, Pinəzər, Mahmudlu, Qarabulaq, Bolus-Kəpənəkçi... çayları axır, armudlu gölü, çoxlu suvarma arxları var.
Ərazinin çox qismi Kiçik Qafqaz'a aid sıra dağlar, qismən meşələr, qismən də otlaqlardır. Üç tərəfdən ormanlı dağlarla əhatələnib.
Torpaq münbitdir, bəhrəlidir.
İqlim kontinentaldır, yayda aranda isti, dağda sərin, qışda aranda soyuq, dağda şaxtalıdır.
Dəmir filizi, əlvan metallar, barit, litoqraf daşı, əhəng daşı, mərmər, bazalt, tuf, habelə mədən suları, müalicə otları baxımdan zənginlikdir.
Əhali baxımdan qələbəlikdir. Çoxluğu Azərbaycanlılar (Azərilər,


downloaded from KitabYurdu.org

Qarapapaq Türkləri) oluşdururlar.

... B o r ç a l ı l ı l a r deyəndə bu gün təsbeh kimi düzülüb, halallıqla ömür sürən ellər, şöləlxənən ocaqlar, qurub-yaradan yurddaşlar – onların öz diliylə, Borçalı Qarapapaqları göz önündə canlanır.


downloaded from KitabYurdu.org

◘

# ƏZƏL QAYNAQLAR

Yeraltı layların dəlilləri, minillərin o üzündə çatılmış ocaq yerlərinin üzə duran gerçəkləri – qazıntı (arxeoloji) tədqiqlər yurdumuzda çox-çox əzəllərdən yaşayış olduğunu təsdiqləyir.

Bəşərin ən qədim mədəni-tarixi dövrü olan, ibtidai icma quruluşunun önəmli qismini təşkil edən daş dövrünə, onun qədim çağı paleolitə, onun da erkən mərhələsinə – 100 min il öncələrdən o yana aid Dmanis qəsrinin ərazisində ən alt layda heyvanlar aləmindən div, kərkədan, qurd (canavar), ayı, vaşaq (çölpişiyi), bəbir, maral, çüyür, keçi, dağsiçanı, habelə dəvəquşunun vulkanik çöküntüləri, özəlliklə də iki milyon ilə yaxın “yaşı” olan, Avropa və Asiya qitələrində ən qədim insanın alt çənəsi, onun 16 dişi tapılıb; orta paleolitə – 100-35 min il öncəyə şamil edilən Zop zağa düşərgəsində (Bənöyşəsuyun sol qırağında) əhəng yığımı çöküntülərinin təhlili bu civarlarda kərkədan, at, uzunqulaq, keçi, süzənquşu... olduğunu görsədib: obsid daşından (dəvəgözüdən – tünd şüşəyə bənzər vulkanik süxurlardan), çaxmaqdaşıdan, nukleusdan (daş lövhələrdən) əl çapacaqları, dişli alətlər, tiyə, balaca oxlar... ərazidə ibtidai adamların ovçuluqla, meyvə-giləmeyvə yığımıyla məşğul olduqlarına dəlalət edir; gec paleolitə – 35-10 min il öncəyə aid Qarabulaq düşərgəsində kiçik üçbucaqlar, dördbucaqlar, balaca daş lövhələr, daş ərsinlər (kürəciklər) burada ibtidai əkinçiliyə zəmin yaranmış olduğuna tanıqlıq edir; daş dövrünün son aşaması olan neolitə – miladdan öncə (m. ö.) VII–V minillərə aid tapıntılar burada heyvanların əhliləşdirildiyinin, dənli bitkilər becərildiyinin nişanələridir.

Eneolit (daş-mis, erkən əkinçilik) çağından – m. ö. V–IV minillərdən qalmış Qaçağan, Arıxlı, Zop, İmir, Şüləver, Sarvantəpə, Qasımlı, Sion, Əzizkənd... məskənləri arxeoloji zənginliyilə seçilirlər. Qazıntı örnəkləri bir-birinə uyar olan bu məskənlərdə keramikadan (saxsıdan), gildən (o sıradan bazalt qatışıq gildən) qablar, obsid daşından, çaxmaqdaşıdan, adi daşdan, sümükdən, buynuzdan (daha çox maral buynuzundan) ibtidai alətlər – kəsicilər, ərsinlər, isgənələr, tiyələr, xırda oxlar, ox ucları, sıyırqalar, burğular, dənəzənlər, həvənglər, çəki daşları, bülöy daşları, çəkiclər,


downloaded from KitabYurdu.org

qazmalar... aşkarlanıb. Özəlliklə, Arıxlı'da yabanı yazlıq buğda, yabanı darı, Şüləver'də üzüm çəyirdəyi, Qaçağan'da çiy kərpicdən, Arıxlı'da tökmə palçıqdan dairəvi möhrədamlar, İmir'də çiy kərpicdən künbəzşəkilli tikili, ondan bir az aralıda gil soba, ikigözlü ev, dairəvi həyət hasarı, Şüləver'də kiçik su quyuları, himsiz, eşikdən gillə suvanmış evlər, bu evlərdə qapı-pəncərə oyuqları, içəridə buxarı, qıraqda təndir, fırın, Zop zağasında torpaqdan daxmaların döşəməsi... burada var olmuş yaşam tərzi haqqında bəlirli fikirlər söyləməyə, örnəyin, el-yörük halında dolanacağın var olduğunu, oddan yararlanıldığını söyləməyə ipucudur. Həmçinin Şüləver'də oyma naxışlı saxsı qablar, maral buynuzundan naxışlı bizlər, qaşıqlar, pardax bıçağı, cilalanmış lüləşəkilli quş sümüyü, sümük və buynuz bilərziklər, İmirdə çəhrayı rəng yelənində tünd qırmızı zolaqları olan, qırmızı-qara boyaqlarla torşəkilli süslənmiş saxsı qırığı, pardaqlanmış çaxmaqdaşıdan balta, isgənə, maral buynuzundan külüngəoxşar naxışlı alət; Mamay yörəsindəki Yaşıltəpə'də zəngin bəzəkli, açıqça süjet qurumlu xətlər; Arıxlı'da, Qaçağan'da maralın şaxəli buynuzundan naxışlı alətlər... o çağlar yurddaşlarımızın incə zövqlü olduqlarına tanıqdırlar. Qaçağan'da kiçik gil parçalardan bütöv antropomorfik qadın heykəlcikləri, Arıxlı'da çınqıldan Günəşə, Aya bənzər biçimdə qadın-ana başı heykəlciyi, Şüləver'də yumru çaxmaqdaşıların üzünü qəlpələməklə düzəldilmiş (makrolit) qadın-ana heykəlçiyinin köksündə həyat ağacının ifadəsi olan xətlər – tarixçi-arxeoloq Tariel Çubinişvili'nin zənnincə, bərəkət ilahəsi (bizcə, həm də həyat, ana torpaq ilahəsi); İmir'də yanmış gildən iki qadın-ana heykəlciyi... ifadəliyi, həyatiliyilə diqqəti çəkən incəsənət inciləri olmağın yanı sıra, o dövr yurddaşlarımızın dünyagörüşünün təcəssümü kimi də önəmlidir. Çünki, Y. V. Çəmənzəminli'nin yazdığı kimi, əski təsəvvürlərə görə qadın yerdə Günəşin timsalıdır. Deməli, bu qadın-ana heykəlcikləri qədim Türklərin Göy-Tanrı inancının – göydə Günəşə, yerdə qadına ilahə kimi tapınma inancının izi ola bilər. Yaşıltəpədə tapılmış gil, saxsı qablar üzərindəki süjet qurumlu deşmə-noyşəkilli xətlərlə, həndəsi naxışlarla ulduzların, Günəş, Ay şüalarının təsvirində də Göy-Tanrı inancının izlərini düşünürük. Zop'da, Arıxlı'da gildən öküz heykəlcikləri, Dəmirqaya'da mineral boyaqla keçi, maral, ilan təsvirli ibtidai incəsənət abidəsi də buralarda bir yandan əkinçiliyin, maldarlığın, ayrıca dulusçuluğun, nəqqaşlığın gəlişmiş olduğunu, bir


downloaded from KitabYurdu.org

yandan da həmən heyvanlara rəğbət bəsləndiyini, m. ö. VI–IV minillərə şamil olunan Sarvantəpə'nin ən alt layında parça qalıqları o çağlarda bu civarlarda toxuculuq, əyiriciliyin, qoyunçuluğun yayıldığını soraqlayır.

Erkən tunc çağında – m. ö. III minildə Kür'lə Araz arasında yayılıb min il davam etmiş arxeoloji kültürün ilkin yadigarları yurdumuzdakı bir çox tapıntılardan da bəllidir. Belə ki, Arıxlı'da çınqıldan insan sifəti təsvirli fiqur, Şüləver'də saxsıdan qara rəngli, süjet qurumlu naxışlı qablar, İmirdə dağınıq qəbirlərin naxışlı qabları, Ağkörpü yaxınındakı Uçuqtəpə'də torpaq qəbirlərdə iri, zəngin naxışlı qapaqlı kuzə, bardaq, kasalar, Sadaxlı'da Günəş, şüa rəmzli süs ünsürləri, Şüləver'lə Saraclı arasında saxsıdan qara pardaqlı, əzmə naxışlı, göy cismləri təsvirli qablar, Şüləverdən günbatarda bağlar içindəki kurqan (gorğan, gorxana) qəbirlərindən birində rəngarəng bəzəkli əşyalar, Sarvantəpə'də quyu kurqanlarda metaldan naxışlı əşyalar, Qızılhacılı'da tunc balta, Kazret'də boz gildən çəhrayı rəngli, qulplu bərnilər, kuzə, kasa, bardaq, Bala Muğanlı'yla Tamaris arasında daş sərdaba içində ovxalanan daşdan, gildən bəzəkli-naxışlı qablar... məhz Kür–Araz mədəniyətinə məxsusdur.

Orta tunc çağına – m. ö. III minilin axırlarıyla II minilin ortalarına aid Şüləver, İmir. Aşağı Saral yörələrində doqquz kurqan, Balıc'da daş sanduqə qəbirlər aşkarlanmışdır. Qəbir əşyalarından Şüləver'də tunc xəncər tiyəsi, gil qədəh, kasalar, küpə, İmir'də mərkmüşlü (arsenli) tuncdan alət və yaraqlar, Saral'da dördkünc biz, mərmərdən toppuz, Balıc'da qara saxsı qablar... önəmlidir. Son tunc çağına – m. ö. II minilin ortalarından I minilin əvvəlinəcən və erkən dəmir çağına– m. ö. IX–VII yüzillərə aid Sadaxlı, Arıxlı, İmir, Şüləver, Sion, Qarağac (Kazret yaxınında), Qantiadi (Qələmçə), Çopurallar, Bolnis, Dmanis, Soğanlıq, Birlik, Nəzərli, Çatma (Qarayazı ərazisində), Darbaz qəbir abidələrinin arxeoloji örnəkləri var. Önəmlidir ki, həmən çağların qiymətli maddi mədəniyət örnəklərinin bəlirli qismini bilicilər (O. Caparidze, Q. Avalişvili, M. Pirsxalava, M. Menabde, T. Kiğuridze, K. Qosadze, S. Davlianidze, M. Sinauridze və b.) o vaxtlar buralarda Türkdilli Bizər (Bozər, Börər), Sak (İskit, İşquz, Skif) tayfalarının yayılmağıyla ilgiləmişlər. Arıxlı'da tapılmış "Anadolu keramikası"ndan saxsı qablar Quzey Anadolu dağlarında, Qaradəniz sahillərində yaşadıqları, m. ö. VIII yüzildə Kür boyunda Odzrax (Özərək, Bozərək) qəsrini də tikdikləri düşünülən Bizərlərə aid edilir. Bu


downloaded from KitabYurdu.org

ərazidən arxeoloji tapıntılar arasında Sak tipli örnəklər daha çoxdur. Şüləver kurqanında, Sion zağasında, Kazret'də, Arıxlı'nın quzeyində qayalı yarğanda, Qomaret (Gümərli), Qantiadi, Çopurallar qəbirlərində üzə çıxmış tuncdan ox ucları, döyüş baltaları, sümük, tunc və dəmir üzəngilər, tunc bıçaq uçları... şəksiz olaraq Sak tipli hesab edilir.

Antik dövr – m. ö. V yüzildən miladın I yüzilinin başlarınacan olan dövr arxeoloji abidələrimizdən hələlik bir neçəsi açılmışdır. Şüləver, Kazret, Çatax məskənlərində kəsik daşlardan, əhəng piltələrdən dördkünc daş sərdaba (sanduqə) biçimində hörülmüş qəbirlərdə gildən qırmızı boyalı, cilalanmış, qırağı haşiyəli qablar, gümüş, tunc, dəmir bilərziklər, sırğalar, üzüklər, toqqabəndlər, çoxlu əqiq və zər muncuqlar, göy şüşədən damğa-möhürlər, dəmir bıçaqlar, nizələr, ox ucları, həmçinin m. ö. I yüzilin ortalarına aid Parf padşahlığının və Roma dövlətinin pulları əldə edilmişdir.

◙

Soykökümüzün əsas boylarından, Nuh'un oğlu Yafəs nəslindən Kimmər, Sak elləri m. ö. VIII–VII yüzillərdə Qafqaz quzeyindən güneyinə gəlib Urmya gölü yörələrində, Kür-Araz ovalığında xanədan quran vaxtlar bizim bu tərəflərə də yayılıblar.

Sözgəlişi: Sakların Qafqaz güneyinə gəlişi tarixi Gürcü xronikasında m. ö. 625-ci ildir.

Türk tarix bilgini Z. V. Toqan: "Saklar m. ö. 665-ci ildə Assur kitabələrində adı Qoqu vəya Qoq şəklində çəkilən hökmdarın yönətimiylə Kür çayını keçib Gəncənin günbatarında, təzə yurda Qoqaren... adı verdikləri yerdə yerləşdilər". Qoqaren (Göyərən) Strabon'un coğrafya əsərində də anılmışdır və həmən Göyərən'i İvane Cavaxişvili indiki Borçalı'nın güney sahəsi, A. Q. Qrek indiki Borçalı–Axalsıx bölgəsi saymışlar. Salnaməçi Aqafangel Göyərən'də Məskutların (Massaketlərin) sakinləşdiyini xatırlamışdır, müəllifi bəlli olmayan "ცხოვრება ქართველთა მეფეთა" = "Tsxovreba Kartvelta Mepeta" ("Gürcü Şahlarının Yaşamı") salnaməsində Türklər adıyla 28 ailəlik tayfanın Msxetdə (bəlkə Məskutlarla ilgilidir) yerləşdiyi, İberlərlə dost ortamda yaşadığı, Sərkin qəsrini tikib şenləndirdiyi soraqlanır. Sözgəlişi: Strabon Saklarla İberlərin “qonşu və qohum olduqlarını” bildirmişdir, tarixçi İ. Çavaxişvili yazmışdır: "Sak-Sarmat tayfalarıyla Gürcülərin genetik qohumluğu var, bunu linqvistik təhlillə də təsdiqləyirik"; xatırladaq ki, İvə adlı qədim Türk tayfası da


downloaded from KitabYurdu.org

olmuşdur.

M. ö. 330-lu illərdə fateh Məqdunyəli İsgəndər'in İberyə'yə yürüşləri xüsusunda Gürcüce eski çağları anlatan "მოქცევაი ქართლისაი" = "Moktsevai Kartlisai" ("Gürcüstan'ın Dönüşü") salnaməsində oxuyuruq: "Şah İskəndər ən öncə Kür axarı boyunca dörd qəsrdə (Sərkin, Kaspi, Örbənis, Özərək) və onların yörələrində yaşayan qəzəbli Buntürklərə rast gəldi, heyrətləndi, onlarla mücadələyə qadir olmadığını düşünüb uzaqlaşdı. Bu zaman Haldeylərdən aralanmış döyüşkən Hon tayfaları gəldilər, Buntürklərin hökmdarından bac hesabına yer istəyib Zanavda sakinləşdilər... Bir sürə keçəndən sonra İskəndər qayıtdı, bütün yer üzünün şahı bu üç şəhəri və qəsri dağıtdı, Honları qılıncdan keçirdi... Sonra Sərkin'i aldı, çəkilib getdilər". Başqa bir Gürcü qaynağından – Leonti Mroveli'nin (Mrovlu'nun) xronikasından: “İsgəndər Kür qırağında Buntürkləri və Qıpçaqları gördü, Sərkin'də yaşayan Buntürklər şahı töhmətlədilər... Sərkinlilərə ağır idi, çünki on bir ay vuruşdular. Xəlvətcə qayayı deşdilər... Gecə keçidə yığılıb Qafqaz'a qaçdılar, viranə şəhər qoydular. Onlardan sonra yenə də Haldey tayfaları gəldilər”. L. Mrovlu onu da soraqlayıb ki, Gürcülərlə Türklər bir-birinə dəstək amacıyla birləşdilər. Bunlar “Gürcü Şahlarının Yaşamı” salnaməsində də təkrarlanmışdır. (Sözgəlişi: Nizami Gəncəvi də bildirib: “Tiflis'i ilk abad etmiş İsgəndər”).

Süryani yazarı Katina Göyərən qonşuluğundakı Kol bölgəsinin güneyinə m. ö. II yüzildə Bulqarların gəlişini nəql etmişdir, xronikaçı Movses Horenli (Musa Hörənli) həmən yüzili öngörərək yazmışdır: “Qafqaz sıra dağlarında Bulqarlar torpağından rüzgar əsdi, o torpaqdan bir çoxları ayrılıb bizim torpağa gəldilər, uzun sürə Koldan güneydə barlı-bəhrəli, bol taxıl yetirən yerlərdə yurdlaşdılar”. Həmən salnamədən bəlli olur ki, m. ö. 153–131-li illərdə Ormansız Basean adlı yurda Bulqar sərvəri Vahandur Vənd Türk ocaqları köçürdü. (Vahandur'u “Dədə Qorqud”dakı Bayandur zənn etmək olar).

Saklar içində Bərç, Parallı, Bulqarlar içində və ayrıca Barsıllar adlarıyla buraya gəlmiş ellərlə indiki Borçalıların etnotarixi, boy-soy bağlılığını Türk tarix bilgini Zəki Vəlidi Toqan, Azərbaycanlı tarixçi, ictimai xadim, 1918’də Azərbayçan Demokratik Cümhuriyətinin qurucularından biri olmuş, sonra mühacir etmiş Mirzə Bala Məmmədzadə, Türk tarix bilgini Məhmət Fahrəttin Kırzıoğlu, Azərbaycan alimi Qiyasəddin Qeybullayev və başqaları duymuşlar.


downloaded from KitabYurdu.org

Z. V. Toqan ("Ümumi Türk Tarixinə Giriş", İstanbul 1946): "...bu qəbilənin (Barsılların) önəmli bir qismi bu gün orta Kür irmağı sağında əski Qoqaren ölkəsinin doğu qismində Borçalı təsmiyə olunan sancaqda Borçalılar adıyla yaşamaqdadırlar"; Mirzə Bala ("Azərbaycan Tarixində Türk Albanya", Ankara, 1951): "Miladdan çox-çox əvvəl, hər halda Sakların m. ö. VII əsrdəki axınları zamanı gəlmiş olduğu güclü təxmin edilən bu Barsıllar bugünkü Borçalıların əçdadı idilər"; M. F. Kırzıoğlu ("Karapapaklar", Ərzurum 1972): "Kürün güneyində və Gəncə ilə Ahılkələk (Cavaxet) arasında bulunan ekiz boy Borçalı-Qazaxlardan... Borçalı-Barsılların Debed də deyilən Borçalı çayı boylarında yerləşərək buralara adlarını verdikləri bəllidir"; Q. Qeybullayev ("Azərbaycanlıların Etnogenezinə Dair", Rusca, Bakı, 1991): "Bulqarların bir qismi kimi Basillər (yaxud Barsillər) sonralar Qıpçaqlar arasında Burçoğlu biçimində bəllidir və Borçalı toponimi də bundan doğub"; Abbas Abdulla: "Bu ulu dədələrimizin mübarək ismi bu mübarək torpağın adında yaşayır. "Borçalı" sözü Barsillər – Borocoğluları Qarapapaq Türklərin adından götürülmüşdür"...

Bu civarlara Barsılların gəlişi haqqında Süryani (Assur) yazarı Bar Daysan'ın yazdıqlarından yararlanmış M. Hörənli belə soraqlamışdır: "...dağlılar yığımları – Xazirləri və Barsilləri nəzərdə tuturam – birləşib özlərinin şahı Nəsib Söhrab'ın sərkərdəliyilə Cor qapısından bəri aşdılar, Kür çayını keçib onun bu yanına dağılışdılar. Valarş çoxlu cəsur igidlə onların qənşərinə çıxıb yığımlarını pərən-pərən saldı... və onların izinə düşüb Cor vadisini adladı... Fəqət sonra Valarşı həmən axınçıların mahir oxçuları öldürdülər". Bunları başqa xronikaçılar da təkrarlamışlar. Adıkeçən Valarşın (Bala Ərşahın) mənsub olduğu Ərşah (Arşak, Arsak) sülaləsinin Xəzər gündoğarındakı Parı boyundan gəlib Xorasan tərəflərdə hakimlik etmiş qədim Sak Oğuzlarından törədiyi M. F. Kırzıoğlu'nun, M. Seyidov'un, V. Həmidoğlu'nun... araşdırmalarında isbata yetirilmişdir. Xatırladaq ki, bu sülalənin padşahlıq etmiş olduğu Ərmənyə adını Süryanicə uca dağlar məkanı götürənlər də var) və Ərşahlar üzərinə həmən basqın tarixi həm sülalənin qurucusu Böyük Ərşah Pəhləvan'ın qardaşı I Bala Ərşah'ın ölüm ili – m. ö. 127-ci il, həm də II Bala Ərşah'ın ölüm ili – miladın 193-cü ili qəbul etmək olar. Bunu L. Mrovlu'nun salnaməsi dəqiqləşdirir: "Şah Bartom Kartli'nin bütün igidlərini topladı. Ərməniyə'dən qoşun


downloaded from KitabYurdu.org

çağırdı. Mirvan gəlib Berduci çayı qırağında düşərgə qurdu. Vuruşa başladılar və hər iki tərəfdən Bumberazlar peyda oldular. Bir ay hər gün bumberazların vuruşu oldu, gah bu, gah da o tərəf yendi”. Cəngavər obrazı kimi şərh edilən, pəhləvan anlamıyla Gürcücənin söz dağarcığına keçmiş Bumberaz da, bizcə, Buntürk sayaq etnonimdir, onu Börazlar (Barsıllar) kimi də düşünmək olar və salnamədən görürük ki, onlar muzdlu olaraq həm bu, həm də o tərəfdən vuruşmuşlar. Xatırlanan Bartom Fərnavazlar sülaləsindən Ərtək oğlu Baratman M. ö. 65-ci iləcən, yenə həmən sülalədən Mirvan (Mihran) m. ö. I yüzilin sonlarında İber hakimi olmuşlar. Deməli, Barsıllar m. ö. I yüzildə buralarda çövlan edirmişlər.

Qaynaqlardan Barsılların miladdan sonra III-IV yüzillər aşırımında geniş bir axınla güney, gündoğar, günbatar səmtlərə yayıldıqları, İber bəyi Mihran üzərinə yürüdükləri, 48 minə yaxın dustaq (əsir) götürdükləri bəlli olur. Barsılları “Ərməniyə'yi təlaşa salan quzey xalqları” deyə anmış Alban salnaməçisi Musa Qalankətli onların Ərşahlı şahı Təridat'ın ləşgərilə savaşını belə yansıtmışdır: “Barsılların şahı onunla çarpışdı, üstünə kəmənd atdı. Ancaq onu yıxa bilməyib özü də ikiyə paralandı... Orda Təridat çoxlu girov götürdü və quzeyliləri öz ordusuna qatıb İran şahənşahı II Şahpurun üzərinə hücum etdi”. Bu savaş Hörənli'yə görə, Qarqar çayı ovasında gedib (Abbasqulu Ağa Bakıxanlı Barsıllar-Bəslaslar şahının adının Qatargün olduğunu bildirmişdir). Tarix bilginləri bu olayın 215-ci (yaxud 216) ildə baş verdiyini qeyd etmişlər. Barsılların bu yörələrə kütləvi şəkildə axınları məhz o dövrdə olmuşdur, ona görə də M. F. Kırzıoğlu Kür–Araz boylarında Borçalı–Qazax ekiz uruğunun yaşını həmən vaxtdan götürmüşdür. (Sözgəlişi: M. F. Kırzıoğlu belə zənn etmişdir ki, Xazir-Barsıllarla vuruşmuş Bala Ərşah Dədə Qorqud oğuznamələrindəki Ulaşdır, III Təridat çağında Xazir-Barsıl boylarının birgə axınları, Taron–Borçalı bölgəsindəki iki savaşı “Ulaş Oğlu Salur Qazan...” boyunda geniş bir şəkildə təsvir olunub). Aqafangel'in salnaməsindən aydınlaşır ki, 225-ci ildə Hun topluluğuyla tanınan Xazir və Barsılları şah Xosrov muzdla tutaraq, Sasanlılara qarşı çıxmışdır; M. Hörənli, Ə. Xurdazbeh Kürün güneyində Sasanlılara tabe Burçan ismində bir məliyi anmışlar və Z. V. Toqan bunu Farsca Burç adının cəmi (Burçlar) güman etmişdir; M. Qalankətli Alban valiləri nəslinin “Xosrov'un vaxtında Basil ölkəsindən gəlmiş mərd adamla qohumlaşdığını” soraqlamışdır;


downloaded from KitabYurdu.org

Barsıllarla İber şahı Parsman, İber-Alban şahları Varazlar arasında da yaxınlıq duyulur.

Barsıl etnonimi etnolinqvistik tədqiqlərdə gög (boz) qurd-canavar anlamlı börü, eləcə də pələng (bəbir) anlamlı bars kəlmələriylə ilgilənir. Qeyd edək ki, bilginlər (o sıradan Kamil Vəliyev və b.) Türk söyləncələrində / əfsanələrində dişi, anaş börünün həm də börcə, börcü deyə anıldığını bildirmişlər; deməli, Barsıl (Börsoylu) – Borçalı etnoniminin kökündə qədim Türklərdə çeviklik, cəsarət, qeyrət simgəsi olmuş, Tanrı'dan güc almış börü, börcə (börcü) dura bilər.

Qaynaqlara görə, Barsıllar Tanrı'ya inanc bəslər, Günəş, qadın ilahilərinə qurban kəsər, oda və suya tapınar, Qaman-Şaman əqidəsinə qulluq edərmişlər, çox sərrast ox atarmışlar, xanədan, el halında güzəran sürdürmüşlər, at minməyə güclü meyl görsədər, sincab və dələ xəzi, mexi satmaqla məşğul olar, qurut düzəldər, inək, dəvə, madyan südünün qımızını da içər, əti, balığı suda bişirib yeyərmişlər... Qədim tarixyazarların oxşar adlarla xatırladıqları Barsılların Sak dövlətini, sonra Hun xaqanlığını, Xəzər (Gəzər, Xasər) xaqanlığını, Sarmatya məmləkətini oluşdurmuş boy və oymaqlardan biri olduğu qaynaqlardan aydınlaşır. Rəvayətə görə, Bulqar (Bunqar), Xazir və Barsela (Barçola) adlı üç qardaş, ayrıca başqa yeddi soy bir atadan törəmişlər. Salnaməçilər (Bar Daysan, M. Hörənli. P. Panit və b.) Xazirlərlə Barsılları ekiz boylar deyə anmışlar; Müsəlman yazarlar (Yaqut Həməvi, Dəst oğlu və b.) Barçola, Barsol, Borsula deyə andıqları bu boyu Bulqarların bir qolu saymışlar. Həm də Sak – Hun – Bulqar – Xəzər cəmlərində Barsıllar hakim mövqe tutmuşlar, onlar “hökmdar Saklar” (Herodot), “şah Sakların ən mərdanə adamları” (P. Panit) olmuşlar. Salnamələrdə, o sıradan A. Şiraklıda bildirilir ki, Xəzər xaqanının xatunu Barsıllar qövmündəniydi. Deməli, Xəzər xaqanları nəcabətcə tən (bab) sayılan qohum Barsıllardan evlənərmişlər və M. F. Kırzıoğlu'nun yazdığı kimi, “Barsılların Xəzərlərdən öncə iqtidarda bulunmuş hökmdar sülaləsini çıxarmış olduqlarını düşünmək olur”. Xəzər'in quzey-günbatarında yerləşmiş, Bizans, İslam salnamələrində Barsəlyə, Bərzilyə, Barşlı, Borşalya, Barçuli biçimlərində xatırlanmış məmləkətin adı Barsıllarla ilgiləndirilir. Habelə İdil (Volqa) Bulqarları rəvayətlərində Baraç, Xəzər xaqanının məktubunda Birsal şəklində yazılanlar da, Y. Həməvi'nin Barşəlyə'yi Arran'da yer kimi qeydə almağı da... maraq doğurur.


downloaded from KitabYurdu.org

•

Salnamələrdən aşkarlanır ki, IV yüzildə Qara Hunlardan Quşan soylu Çənəllər, o sıradan onların bir qövmü Boluslar Daryal səddiylə gəlib Kür qırağında, Orbet (Qartallı) qalası yörələrində məskunlaşmışlar; Ağ Hunlar, Xəzərlər, Barsıllar Kür boyunca yayılmışlar, 330-lu illərdə Məskut (Məsklər) şahı Sanesan (Sanatürk) Barsılların törəmələri sayılan Balasiçlərin yardımıyla Ərməniyəyə basqın etmişdir; 350-li illərdə Sasanlılarla İberlərin birləşmiş ləşgəri Xəzərlərə qarşı savaşmışdır; V yüzilin başlarında Ağ Hunlar – Abdallar İberlərlə birgə Sasanlılarla mücadilə aparmışlar; 442–445-li illərdə həmən Ağ Hunlar iki alayla Barsılların yeni yurdlarındakı Hunan qəsrində düşərgə salaraq, Ərməniyə'yə və İberyə'yə hücuma keçmişlər; 447–448-li illərdə onlar Kol oymağını da tutmuşlar; hər yerdə Zərdüştlüyü bərqərar etmək istəyən Sasanlıların çağırışıyla 460-cı ildə Daryal'dan keçib gələn Haylantürklər (Onoğurlar), Sarıoğurlar Albanya (Alblar yurdu), Ərmənyə, İberyə'yə həmlələr etmiş, bu ölkələri çapıb talamışlar, Hunan qəsrini özlərinə dayaq nöqtəsi seçmişlər (Hunan indiki Sınıq Körpü yaxınında olmuşdur; M. Qalankətli'nin salnaməsində hun ləşgərinin düşərgəsi deyə xatırlanan, geçələr ulduz kimi parladığına görə Ulduzlu adını daşıyan təpə də Hunan yanında idi); 481–482-li illərdə İber şahı Qorqasal'ın Kəngərlər oymağında Qızılqaya deyilən yerdə Sasanlılara qarşı üsyanında Barsıllardan 300 atlı da qatılmışdır. (Sözgəlişi: 1975-də Bolus-Kəpənəkçi kəndindən Məhər Əmrah oğlu'nun 459–484-lü illərin Sasanlı pullarını tapıb Gürcüstan Dövlət Muzeyinə verdiyini xatırladırıq).

503-də Barsılların Albanya'yı taladıqları, 515-də Daryal keçidiylə Sabirlərin gəlib buraya çıxdıqları, 520–530 illərində Bizans qeysəri Yustinianın Xəzər xaqanının qızıyla evlənib ondan dəstək umduğu və xaqanın güclü ləşgər göndərdiyi, 552-də Xəzərlərin Albanyayı yendikləri, həmən çağlar Sasanlı hökmdarı I Xosrov'un – Nuşirəvan'ın Barşəl'də Xəzər xaqanıyla qohumlaşdığı, 553-də Dmanis'ə üç min Bulqar köçürüldüyü, 555-də Tiflis yörələrinə Sodaqlardan bir zümrə gəldiyi, yüzilin sonlarında Sabirlərin buralara yayıldıqları, Nuşirəvan'ın Sabirlərdən çox qismini Albanya ilə İberyə sınırlarında, habelə Barsılların tirəsi Bələncərləri Azərbaycan'da və ona yaxın vilayətlərdə yerləşdirdiyi, 576-da Bizanslıların özlərinə əsgəri yardımçı amacıyla gətirdikləri Sabirlərə İberyə'nin sınır ağzında yer


downloaded from KitabYurdu.org

verdikləri, bu çağlar Hun, Bulqar tayfalarına, öz soydaşlarına qoşulmayıb Azov sahillərinə Qafqaz quzeyinə getməyən Xəzər və Barsılların bir qisminin Sabirlərlə əsgəri ittifaqa girdikləri... qaynaqlardan bəlli olur.

626-da Xəzər-Türküt döyüşçüləri Cəbu xaqanın və oğlunun sərkərdəliyilə Sasanlılara, Albanyayı yenərək, gəlib 627-in yayında Tiflis'ə çatmış, Bizans ləşgəriylə birləşərək, şəhər əhalisini qalada mühasirəyə alıb əzmiş, qala divarlarının bir hissəsini dağıtmış, bir il sonra Tiflis əhlini yenidən sıxıntıya salmış, Şəmşöldə'yi (Samşvilde'yi), Kaspi'yi, Qazağ'ı, Hunan'ı ələ keçirmişdilər. Həmən vaxtlar buralarda Xəzərlərin dəstəyilə Bizanslılar hakimlik etmişlər.

* *

Qədim toponimlər də yaddaşdır.

B e r d u c i – salnamələrdə dönə-dönə qeyd olunmuş, Bördüzü deyə Borçalı adının ilginc biçimlərindən biri (Bördüzü–Börçala) sandığımız bu çay sonralar Dəvəd (Dəvəlik), Borçalı adlanmış irmağın aşağı axarıdır, Qorqasalın salnaməçisi Cavanşir Bördüzü çalasının Gürcüstan'la Arran arasında olduğunu bildirmişdir və Bördüzü başqa bir Gürcü xronikaçısı Sumbat Davitisdze'nin əsərində kənd, yazarı bəlli olmayan Ərəbcə “Aləmin Hüdudu” kitabında kiçik şəhər nişan verilmişdir; C o r a p o r – Göyər əyalətində mahal, Albanya ilə Ərməniyə'nin sınırı, Albanya'da qəsəbə deyə qaynaqlarda anılmış bu toponimi Qrabarca çala, çökək anlamlı dzor (vəya Ərəbcə eyni anlamlı çur) ilə por (bor-börü) kəlmələrinin birləşməsi (diqqət et: Corapor – Çala Bor – Borçala) sanırıq və xatırladırıq ki, bu mahalın yeri gah Şüləver, gah Şəmşöldə, gah da Lorudakı Dzoraket (Kolagirən) məntəqələri güman olunur; bunlardan başqa, M. Hörənli'də Bərdas-por vilayəti, Bartkəz bağçası, başqa qaynaqlarda Alget (Əlyət) sahilində Barshıs, Lök dağı ətəklərində Bördiki qalaları, Bördüzü çayının yuxarı axarına yaxında Barzlic gölü deyə anılanlar da diqqəti cəlb edir.

Hunların ilk xaqanı Duman xanın (m. ö. 220–209) adıyla, Tuman (Tümen) tərəflərdən gəlmiş Dumanlarla ilişkin olduğu bildirilən, M. Hörənli'də Dumanik, “Dədə Qorqud”da Tumanin deyə xatırlanan D m a n i s ; ilk dəfə Orbi (Qartal) yaxud Orbet (Qartallı), bəlkə də Örpək, sonra Şəmşidli (Gürcücə: Samşvilde – tərcüməsi: Üç ox vəya Oxluq, Kamanlıq) adlanmış, qaynaqlarda Şəmşüd, Səmşüld, Şəmşəd, Şəmşöldə deyə də anılmış, M. F. Kırzıoğlu'nun “Dədə Qorqud”dakı


downloaded from KitabYurdu.org

İç Oğuz elbəyilərindən Şir-Şəmsöldün mənsub olduğu boyla ilgilədiyi Şəmşöldə; ən öncə adı Kürqala olmuş, sonrakı H u n a n ; Sasanlı, Xəzər-Türküt naiblərinin iqamətgahı olmuş S u r t a y (bu toponimi Qrabarca çökək, çala anlamlı dzor, Ərəbcə də eyni anlamlı çur, yaxud sədd anlamlı sur, tac anlamlı sərir və əski Türkcə, Pəhləvicə dağ, Ərəbcə başlanğıc, Gürcücə baş anlamlı tau-tavi kəlmələrinin birləşməsindən düzəlmiş olduğunu zənn edirik; ayrıca, Kolagir–Kolayır toponimi də onun qarşılığı ola bilər, belə ki, kol Hunca, Xəzərçə çökək, çala anlamlıdır və gir, ayır əski Türkcədə yer, dağ anlamlıdır); Hunan'la Tiflis arasında yerləşmiş, Nuşirəvan'ın şenləndirdiyi K ə n d m a n (Qardman) şəhərləri, qəsəbələri... önəmli strateji, ticarət, sənət məntəqələri kimi seçilmişlər.

Qaynaqlarda Kəndman, Cor (Corak), Kol, Kəngər, Zop, Saqim (Cəhim), Daşır, Surtay əyalətləri yanaşı xatırlanır. Sözgəlişi: Ehramçay'ın qədim adı haqqında qısaca deyək ki, onu Strabon Xan, Ptolemey Kəsnə, Gürcü qaynaqları Ksia kimi anmışlar və bu adlar, bizçə, Yafəs'in nəvəsi, Oğuz'un əmisi, Kür xanın qardaşı Küz xanla (Küzsu, Küzçay), özlərini xan adlandıran Turanlı Hunlarla, onların əcdadları Hsia sülaləsiylə, qədim Türk qövmü Kösə ilə, Gürcücə Xram adının tərçüməsi yarğanın oxşarı kəsə kəlməsiylə (Kəsəçay) ilgili ola bilər.

Doğma yer adlarımız da sirli mətləblər soraqlayır. O sıradan
Şumerləri – Şahmarlı;
Sakların ayrım tirəsindən Sayatları – Saatlı;
Kimmərləri – Qəmərli, Qomaret, Qombor;
Kimmərlərin tirəsi Trərləri – Trialet;
Oğuzsoylu Bayları – Bəylər;
Bozox-Bozoğluları – Bəzəkli;
Bulqarların Qıpçaq tirəsi Kolları (Qulları), Alban tayfası Kelləri – Kolayır, Güləver, Qullar, Ağqula, Dəştiqullar;
Bulqarların tirəsi Sodaqları – Sadaxlı;
m. ö. Midyada əsas tayfalardan biri olmuş Muğları – Dağ, Bala, Qaş, Kirəc, Sərtçala, Yor Muğanlıları;
Xəzərləri – Kazret, Qazlar, Qazlıq, Kaspi, Kazbeq;
Xəzərlərin qövmlərindən Ulaşları – Ulaşlı;
Tabınları – Tapan;
Qaracörləri – Qaracalar, Qaraçöp;
Qabarları – Qabırrı;


downloaded from KitabYurdu.org

Getləri – Gödəklər, Gödəkdağ;
Göyərlərin qövmü Sarvanları – Sarvan;
Ağ Hunlar sayılan Abdalları – Abdallı;
Ağ Hunlar tirələrindən Padarları – Baydar;
Tələləri – Dəllər, Tüllər, Ağtala, Təhlə;
Qara Hunlar tirəsi Quşanları – Quşçu;
Türkütlər tirəsi Tanaları – Tona;
Sakların, Bulqarların tirəsi Təkələri – Təkəli, Beytəkər;
qədim Oğuz, Pəçənəq (Bacanaq) ellərindən Bolusları – Bolus (Bolnis);
Kəpənəkçiləri – Kəpənəkçi;
Sabirləri – Saburtala, iki yuz əvvələcən mövcud olmuş Sarısabirlər;
Oğuz oğlu Uruzu – Oruzman;
Uruz xan nəslindən Qırıxları – Qırıxlı;
Oğuz tayfası Əymirləri – İmir;
Oğuzun vəziri Ata Erkili – Arxılı;
Leqləri – Lök;
Xunan şəhərini, Xan çayını (və Sen-Martinin əsərində adı çəkilən Xantsıx qəsəbəsini) – Xancığazlı...
toponimlərimiz yada salırlar.

Bu civarda iki karvan yolu qovuşurmuş – bir yol Hunan şəhərindən, Ləkzən dağı ətəklərində Kəndman şəhəri yaxınından Ləzə bazarından keçir, bir yol da Bördüzü çayı boyunca gəlib Ləlvər dağı ətəklərindəki Ləl bazarından keçirmiş və hər iki yol Tiflis'ə gedirmkş; karvan məntəqələrindən biri də Alget'in sağ sahilində imiş və Dmanis'ə yol buradan ayrılırmış.

Mifoloji şəcərəmizə də görə, Borçalı bozqurd – börü oylağıymış və ulu əcdadlarımızı – börü ürəkli, bəbir biləkli oğulları bu barlı-bərəkətli torpağa həmən görklü varlıq gətirir; dünyanın lap əzəlində, Adəm Ata'nın vaxtından bir az sonra ulu anamız Anaxatır'a – Ehramçay'a mehrini salır, burayı yurd seçir. Bir çox əsatirlərdə Borçalı Oğuzların vətəni kimi təqdim edilir, Oğuz oğulları bu torpaqda qayalaşır, qalalaşır, yurdu yağılardan qoruyurlar. Əsatir örnəklərimizə görə, Borçalı məmləkətinin igid oğulları Uğurdur, Alp-Ərəndir, Borçalı gözəllərinin adları Xatun Çiçək, Xatun İpəkdir, Borçalı çəmənlərinin bəzəyi çobanyastığı, nərgizdir, Borçalıların ulu babaları Günəşə qurban kəsərmişlər, ağaclardan çinarı, almayı, ənciri, iydəyi, dağdağanı, heyvanlardan börüyü, maralı, ilanı, inəyi,


downloaded from KitabYurdu.org

atı, qurbağayı sınaqlı, uğurlu bilmişlər, saza-sözə tapınmışlar.

644-dən Tiflis və yörələri də əmirlik adıyla Ərəb xilafətinin tabeliyinə keçdi, buralar xəlifət, Bizans və Xəzərlər arasında hərb meydanına dönüşdü, İslam ordusu burada düşərgə salıb İslamı yaydı. Tarixyazarların soraqladığına görə, Ərəblər Cardaman, Hunan, Kisal, Qustasçı, Şavşet, Bazalet məskənlərini dinc razılıqla, könüllü olaraq fəth etdilər (Əhməd Bəlazurili), burada davasız olaraq bir çox qalaları və Tiflisə yaxın bir neçə şəhəri də ələ keçirdilər (Əbülhəsən Əsirli oğlu). Tiflis'də, Kəndman'da, Hunan'da, Dmanis'də Ərəb əsgəri bölükləri yerləşdirildi. Müsəlmanlar Hunan'da da ordugah quruban bu qəsrə, İstəxrili'nin yazdığına görə, Turan qalası adı verdilər. Bəlazurili'nin bildirdiyinə görə, sərdar Mərvan Hunana yaxın yerdə Kisal adlı şəhər (Kosalı kəndləri ağla gəlir) saldı, onu Ərəblərin Xəzərlərlə mücadilə düşərgəsi seçdi, buradan 20 min Xəzəri Kaxet'ə köçürdü. 729/730-cu (hicri 111) ildə Xəzər xaqanının Barsıl xatunundan doğulan oğlu Bərcil'in sərkərdəliyilə 300 minlik Xəzər ləşgərinin Ərəblərlə vuruşduğu, Tiflis'i tarmar etdiyi, həmən çağlar Qıpçaqların Gürcülərə qoşulub Ərəblərə qarşı çıxdıqları, 852-də sərdar Buğa Türk'ün burada da üsyanı yatırdığı, Azərbaycan əmiri Əfşan'ın buraları dağıtdığı, 854-dən Tiflis'ə, onun yörələrinə hakimlik etmiş Abbaslı Ərəblərin Daryal quzeyindən 300 ailəyi əsgəri güc kimi gətirib Dmanis'də yerləşdirdikləri... İslam və Gürcü salnamələrindən bəlli olur. 80-li illərdən iki yüz il Tiflis əmirliyinə Cəfərlilər Ərəb sülaləsi hakimlik etdi, Tiflis'də əmirlik əvvəlcə Narınqala'da, sonra İsan'da (Ərəbcə: qala) Ərəblərin ucaltdıqları Sağdəbil qəsrində iqamət qurdu. Bu illərdə Tiflis'də və yörələrdə müsəlmanlar çoxaldılar və Ərəb səyyahı Əbülqasim Havqəl oğlu'nun soraqladığına görə, bu müsəlmanların əksəri sünnü təriqətinə qulluq edirdi. O vaxt burada Türkmanların da yaşadığına Gürcü qaynaqları tanıqdırlar ("Gürcüstan'ın Yaşamı" vb.). Barsılların bir qisminin quzeyə və güney-günbatara yayılmağı da bu çağlardan başlandı. IX yüzildən Dmanis də İslam'ın qüdrətli ocaqlarından birinə çevrildi, bəlirli zaman kəsimində əmir burayı mərkəz seçdi.

IX, X yüzillər aşırımında xilafət zəifləyən vaxtlar Azərbaycan'da ortaya çıxmış Sacoğlular xanədanı, böyük bir əraziyi ələ keçirmiş Ərdəbil Salarlılar, Təbriz Rəvvadlılar dövlətləri buralardan xərac götürürdülər. 970-li illərdə burada Daşır–Corak Alban şahlığı yarandı, onun mərkəzi öncə Şəmşöldə, sonra Loru oldu.


downloaded from KitabYurdu.org

Oğuzların Qınıq tayfasından olan Səlçuqlar X–XI yüzillərdə Türkçülük, İslamçılıq bayrağı altında kütləvi halda bu tərəflərə axışdılar, tarix bilgini Nodar Şenqelia'nın dililə desək, "müntəzəm olaraq Gürcüstan'a soxulub önəmli strateji və inzibati məntəqələri tutdular... Gürcüstan ərazisinin Türkləşməsi qorxusu ortaya çıxdı".

1064-cü (h. 456) ildə Səlçuq sultanı Alp Arslan öz ləşgərinə Təbriz'dən 15 min seçmə atlı və 5 min piyada döyüşçü qoşub, Araz tərəfdən Kəngər'ə, Loru-Daşır'a gəldi, Loru, Şəmşöldə qalalarını fəth etdi, üstəgəl də, Səlçuq salnaməçisi Sədrəddin Huseynli'nin soraqladığı kimi, Loru əmirinin qızıyla evləndi və qohumluq, ana dili birliyi səbəbindən "bu mahalların əhli sultanın hüzuruna çıxıb İslamı qəbul etdi, sultan bu çəhətdən çox məmnun oldu, hamısının qüsul və abdəst alaraq təmizlənməsini buyurdu, kilsələr yıxıldı, məscidlər tikildi". Səlçuqnamələrdən, "Gürcüstan'ın Yaşamı" adlı Gürcü salnaməsindən, başqa qaynaqlardan görsənir ki, 1067–68-də Alp Arslan Tiflis'i, Bostanşəhər'i (Rustavi) fəth etdi, beş ay burada qaldı, Tiflis'də Süleyman peyğəmbərin yadigarı Kükürdlü hamamı bərpa etdirdi, şəhərdə Cümə məscidi inşa etdirdi, Gəncə Şəddadlılar hakimlərindən I Şahvur'u, sonra II Fəzl'i buralarda öz valisi qoydu; bu sırada üsyan edən Qaq qalası xalqı yatırıldı, Fəzl, Qaq'da, Qayazin'də möhkəmləndi. (Sözgəlişi: Qaqı David Musxelişvili Ağçaqala zənn edib, bizcə, Ağcaqala yerindəki qala Qurdbasar adlanmışdı, Qaqı arxeoloji tədqiqlərin X yüzildən varoluşunu təsdiqlədiyi Qoçulu qalasıyla ilgiləmək daha məntiqlidir və xatırladaq ki, bu gün də Borçalıda möhkəmliyin ifadəsi olaraq "Qaq qalası kimi" deyimi qalıb; Qayazin isə Arıxlı ilə Kolayır arasında yarğanın sağ qaşında yerləşirmiş).

Bu aralar Gürcü şahı IV Baqrat öz qızını Səlçuq vəzirinə verib barışdı. Sədrəddin Hüseynli'nin Səlçuqnamə'sindən aydınlaşır ki, Alp Arslan Tiflis'də vaxtilə Davud oğlu Süleyman'ın hazırlatdığı təbii isti hamamlar yanında məscid tikdirdi. Səlçuqların düşərgə-istehkamlarının Yağılca düzündə olduğu, Səlçuq sultanı Malik Şah'ın Şəmşöldə'yi ordugah qurduğu, onun əsgərlərinin 1076-da Gürcü silahlılarını Alget çayı qıyısında qılınçdan keçirdikləri, Loru–Corak, Dmanis mahallarını da özünə tabe etdiyi, sərkərdə Sərhəng Sivtəkin'in başçılığıyla iki minlik Səlçuq ləşgərinin Yağılca'da saxlandığı, sonra Eldəgəz hökmdarı Qılıc Arslan'ın 80 minlik ləşgərlə buraya hücuma keçdiyi, Malik Şah'ın qohumu İsmayıl Qütbəddin'in


downloaded from KitabYurdu.org

buralarda vali olduğu... haqqında da qaynaqlarda bilgilər verilir. Hər il yaz gələndə yeni-yeni Səlçuq kütlələri buraya axışırdı. “Gürcüstan'ın Yaşamı” salnaməsindən: “Türklər ölkəyi talayıb yağmaladılar, əhaliyi qılıncdan keçirdilər, ormanlarda, yaxud mağaralarda gizlənmişləri də tapdılar. Bu, Gürcüstan'da ilk Türklük (Turkoba) idi”. Şahlar şahı David'in salnaməçisinə görə, Səlçuq Türkləri qışı Qaçian'da, Ovçala və Diğom'da, Kür və Yor sahillərində keçirir, yayda öz barxanaları, mal-qaralarını yığışdırıb Tiflis'dən Bərdə'yə qədər Kür və Yor boylarına, Ağrı dağına yayılırdılar, Şəmşöldə, Dmanis, Rustav, Hürnəbürc, Qayazin, Qaq və başqa qalalar onların ixtiyarındaydı. “Səlçuqlar Tarixi” adlı Türk xronikasından böyük Türkman kütlələrinin ovalarda və yaylalarda heyvanlarıyla yaşadıqları, “bu yörələrdə fırsat bulduqca Gürcü ölkəsinə yağma və axınlar yapdıqları da” aydınlaşır.

* *

XI yüzilin sonlarında Gürcü şahı IV David (Quruçu David) Səlçuqlara xərac verməkdən boyun qaçırdı, Tiflis'i və yörələri onların yönətimindən çıxarmaq üçün tədbirlər tökməyə başladı. Bundan ötrü o, 1118-də Daryal vadisinə kedib quzeydəki Kuman-Qıpçaqların Gürcüstan'a əsgəri yardımı haqqında sövdələşdi, Gürcü salnamələrində deyildiyi kimi, hər ailənin öz atı və silahıyla bir döyüşçü vermək boynuna qoyuldu.

Adət və ləhcələrilə Oğuzlara oxşayan, sonra onlarla və Ruslarla yola getməmiş, Rus qaynaqlarında Poloves, Avropa qaynaqlarında Kuman deyə anılan bu Qıpçaqlar İdil-Ural-Don çayları hövzələrində yaşayırdılar. Ərəb yazarı Əbu Abdullah Diməşqi belə soraqlamışdır: “Qıpçaqların bir çox oymaqları var. Bütünü Türkdür: Börkü, Toksoba, İtoba, Bərək, İləris, Burçol, Kəngərol, Yimək. Qıpçaqların daha kiçik uruqları da var. Bunlar: Tok, Başkirt, Kumandur, Bərəndi, Bəçənə, Qarabörklü, Uzun və Çürtən”. Buradakı Burçol, Qarabörklü adları diqqəti çəkir. Qədim Barsılların törəmələri hesab edilən və Ərəb alimi Nüveyrili'nin ensiklopedik əsərində Burcoğlu deyə, 1185–1193-li illərə aid Rus salnaməsində Qarpat dağları yamaclarında, Dnepr sahillərində Qıpçaqların iri yığamatı kimi Burçeviç deyə də anılmış həmən Kuman-Qıpçaq oymağı B u r ç o l l a r l a da Borçalıların etnotarixi bağlılığı düşünülür. Mirzə Bala: “Kıyılarında yaşadıqları nəhrin və bölgənin adı olan Borçalı ilə Qıpçaqlardan Borçoğlu əşirətinin adı arasındakı bənzərlik də təsadüfi olmasa gərəkdir” (bu


downloaded from KitabYurdu.org

fikri akademik Ziya Bünyadov da təkrarlamışdır). İslam qaynaqlarında Qarabörklü, Moğolca siyah külahan, Rus salnaməsində Çyornıye Klobuki (Qara Şişpapaqlar) deyə anılan əşirəti Qarapapaqlar oxuyub düşünmək mümkündür.

Quruçu David Kuman-Qııpçaqların hökmdarı Ətrək'in qızı Qurantaxt'la evləndi, bu döyüşkən tayfa güçünə öz ordusunu möhkəmləndirdi. Ağüzlü, sarısaçlı, göygözlü, Türk irqinin sarışın gözəl soyundan olan bu Kuman-Qııpçaqlar Kür dolaylarını şenləndirib, yavaş-yavaş gündoğara və güneyə doğru səpələndilər. Gürcü-Qıpçaq döyüşçüləri Kür kıyılarındakı Səlçuq-Türkmanları ani basqınla məğlubiyətə uğradıb, 1121-ci (h. 515) ildə Tiflisi Gürcü şahlığının paytaxtı bəyan etdilər.

Marağa hakimi Ağ Süngər'in ləşgərinin Gürcü–Qıpçaq döyüşçülərilə Bördüzü'nün yuxarı qismində vuruşu da bu vaxtlar oldu. Şah David'in salnaməçisinin sorağına görə, Gəncə, Tiflis, Dmanis taçirləri və eləcə də sıxışdırılan Türkmanlar sultan Mahmud'un yanına gedib, ondan kömək görsətməyi rica etdilər, sultan fərmanıyla Səlçuq-Türkman ləşgərinin Məngilis yoluyla hücumu oldu.

Salnaməyə görə, quzeydən əsgəri güc kimi gələn Qıpçaqlar 40 minlik atlı-suvari əsgər və 5 min seçmə döyüşçüdən əmələ oluşdururdular. Valeh Hacıyev: Davidin 45 minlik qoşununda 40 min nəfəri bizim dildə danışan Türkləriydi. Z. V. Ançabadze'nin qənaətincə, Qıpçaqların öz ailələriylə köçdüklərini nəzərə alsaq, onda belə çıxır ki, Gürcüstan'a ən azı 225 min nəfər Qıpçaq gəlmişdi və bu o vaxta görə böyük say idi. Onlar nəsilbənəsil bölünərək, əsasən Loru, Şəmşöldə, Bostanşəhər və Sığnaq civarlarına sığınmışdılar. Zəfərlərdə xidmətlərinə görə, Qıpçaq ulusları Tiflis'in güney səmtlərində qışlaq yerləri aldılar, Gürcü şahlığının qoşun sərdarlığı da onlara həvalə edildi, Qurdbasar başbuğ (sərdar) oldu (Azərbaycan Atabəylərinin quruçusu Eldəgəz də Qıpçaq olmuşdur).

Qurucu Davidin oğlu I Demetre'nin yönətimi zamanında Qaq düzündəki Türkmanlar da yenildi. Sözgəlişi: Atası sayaq, Demetre'nin də Müsəlmanlara ehtiram bəslədiyi, üzərində Məhəmməd peyğəmbərin adı həkk edilmiş pul əskinazı buraxdırdığı, cüməadna günləri məscidə gedib xütbə dinlədiyi, məscidə tez-tez qızıl dinar verdiyi bəllidir. 1139-cu ilin payızında Gəncə'də zəlzələdən sonra Demetre'nin böyük ləşgərlə hücum edib şəhəri


downloaded from KitabYurdu.org

yağmalamağına cavab olaraq Səlçuqların Gəncə'dəki əmiri atabəy Qara Süngər Gürcüstan'a iki dəfə həmlə edib buradakı qalaları özünə tabe etdi. Eldəgəz 1160-cı (h. 556) ildə Qaq qalası yaxınındakı düzəndə düşərgə saldı, onun ordusuna bədbəxtlik üz verdi, adamlarının çoxunu ilan çaldı. Şah Giorgi də çoxlu qoşun yığıb gəldi, onunla üzbəüz mövqe tutdu. 1166-da Azərbaycan atabəy ləşgəri Səlçuqlarla birləşib Eldəgəz hökmdarı Məhəmməd Cahan Pəhləvan'ın başçılığıyla daha bir hücum etdi, Loru-Dmanis yaylağına çatdı, vilayəti yağmaladı. Gəncəlilərin, Səlçuqların Qaqa yürüşündə bir neçə Qıpçaq bölüyünün də onlara qoşulduğu qaynaqlardan aşkarlanır. Qıpçaq şahının qardaşı Salavat buradaydı. Giorgi Loruda və Dmanis'də ova çıxırmış, şah ordugahı Şəmşöldə yörəsindəydi.

Qıpçaq axını davam edirdi. 1118–24-lü illər arasında gələnlərə köhnə Qıpçaqlar, 1191–95-li illərdən sonra Qıpçaq sərdarının qardaşı Sevincin rəhbərliyilə gələnlərə yeni Qıpçaqlar deyilirdi. O çağlar Gürcüstan'ın gündoğarında Türklər əhalinin əksərini oluşdurduğundan Gürcü salnamələrində (“Şahlar Şahı David'in Yaşamı” vb.) bu ərazilərə böyük Türklük (Turkoba), Türkmanlıq (Turkmanoba) adları verilmişdir. M. F. Kırzıoğlu'nun fikri yada düşür: “Tiflis vilayətinə “Tərəkəmə Gürcüstan” deyilməsi qoyunçu və ilxıçı Qarapapaq Tərəkəmələrinin burada çox qələbəlik və güçlü olmalarından irəli gəlmişdi”. “Tacdarların Tarixi və İlk Çağları” adlı Gürcü salnaməsində XIII yüzildə Bördüzü yörələrində, Dmanis'də Türkmanların (Oğuzsoylu Qaramanlıların) yaşadıqlarına işarə var. Qıpçaqların Tərəkəmə ellərini sıxışdırmağı sonucunda buradan güney məmləkətlərə Oğuz-Türkman köçü oldu. Özəlliklə də, Oğuz-Səlçuqların bir qismi Anadolu'ya getdi, Türkmanlar kimi tanınanların bir qismi İraqa Fərat nəhri qıraqlarına, başqa yerlərə pələsəng düşdü.

Qıpçaq hökmdarı Burduxan'ın qızından doğulmuş gözəl xatun şah Tamar zamanında Səlçuq Qılıç Arslan'ın oğlu sultan Nurəddinin ləşgəriylə Gürcülərin vuruşu da Bördüzü'ylə Alget arasındakı Qurdbasar calasında oldu.

* *

1221-ci (h. 618) il yazda Göytürklərin Borçəy sülaləsindən Cingizli Moğollar Bördüzü tərəfdən qalın ormanlar, dərin dərələr, dağlar keçib Hunan düzündəki şəhəri qalasıyla bərabər dağıtdılar. Qaq mahalını aldılar, o il payızda da Gənçə'dən buraya gəldilər.


downloaded from KitabYurdu.org

1225-də Xarəzmşah Cəlaləddin'in əsgərləri buralarda göründü. Onun yürüşlərini salnaməyə köçürmüş Nəsəvili'nin əsərində deyilir ki, 30 minlik atlı ləşgər Loru şəhərinə yön aldı, onu taladı, çoxlu əsir və qənimət götürdü, Battax gölü sahilində onlara həmlə edən Gürcüləri pərən-pərən saldı, sonra Qaqlı Bəhram'ın üzərinə hücuma keçdi, Xarəzm'li əsgərlər çadırlarıyla mahala səpələndilər, əhaliyi taladılar, çoxlarını da dağlardan, dərələrdən atdılar. Sultan yol ağzında Şəkkan, Əlabad qalalarından yan keçdi, onları dağıtmadı, kafirləri odda yandırdı, Hunan düzündəki Qaq və Qayazin qalalarına gəlib çıxdı, üç ay mühasirədən sonra yörələrdəki oymaqları özünə tabe etdi. 1226-cı il yazda Tiflis'i aldı, yaxın vilayətləri də yerlə yeksan elədi, salnaməçi Rəşidəddin'in xatırladığı kimi, kilsələrin bir qismini uçurdu və onların yerində məscidlərin himini qoydu. 1228-də Cəlaləddin'in buraya daha bir yürüşü oldu. Gürcü şahı, “Qız Məlik” ləqəbli Rusudan Daryal səddini açıb Qıpçaqlardan yeni-yeni muzdlu əsgərlər gətirdi, onları sultanın Bolnis yaxınındakı ordugahına doğru həmləyə göndərdi. Sultan hiddətlənərək, onları əzdi, Tiflis'ə gəlib onu bir də talan etdi. Salnamələrdə Gürcü şahıyla Azərbaycan Eldəgəz hakimi Özbəy arasında Moğollara qarşı birgər mücadilə haqqında andlaşma imzalandığı, Moğollarla vuruşlarda Qıpçaqların igidlik göstərdikləri, Moğolların Avropa gündoğarına səfərə Qıpçaq Qarapapaqları apardıqları da anılır.

XIV yüzilin ortalarınacan Moğolsoylu Elxanlılara tabe olmuş bu tərəflər öncə müdrik vəzir Rəşidəddin'in oğlu Sutay'ın, sonra süd tərəfdən Türk olan Çobanlı Qazan Xan'ın, Şeyx Mahmud'un, Əmir Xuda'nın ixtiyarında idi. “Gürcüstan'ın Yaşamı”ndan: Elxanlılar Baydar oğlu Hüsü'nün başçılığıyla güclü ləşgərlə Gürcülərə hücum çəkdi, şah Giorgi'yi, bütün başçıları öldürdülər.

1386'da Orta Asya sərkərdəsi, Barlas tayfasından adımanşır Teymurləng'in (Topal Teymur'un) ordusu Yağılca düzündə qərar tutdu. 1392-ci (h. 794) il payızda əmir Teymur Tiflis'dən quzeydəki Qaraqalxan yaylağındakı Qıpçaq köçlərinin üzərinə gedərək, hamısını qəhr və pərişan etdi, orada eyş-işrətlə vaxt keçirdikdən sonra yenə Tiflis'ə gəldi. Sonrakı yürüş zamanı Alget qıyılarında, Şəmşöldə yörələrindəki olaylar Teymur'un səfər salnaməçisi Təbrizli Şami'nin “Zəfərnamə”sində belə yansıtılımışdır: “Bərdə'dən Gürcüstan çivavına gəldilər. Əmir dərhal orduya əmr verdi, vilayətə girdilər, əkinləri kökündən qırıb tarlaları dümdüz elədilər... O


downloaded from KitabYurdu.org

möhkəm qalaları tutdular, Müsəlman olanları buraxdılar, olmayanları qılıncdan keçirdilər... Giorgi ox yemiş pələng kimi bir ormana gizlənmişdi". 1402-də Teymur'un əmriylə əmirzadə Bahadır buralara hücuma keçdi məhsulatı əsgərlər yığdılar, xırmanlayıb yağmaladılar. Əmir vilayətin və nahiyələrin yönətimini Xorasan sərdarlarından Dağca Boran'a həvalə etdi. Gürcü qaynaqlarına görə, Teymurləng tez-tez Qarayazı'da şikara çıxırmış.

"Tacdarların Tarixi və İlk Çağları" XIII–XIV yüzillər aşırımında Gürcü şahı olmuş III Vaxtanqın ləşgərində min nəfər Qıpçağın döyüşdüyünə tanıqlıq edir.

Xarəzm'lilərə qohum Misir Əyyublu dövlətinin çağırışıyla oraya getmiş Kuman-Qıpçaq soylu Ulu-Barlı zümrəsinin Burçol (Burçoğlu) elindən bir dəstə dəliqanlı o vaxtlar pulla alındıqlarına görə Məmlük (ağ qul) adlanaraq, Əyyublu sultanlığının seçmə əmələsini oluşdurub, sonra köləlikdən azad olub özləri Məmlüklər tutub, sülalə quraraq hakimiyətə keçmişlər. bilginlər həmən Məmlüklərin Bəhri, Burci (Börci) sülaləsini Qafqazdan getmə, bəziləri də Qıpçaq Borçal oymağından, Borçalılardan törəmə saymışlar. M. F. Kırzıoğlu: "Xəzər dövləti yıxıldıqdan sonra Kuman-Qıpçaq topluluğuna qatılan Borçalılardan Misir'də yerləşənlər sultanlığa da keçərək, Qıpçaq Türkcəsinin bu ölkədə yayılmasına xidmət etdikləri kimi, ən böyük İslam–Türk padşahlarından sayıla bilmişlər". Misir, Surya və başqa məmləkətlərə, Məkkə, Mədinə'yə də hakimlik etmiş bu Məmlüklərin məşhur bəyləri Moğollarla savaşlarda gorsətdiyi hünərlərlə ilgili dastan qəhrəmanına çevrilmiş I Bəybars, Kalavun, Barkük, II Barsbəy, Malik Burci, 1517-də Osmanlıların taxtdan saldıqları Duman bəy vb. olmuşlar. Sözgəlişi: Kuman-Qıpçaqların Burçol adı XIV-XVI yüzillərdə Romən (Rumın) dövləti içində də görükür.

Gürcüstan'da qalan Qıpçaqların bir qismi özgə millətlərlə qohumlaşmaqla onlara qarışmışlar. Elə ellər, obalar, nəsillər olub ki, bir qismi Müsəlman, bir qismi Xaçpərəst olub. Xaçpərəst Qıpçaqlara Gürcülər Nakipçaqara, yəni Qıpçaqdan qalma, onların Müsəlman yurddaşları isə Qaxdağan, yəni Qaxınclı deyiblər. M. F. Kırzıoğlu Borçalı'dakı ikiqapılı kilsələri tez-tez din dəyişmiş, bir qismi Müsəlman, bir qismi xaçpərəst olmuş tayfaların – ikidinli Qıpçaqların ibadət ocaqları sayıb. Sözgəlişi: Gürcülər arasında az-çox yayılmış Saakadze, Sakaşvili, Kokaraşvili, Xazaradze, Basilaşvili, Turkadze, Burçanidze, Oğuzaşvili, Tataraşvili... kimi, Qibçaqaşvili


downloaded from KitabYurdu.org

(Qıpçaquşağı) soyadının da kökenbağlılığı ilginc məsələdir.
* *

Yazı qaynaqlarındakı bilgiləri bu civarlarda aparılmış arxeoloji qazıntıların nəticələri də tamamlayır. Sirvuclu qaya astanasında qəlbilənən Qoçulu qalasında aşkarlanmış X–XIII yüzillərə aid yeraltı keçid, hamamlar, saxsı qablar, bəzək əşyaları, özəlliklə də, Ərəb əlifbasıyla Quran ayəsi yazılı gil qabları tədqiqatçılar (M. Sinauridze vb.) İslam örnəkləri hesab etmişlər. (Sözgəlişi: El söyləncələrinə görə, bu qalayı Surya'nın Cabala şəhərindən buraya pənah gətirənlər uçaltmışlar. Xatırladaq ki, Cabala'dan əhali bir dəfə Müsəlmanların təzyiqilə 638-ci, bir də Bizanslıların təzyiqilə 968-də köçmüşdür). Arıxlı'da X–XIII yüzillərə aid üzə çıxarılmış ikipəncərəli kilsə, bu kilsə içində quyu məzar (mərhum üzü gündoğara dəfn edilmişdir), daş sanduqə tabutlar, səkkiz otaqlı yaşayış binasının, açıq hamamın qalıqları, cürbəcür çoxrəngli və sadə saxsı qablar önəmlidir. Arxeoloqlar (M. Sinauridze vb.) belə qənaətə gəlmişlər ki, həmən yerdə şəhər varmış, çayın yüksək qayalı sağ sahilində qəsr, aşağıda hər iki sahildə yaşayış məskənləri yerləşirmiş. Oradakı kilsə də, məzar da, başqa arxeoloji örnəklər də Qıpçaq tiplidir. İmirdə tapılan XIII–XIV yüzillərə aid məzar və ondakı əşyalar – parça qalığı, qızıl-gümüş üzüklər, bilərziklər, mirvari, mərcan muncuqlar, dəmir bıçaq, ox ucları, Qaçağanda dairəvi qübbəli, künbəzli, güney səmtdən qapısı olan türbə, burada dörd qəbir... ilgi çəkir. Bilginlər (R. Dolaberidze vb.) "tipinə, dəfn adətinə, ləvazimatların tərkibinə və düzeyinə görə" bu məzarların Qıpçaqlara aidliyini bəlirləmişlər. Dmanis'də XIII–XIV yüzillərə aid şəhəryanı Müsəlman məzarlığından tapılmış 1204 –1205-li illərə aid kufi, süls və nəsx xətlərilə yazılı epitafiya abidəsinin, 1340-cı (h. 741) ilə aid, üstündə "Sahibi: Kərəm xan" sözləri həkk edilmiş daşdanyonma at heykəlciyinin də dəyəri əvəzsizdir. XIV yüzilə aid üçü Dmanis'də, biri Balıc'da, biri də Şüləver'də künbəzli, yastı daşlardan hörülmüş, gündoğardan qapısı, quzeydən və güneydən pəncərələri olan dördkünc Müsəlman türbələri və onlarda Quran ayələri həkk olunmuş daş sanduqələr aşkarlanmışdır.

O çağların bizə amanatları bir də toponimlərimizdir Oğuz-Səlçuq, Türkman soylu Qaramanlı, Qacar, Hacılılar, Qırxlı, Saatlı, Candar; Qıpçaq soylu Baydar, Saraçlı, Qızılhaclı, Təkəli, İncəoğlu, Qarabörk, Şıxlar, Dəmirçili, Cəfərli, Gödəkli; Moğol-Tatar soylu Ələt... ellərinin


downloaded from KitabYurdu.org

adları bugünkü kənd, dağ, çay, nəsil adlarımızda qalır.

Buralarda təsərüfat, ticarət, mədəniyət, maarif gəlişmiş, yörük-elat yaşamı hökm sürmüş, Hunan, Kəndman, Qaq, Dmanis, Şəmşöldə, Ərkivan... şəhərləri, qəsəbələri önəmli məntəqələr sayılmış, o vaxt Böyük İpək yolunun Gəncə'dən gələn iki qolu buradan keçmişdir.

Əzəli mədəniyət abidələrimizdən biri möhtəşəm Qoçulu qalasıdır. Arxeoloq M. Sinauridze'nin fikri belədir: “Məhz bu vilayətlərdə mədəni həyat güclü olmuş, şəhər memarlığına və həm də sakinlərin yaşayışına, məişətinə o vaxt öz zirvəsinə ucalan Müsəlman kültürü təkan vermişdir. Rastgələ deyil ki, Qoçulu qalasında tapılmış hər iki tikili – hamam və yeraltı keçid Müsəlman mədəniyətinin izləridir. Saxsı qablar da biçim, bəzək və hazırlanma qaydasıyla İslam örnəkləridir, bəzilərinin üzərində Ərəb və Fars yazıları da var”. Memar Ömər Qoçulu'nun müşahidələrinə görə, bu qala ilkin ortaçağlar istehkamları qayəsindədir, onun həndəvərindəki sal qayadan oyulmuş quyular, bir az aralıda Maşaver (Qoruncaq) çayı üstündəki birtağlı Əyri körpü də sunurumuzdan bizə soraq yetirir.

Tiflis'də Ortacala, Şeytanbazar, Meydan, Qala məhəllələrindən aydın görünən, Şərq üslublu köhnə tikililərdən, Bəzəkli hamamdan, məsciddən o yana dağdakı Narınqala da Şərq koloritlidir.

IX yüzildə Narınqala'da Şahtaxtı istehkamında Müsəlmanların rəsədxana işlətdikləri, IX–XII yüzillərdə Tiflis'in, Hunan'ın, Dmanis'in Müsəlman intibah kültürünün məşhur ocaqlarına çevrildiyi, Alp Arslan'ın fəthi zamanı həmən ocaqlarda Nizamiyyə məktəbləri açıldığı, Qurucu David çağında karvansaraylar, Tiflis'də sənətçilərdə, İslam xadimlərindən, sufilərdən, şairlərdən ötrü saray tikildiyi, məscid bünyəsində mədrəsə və məktəblər təşkil edildiyi, bu aydınlanma ocaqlarının, Tiflis kitabxanasının bütün Şərq'də məşhurlaşdığı... qaynaqlardan aşkarlanır. VIII–XIV yüzillərdə yaşamış, “Tiflisli”, “Dmanisli”, “Hunanlı” nisbəli görkəmli fəqihlər (İslam xadimləri), alimlər, loğmanlar, sənətkarlar, münəccimlər, habelə ədiblər, şairlər bəllidir. Onlardan kamil hədisçi Abdullah Tiflisi (VIII yüzil), Tiflis mədrəsəsinin müəllimi Əbu Məhəmməd Həsənli Tiflisi (XI), hərtərəfli zəka sahibi, “İslamın ən ünlü alimi” kimi dəyərləndirilmiş Hübəyş (Hüseyn) Tiflisi (XII), sufi təriqət şeirinin görkəmli təmsilçisi Əbülbəka Nəcməddin Tiflisi (XII), Marağa rəsədxanasının yaradıcılarından və əsas alimlərindən biri olmuş Fəxrəddin Hilatlı-Tiflisi (XIII), dərin


downloaded from KitabYurdu.org

məzmunlu rübailər, peyğəmbərlərə vəsflər şairi Ömər Şəmsəddin Tiflisi (XIII), Quranın mükəmməl şərhçisi Hümaid Sədrəddin Dmanisi (XIII) və başqaları daha çox şöhrətlidirlər (Tiflis Müsəlman ədəbi mühitinin bəhrəsi olan "Şeyx Sənan" əsəri də IX–X yüzillərlə ilgilidir).

XIII yüzildə Misir'dəki Burci (Burçlu) sülaləsinin katib-yazarı olmuş Məhyəddin Zahir Gürcüstan tərəflərdə xalıçılığın geniş yayıldığını soraqlamışdır. Bu olqu da diqqəti çəkir: Berlin muzeyində saxlanan, əjdaha ilə qartalın (simurğun) vuruşu təsvir olunmuş xalının XIII yüzilin 50-li illərində Qazax'la Loru arasında toxunduğu güman edilir və bilicilərdən Mirəli Seyidov belə fikir irəli sürmüşdür ki, həmən xalı Oğuz-Səlçuq mədəniyyətinə aiddir, ya da onun təsirilə toxunmuşdur.


downloaded from KitabYurdu.org

▫

# ONBEŞİNCİ YÜZİL

1430-cu (h. 834) və 1432-ci (h. 836) illərdə Güney Azərbayçan Qaraqoyunlu hökmdarı Mirzə İsgəndər buralara qoşun çəkdi, Loru'yu, Şəmşöldə'yi ələ keçirdi. Bu yürüşlərdə onun qardaşı Cahanşah sərdarlıq edirdi. Cahanşah özü tac taxandan sonra, 1440-da iyirmi min döyüşçüylə bu tərəfə hərəkət etdi, salnamələrə görə, Qaraqoyunlular burada Şəmşöldə qəsrini dövrələdilər, şəhər qapısının önündə 1664 adam başından minarə tikdilər, ormanda, kolluqlarda tutulanlardan əlavə 9400 əsir götürdülər, Misir'ə, Xorasan'a, Bağdad'a, Tacikistan'a baha qiymətlərlə əsirlər satdılar. Qaraqoyunlu səltənətinə daxil olan oturaq Sədli, Qaramanlı, Haçılı Türkman ellərindən nəsillər buraya köçürüldü. Sözgəlişi: Turkman yayda dağda, qışda aranda yaşayan Tərəkəmələrə verilən addır, bu, daha çox Türk imanlı Oğuzlara aid idi və Borçalı'ya gələn Tərəkəmə ellərinin çoxu vaxtilə Moğolların basqısıyla buradan İraq'a, İran'a köçənləriydi. Sonra Cahanşah'ı taxtdan salan Ağqoyunlu hökmdarı Türkman Hasan (Uzun Hasan) 1458-də bizim tərəfləri də öz dövlətinə birləşdirdi, Loru'yu götürdü, Gürcüstan'ı talan etdi. Bu çağlarda Gürcülər möhkəmləndilər, Konstantin Tiflis, Loru, Şəmşöldə qalalarını da öz tabeliyində saxladı. Uzun Hasan Loru'da yenidən iqamət qurdu, Gürcü tarixçisi şahzadə Vaxuşti (Bəhişti) Baqrationi'nin yazdığı kimi, Kartli sınırı ağzında “Tatar eli” saldı, Azərbayçan tarixçisi Rumlu Həsən Bəy'in sorağına görə, 1471-də yayda əmirləri Mahmud Bəy'i, Süleyman Bəy'i və Bayındır Bəy'i iki min süvariylə Tiflis və Ərmən diyarına yolladı, 1476-da bir də yürüş edib, özüylə bir dəstə seyid və şeyx gətirib, “Gürcüstan vilayətini tutdu, çoxlu əsir götürdü və xeyli soyurqal (torpaq mülkü) payladı”. Turan'dan–Çindən gəlmə Oğuzların Üçox qolundan olduğu güman edilən İber şahı Ərtək oğlu Baratmanın törəmələri Barataşvililər və Çin-Bakərin törəmələri olub Orbi (Qartal) qəsrində möhkəmləndikləri səbəbinden özlərini Orbellilər – Orbeliani adlandıran nəsillər bu vaxt soyurqal sahibi oldu.

Uzun Hasandan sonra onun oğlu sultan Yaqub'un dövründə Ağqoyunlular 1482-ci və 1486-lı illərdə bu civarlara yürüşə keçdilər. İkinçi yürüşdə Yaqub'un ləşgəri 40 gün savaşdan sonra Dmanis və


downloaded from KitabYurdu.org

Güvəc'i fəth etdi, sonra Bördüzü və Alget çayları qıyılarında düşərgələr qurdu. Vaxuşti: "Sultan Yaqub Borçalı ellərini gətirib burada sakinləşdirdi və burayı Borçalı adlandırdı... Tiflis xanlığının da hakimi Borçalı'danıydı". 1488-də Yaqub öz sərkərdəsi Xəlil Bəy'i buraya göndərdi. "Gürcüstan'ın Yaşamı" salnaməsindən bəlli olduğu kimi, o, Qaq, Qayazin qalalarını bərpa etdi, Ağca-qala'yı tikdi, bu qalaları özünə dayaq nöqtələri seçdi. Vaxuşti'nin yazdığına görə, Xəlil Bəy burada iqamət quraraq, bütün Borçalı'ya, Kartli'yə, Tiflis'ə də göz qoyurdu. 1490-da Candar kəndi üstündə Gürcülərlə Ağqoyunlu ləşgərinin savaşı oldu, Konstantin qoşun toplayıb yerli tayfalara divan tutdu, Ağcaqala, Qaq, Qayazin qalalarını dağıtdı. Ağqoyunlu'lara aid Fəzlullah Xunci'nin salnaməsindən: Alget yanında əmir Xəlil Bəy'in qoşununa eşikağası Vəli Ağa'nın qoşunu birləşdi, qışın şaxtasına rəğmən, onlar Qucur qalasını dövrələdilər, İslam qazıları qalayı ələ keçirdilər, bu zəfərdən sonra Müsəlmanlar Tiflis'ə doğru irəlilədilər, əmirlər bir neçə gün Kür qırağındakı Qorquday (Soğanlıq) kəndində dincəldilər. 1489-cu il fevralın sonlarında Vəli Ağa Tiflis'i də fəth etdi.

... Balıc kəndi yaxınında Əbülbağa adlı yerdə daşdanyonma bir at və iki qoyun heykəlləri tapılmışdır (qoyun heykəlləri hazırda Tiflis'in mərkəzini bəzəyir), onların üstündə züllə (şiş) papaqlı kişi (Qarapapaq), at, keçi, bardaq, yunqırxan təsvirləri, Ərəb yazılarının izləri var. Bu abidələri, ayrıca, Ayorta'da, Güvəc'də, Oruzman'da, Hamamlı'da, Təkəli'də... aşkarlanmış at, ağ qoç, qara qoç heykəllərini bilicilər (Manana Sinauridze, Məşədixanım Neymətova) XV yüzilə şamil etmişlər, buralarda şenlənən Türk Tərəkəmələri, Qaraqoyunlu, Ağqoyunlu tayfalarıyla ilgiləmişblər.


downloaded from KitabYurdu.org

▪

# ONALTINCI YÜZİL

... Bir neçə on il Gürcü şahlığı güclü dövlət olaraq qaldı.

XVI yüzilin başlarından Osmanlı'larla Səfəvi'lər Sünnü-Şiə davasına başladılar və Borçalı'yı da hərə özünə tərəf çəkməyə çalışdı. Öncə buraya Osmanlılar gəldilər. Sonra mərkəzi Təbriz olan qüdrətli Azərbaycan Səfəvilər dövlətinin banisi Şah İsmayıl'ın Qızılbaş ləşgəri Div Sultan'ın başçılığıyla 1518-ci (h. 924) və 1520-li illərdə Şiəliyi yaymaq, möhkəmlətməkdən ötrü buralara yürüş etdi. (Xatırladaq ki, bir çox Türkdilli Tərəkəmə tayfalarını birləşdirən Qızılbaşlar topluluğunda b o z ç a l ı yaxud b o r ç a l l ı tayfası da olmuşdur). Şah İsmayıl Türkman ulus ləşgəriylə Şürəgəl yoluyla gəlib Kartli'yə hücuma keçəndə Ağçaqala'yı dayaq nöqtəsi seçdi. 1522-də Ağcaqala'yı yenidən qurdu. Gürcü qoşununun toplaşdığını eşidən Şah İsmayıl öz baş sərdarı Qarafil'i, sonra miskərbaşı İlyas Bəy'i qoşunla göndərdi, sonra isə özü böyük qoşunla buraya daxil oldu, Telet'də David'i məğlub edib Yağılca düzünə çəkildi, sonra Tiflis'i də zəbt etdi, körpü, məscid tikdirdi, qalada öz döyüşçülərini möhkəmləndirib getdi. Vaxuşti soraqlamış ki, Şah İsmayıl öləndən sonra Gürcü şahı David Tiflis'də Qızılbaşlara divan tutdu, üstəlik Ağcaqala'yı da aldı, onu dağıtdı.

Şah İsmayılın oğlu I Təhmasib'in hakimiyəti çağında Qızılbaşlar Borçalı'yı bir neçə dəfə talan edib, çoxlu qənimət ələ keçirdilər, sonuncu yürüşdə Təhmasibin özü gəlib Tiflis'i fəth etdi. Səfəvi tarixçisi Rumlu Həsən Bəy: “Şah Təhmasib dördüncü səfər Barat eli deyilən çox ormanlıq bölgəyə gəldi. Buraların xalqı sarp dağlara, uca qalalara və sıx ormanlar içinə sivişmişdi. Qızılbaş axınçıları buraları talayaraq, yaxaladıqlarını öldürdü, çoluq-çocuqları dustaq aldı, saysız sığır və qoyun yağmaladılar”.

1549-da Osmanlı sultanı Süleyman vəzir Əhməd paşa'yı Gürcüstan'a yürüşə göndərdi, Osmanlı qüvvətləri 6 həftə içində 20 qala, o sıradan Ağcaqala'yı tutdular. Təhmasib Trialet'i, Baratlı'yı əldə saxladı, 1551-də Baratlı'yı özünə oğulluğa götürdüyü, Müsəlmanlaşmış Daud xan'a (David'ə) həvalə etdi. 1555-də Amasya andlaşmasına əsasən, Borçalı Səfəvilər'də qaldı. Belə qarmaşıq durumda yerli Müsəlmanların bir qismi başına on iki imamın adı


downloaded from KitabYurdu.org

yazılı qırmızı çalma bağlayaraq, Qızılbaşlara meylli, Şiə olduqlarını sərgilədi, bir qismi də başına qara papaq qoyaraq, Sünnülüklərini bildirdi. Borçalı'dan bir neçə Sünnü eli yesirliyə (sürgünə) vadar edildi.

Səfəvilərin tabeliyindən çıxmağa çalışan Kartli, Baratlı, Tiflis yenildi. Yağılca'da çadır qurmuş Səfəvi ləşgərinə Ziyadoğlu Şahverdi xan, Qızılbaş əmiri Qaramanlı Bayram Bəy sərdarlıq edirdilər. Borçalı xanlıq oldu.

Təhmasib'in ölümündən sonra Səfəvi səltənəti zəifləyəndə əsarətdən çıxmaqdan ötrü Gürcülər Borçalılarla birləşdilər. İki il hakimiyyət başında olan II İsmayıl (1576–1578) dönəmində bir çox Səfəvi əyalətləri kimi, Gürcüstan da azad oldu. Xudabəndə ləqəbli Məhəmməd'in (1578–1587) yönətiminin ilk dörd ili sürəcində də belə davam etdi. Həmən Məhəmməd Gürcüstan'ı onlara itaətə gətirtməkdən ötrü ordu göndərdi. Daud xan ordunun yaxınlaşdığını eşidən kimi qaçdı. Gəncə'də dustaq olan Simon İslamı qəbul edib Tiflis'in xanı oldu, Loru'da, Şəmşöldə'də öz adamlarını yerləşdirdi.

1578-də Osmanlılar Sünnülük bayrağı altında Ağbaba yoluyla Loru-Borçalı'ya gəldilər, Osmanlı salnaməçisi Məhməd Solakzadə'nin dililə, “Qızılbaşlara dadlı şərab yerinə ölüm şərbəti içirtdilər, Tiflis qalasını da yörəsindəki kənd və qəsəbələrlə birlikdə Osmanlı ölkəsinə qatdılar”. Osmanlı qüvvətləri sultan Murad'ın əmrilə Lələ (Qara) Mustafa Paşa'nın sərdarlığıyla o ilin avqustunda Tiflis'i tutdular, iki il sonra Şəmşöldə'də, Dmanis'də də möhkəmləndilər. Salnaməçi İbrahim Pəçəvi'nin sorağına görə, Lələ Mustafa köhnə Dmanis'dəki qalayı bərpa etmək istəmiş, qar-yağış aman verməmişdir. 1583-də Osmanlıların yürüşünə salnaməçi Şərəf Xan Bitlisi də qatılımış və onun yazdığına görə, Gürcülərlə və Qızılbaş əmirlərilə Ərzurum bəylərbəyisi Hasan Paşa'nın başçılıq etdiyi Osmanlı qüvvətlərinin vuruşu Dmanis vadisində getmişdir. Bayat Oruç Bəy'in xatirələrindən: “Simon və Səfəvi sərəsgəri Əliqulu Xan Tiflis'lə Dmanis arasında istehkamda möhkəmləndilər, qəfildən Türklərin ön qüvvələrinə hücuma keçib onlara böyük zərbə vurdular... Əliqulu Xan tezliklə düşman döyüşçülərinin əhatəsində qaldı. Əliqulu Xan əsir tutuldu, Simon isə qaça bildi. Hasan on iki gün dinçəlib öz qüvvətlərini Tiflis'ə göndərdi, oradakı Türk qarnizonunun yardıma ehtiyacı vardı”. Qaynaqlardan bəlli olur ki, 1584-cü ilin yazında Osmanlılar vəzir Fərhad Paşa'nın sərdarlığıyla


downloaded from KitabYurdu.org

Loru qalasını bərpa etdilər, yeni Dmanis qalasını tikdilər, Dmanis'də bəylərbəyi qurularaq, buraya Səməndər Paşa bəylərbəyi və Ərzurum Paşası mühafiz qoyuldu, Dmanis bəylərbəyliyinə 8 min adam və yüz top verildi. Bir il sonra Fərhad Paşa Loru qalasını da ələ keçirdi, onu bərpa edib əyalət mərkəzinə dönüşdürdü, Borçalı elləri də bu əyalətə qatıldı. O çağın yazarı Mustafa Selaniki'nin bildirdiyinə görə, fəth olunan yerlərə Çərkəz Mahmud Xan bəylərbəyi qoyuldu, sonra onun yerinə Nazar Paşa keçdi. Osmanlı ordusunun səfər katibi Sübhi Talikzadə: "Osmanlı ordusu 8 mart 1585-ci il günü Tiflis və Loru bəylərbəyiləri... qışlaqda toplu bulunduqları bir sırada Ağcaqala yanında Baydar qışlasında bir basqın yaparaq, başları olan Nazar Bəy nam mülhidlə vuruşaraq, sancaq ələmlərini alıb, Nazar Bəy'in oğullarını və əhli-əyallarını ələ keçirib əsir ala bildi". Başqa bir Türk salnaməçisi İbrahim Rəhimizadə: "Bu fəthdən sonra Nazar Xan Səfəvilərdən üz çevirərək, 1587-ci il 28 avqust günü Osmanlı sərdarı vəzir Fərhad Paşa'nın hüzuruna gələrək itaət etdi və Aşağı Borçalı'da ataları mülkü olan Ağcaqala viranəsini bərpa etdirib şenləndirdi, orduda böyük xidmətlərdə bulunduğundan Borçalı çayı boylarını içərən Loru əyalətinə Nazar Paşa adıyla bəylərbəyi bəyan edildi. Beləcə, bütün Borçalı–Qazaxlar Osmanlı idarəsinə keçib, öncələr olduğu kimi, yenə də hənəfi oldular, "nə sünnü, nə də şiə, xəlis Müsəlmanıq" dedilər".

1590-cı il İstanbul anlaşmasıyla Borçalı Osmanlı məmləkətində sayıldı, Borçalı'nın daxil olduğu Loru vilayətə çevrildi.

1599-da Alget sahilində Osmanlı sərdarı Cəfər Paşa'nın və Gürcü valisi Simon Xan'ın qoşunları arasında savaş oldu. Borçalı atlılarının yardımıyla Simon Loru'yu ala bildi. 1600-cü (h. 1009) ildə Simon'u qətlə yetirən Təbriz–Van valisi Cəfər Paşa Alget'dəki vuruşla Loru'yu, Ağcaqala'yı ələ keçirdi. Osmanlılar Narınqala'da iqamətgah qurdular, ayrıca qüllə ucaltdılar (sözgəlişi: Narınqala'nın qüllələrinin birinin Təbriz, birinin də İstanbul adlanmağı bununla ilgilidir).

Beləcə olayların sonucunda Borçalı əhalisi əzab çəkirdi, Səfəvilər gələndə Sünnülər, Osmanlılar gələndə Şiələr zor durumda qalır, qılınça sarılıb, daş-kəsəklə, çəkic-baltayla, ağac-qamçıyla silahlanıb, qayalara sığınırdılar, ya da qərib yerlərə dərbədər düşürdülər, o sıradan yüzilin sonlarında xeyli Şiə eli İran'ın Qaşqay, güney Azərbaycan'ın Məşkin səmtinə, İraq'a, Qarabağ'a köçdü.

* *


downloaded from KitabYurdu.org

... Gürçü, Osmanlı, Səfəvi qaynaqlarından o çağın el-oba, boy-oymaq, nəsil-şəxs, dağ-çay... adlarımızı da öyrənirik. Gürcüstan mərkəzi arxivində saxlanan 1523-cü ilə aid Barataşvililərin – Baratlıların bölgü kitabında bizimkilərdən yeddi nəfər – Fəxrəddin, Əmir, Nadir, Vəliçan, Bünyad, Usuf, Yaxşı, 1536-cı ilə aid bölgüdə qırx nəfər – Pirəziz, Allahverdi, Şıxıoğlu, Xuda, Ağaquluuşağı, Şahverdi, Nazar, Sultan, Maxsud, Piri, İsa-Bəy, Ağababa, Molla Şıxı, Həmzə... kimi yurd-mülk sahibi, habelə Dmanis vadisində Kərəmdərə, Yalğuz, Qədirqulu, Oruzman, Aşağı Şindilər, Dunus, Ksiyə vadisində Darbasçala, Çanaçala, Hulud, Çırayurd kənd adlarına rast gəlirik. O çağlar qaynaqlarında Dmanis qalası yörələrində Qızılqaya, Balıc, Şahmirən, Öyüngörün, Kirkövən, Mirabda, Şövkan, Qoruncaq, Altunçukənd, Leyləyuçan, Əngirəvan–Səməkürə, Nazar, Sultan, Oruc, Qələmşah, Micə, Tiknəd, Basilli, Köbəvən, Diləmeşən... toponimləri də var (sözgəlişi: Ş. Bitlisi XVI yüzildə Gürcüstan'da Arux tayfasını xatırlamışdır). 1590-cı ilə aid "Tiflis Əyaləti Təhrir Dəftəri"ndən bu əyalətin altı vilayətdən oluşduğu, o sıradan da Tiflis vilayətinin Baratlı, onun güneyindəki Bayındar (Baydar) və Borçalı-Tərəkəmə xalqlı 80 kəndli Dəmirçihasanlı nahiyələrini, Ağcaqala vilayəti-sancağının Ağcaqala, İncə, Cuvar, Türk nahiyələrini içərdiyi aşkarlanır. İstanbul Başbakanlıq arxivindəki bəlgələrə görə, Loru vilayətinin 12 oymağından 6-sı Qazax qoluna (Qazaxlar, Baydar, İspirli, Dəmirçihasanlı, Cəkvənli, Nəhri), 6-sı da Borçalı qoluna (Ağtala, Ozanlar, Kolagirən, Daşır, Pəmbək, Arpalı) aiddirlər. 1590-dan sonra yazılmış "Loru Vilayətinin Timar Dəftəri"ndən bu bəylərbəyiliyin beş sancağa ayrıldığı, Pəmbək sancağının Sarıyar nahiyəsindəki kəndlərdən birinin Borçalı adlandığı aydınlaşır. S. Talikzadə, İ. Rəhimizadə Loru qalasının, Ağcaqala'nın yanından axan çayı Borçalı anmışlar.

XVI yüzildə biçimlənmiş "Aşıq Qərib" dastanımız daha çox Tiflis'lə, onun yan-yörəsiylə ilgilidir. Qərib'i qardaşı Borçalı'dan keçən Dona (Debed) çayından sorur və bu çay: "Yaz fəslində çanağından coşarsan, neçə-neçə dənizləri aşarsan" – deyə; Borçalıların Tiflis quzeyində, Daryal güneyindəki Qaraqalxan yaylaqları: "Bir davardan yüz istərəm, Qaraqalxan dağım ola" – deyə öyülür. "Əsli və Kərəm", "Koroğlu" və başqa dastanlarda olay hörgüsünün Borçalı'da cərəyan etdiyi yerlər var. Borçalı'dakı Koroğlu qayaları qeyrət rəmzləridir.


downloaded from KitabYurdu.org

Şah İsmayıl sarayında Borçalıəsilli bir qadının rübailər söyləməsi soraği da ilgincdir, önəmlidir.


downloaded from KitabYurdu.org

▫

# ONYEDDİNCİ YÜZİL

XVII yüzilin ən başlarında Səfəvilər sülaləsindən I Şah Abbas'ın ordusu Alget qıyısında Yağılca'da çadır qurdu, 1604-cü (h. 1012) ildə Borçalı çayı boylarını ələ keçirdi, bu civarları Osmanlılardan təmizlədi, iki il sonra şah özü Loru'ya çatdı, bəylərbəyi Nazar Xan oğlu Məhəmməd'dən qalayı təslim aldı, Zaqəm'i, köhnə Hunan'ı tutdu, buralara Qızılbaş elləri sakinləşdirdi. Osmanlı saray salnaməçisi Mustafa Nəimə: Şah Abbas Qızılbaş ləşgəriylə İrəvan xanı Əmirgünə Xan'ı (Sarı Aslan'ı) Ağcaqala'ya göndərdi, Ağcaqala'yı alandan sonra bir çox yerli sakinləri İsfahan'a sürgün etdi. Səfəvi tarixçisi İsgəndər Münşi: Dmanis qalasından itaət kağızı gəldi, fərman verildi ki, bu məmləkətdə olmağı istəyənlərdən Osmanlı dönəmindəki üluf və timar əsgəri vergilər iki qat azaldılsın, Osmanlı'ya getmək istəyənlər öz xalqı, ailəsi, mal-dövlətilə köçsün.

Tiflis'də Səfəvi ləşgərinə Ziyadoğlu Məhəmmədqulu Xan Qacar sərkərdəlik edirdi, burada o, böyük bir karvansaray bina etdi. Dmanis, Ağcaqala, Şəmşöldə qalaları üstündə də ayparalı bayraq dalğalandı. Bu illərdə Şah Abbas on minlərlə Gürçüyü Mazandaran'a, Fars əyalətinə yesir apardı, Osmanlılara tərəfkeşlikdə şübhələndiyi Sünnüləri qırdı, onlardan minlərlə əsiri Gəncə–Qarabağ, Şirvan, Şiraz tərəflərə köçürdü, Qızılbaş əmmaməsi qoymayanlara rəsmi “Sünnü vergisi” qoydu, İran'dan, İraq'dan Türkman Şiə ellərini buraya qaytardı. Vaxuşti: “Şah Abbas Borçalı ellərini gətirib burada yerləşdirdi və bununla bura Borçalı adlandı... Çayın gündoğarı Borçalı'ya, günbatarı Gürcü şahına aid idi”. Qaynaqlar bildirir ki, Borçalı'ya qayıdan Tərəkəmə (Türkman) elləri Təkə, Əhmədli, Xoçalı, Hacılı, Əmirli oymaqlarıydılar. O vaxtlar ayrıca Türkman ulus ləşgəri də olmuşdur.

1612-ci il İstanbul müqaviləsinə əsasən Borçalı mahal tək Səfəvi dövlətinin tabeliyində qaldı. İsgəndər Münşi: Loru bəylərbəyisi Məhəmməd babası Bədrəddin Bəy kimi “Gürcülərin mallarını yağmaladıb, çoluq-çocuqlarını dustaq etdiyinə görə” şah buyruğuyla dar ağacından asıldı, onun yerinə qardaşı Mustafa bəy keçdi, iki il sonra Şəmsi xan Loru valisi atandı.

1614-də qışı Gəncə'də keçirən şah ilkbaharda Borçalı'ya gəldi.


downloaded from KitabYurdu.org

Ona burada Quşçu Zakir Ağa bələdçilik edirdi. Narınqala'ya Borçalı Söhrab Ağa qalabəyi keçdi. Şah Qarayazı'da dincəlir, ova çıxırdı. Kartli vilayətinin də, Borçalı'nın da hakimliyi Peykər sultana həvalə edildi. Gəncəli Ziyadoğluların qulluğunda olmuş tarixçi Hacı Mehdiqulu Qacar'ın salnaməsindən: "1615-ci (h. 1024) ildə Təhmuraz xan Qızılbaşlara qalib gəlmək üçün sərdar Əliqulu xan'ı qoşun başçısı qoydu, Böyük savaş getdi. Qızılbaş ləşgəri məğlub oldu. Əliqulu Xan Tiflis qalasına girdi. Bu mübarizədə Gəncə bəylərbəyi Ziyadoğlu Məhəmməd din yolunda şəhid oldu". Bu məğlubiyətə və Gürcü şahı Laursab'ın öz bacısı Darəcan (Pəri) xanımı ona vermədiyinə görə Şah Abbas qisas amacıyla Alget'dəki ordugahdan Tiflis'ə, Kaxet'ə qoşun çəkən sərdar qorucubaşı İsa xana bu yerləri Gürcülərdən təmizləyib, qarşılığında Lək-Türkman tayfaları yerləşdirməyi tapşırdı. Uzun sürə İran şah sarayında olmuş, İslamı qəbul etmiş mourav Giorgi Saakadze'nin başçılığıyla Gürcü üsyançıları qoruçubaşıyı öldürdülər, Gəncə–Qarabağ ərazisinə həmlə etdilər, 1625-ci il iyulun 1-də Candar–Marabda çölündə Qızılbaşlarla Gürcülər arasında qızğın döyüş getdi. XVII yüzil tarixyazarı, qırx il Səfəvi sarayında yaşamış Parsadan Qorqicanidze'nin salnaməsindən: "Nizə zərbələri başladı, qılınc və toppuzlar havada oynadı. Şah Təhmuraz özü İrəvan bəylərbəyisi Əmirgünə Xan'la üzbəüz gəldi. O, nizəylə Təhmurazı vurub atın sarğısına oturtdu. Gürcülər özlərini yetirib Əmirgünə Xan'ın nizəsini ikiyə böldülər. Şah yenidən yəhərə oturdu... Öz nizəsini də ikiyə bölüb Əmirgünə Xan'ı atdan saldı. Qacarlar bəylərbəyinin yardımına çatdılar, Gürcülər də şığıdılar və çoxlu adam qırıldı... Azərbaycan bəylərbəyisi Şahbəndə Xan öz ləşgəriylə qəfildən meydana atıldı. İrəlidə açıq halda ağ bayraq tutub ucadan qışqırırdılar: "Şah gəldi, Şah gəldi!". Və Gürcüləri ağlaya-ağlaya "Təhmurazı öldürdülər" deyə qışqırmağa məcbur etdilər. Gürcülərin geri çəkildiyini görən qorucubaşı sevindi, cəsarətə gəldi. O, vuruş meydanından qaçmış Şahbəndə Xan'ın Qızılbaş ləşgərini toplayıb Gürcülərin dalınca hücuma keçdi, ələ keçənlərin hamısını öldürdü... Kartli və Kaxet'in bütün məhsulu Qızılbaşlara qaldı. Gürcüstan'ı odlara qalayıb dağıtdılar". Bu döyüşdə çoxlu Gürcü əsgəri qırıldı, o sıradan doqquz Xerxeulidze qardaşları, doqquz Maçabeli, yeddi Çoloğaşvili həlak oldular. Kartli'nin aşağı bölgəsinin tavadı Müsəlmanlaşmış Baratoğlu (Barataşvili) Keyxosrov İran şahının qulluğunda dayandı. Səfəvi


downloaded from KitabYurdu.org

qoşunu Narınqala'da möhkəmləndi. Gənçə–Qarabağ bəylərbəyiliyi də şaha sədaqətinə görə Narınqala sərdarı Daud Xan'ın tabeliyinə verildi.

Sonra buralar Şah Səfi yönətiminə keçdi. O, Soğanlıqdan günbatar səmtdə Qorqud adlanan yerdə təpə üstündə şah evi tikdirdi, ona Səfiabad adı verdi. Vaxuşti: "Şah Səfi Hallavar'dan aşağı Nəcbəddin'əcən, Nazarkənd'əcən Baydar sultanlığı qurdu". Bəlirli zaman kəsimlərində Baydar sultanlığıyla yanaşı Borçalı sultanlığı, Baratlı, Somhut, Daşır, Trialet tavadlıqları da varıydılar. (Baratlı üç nahiyəydi: Qaplanlı, Yarallı, Zöhrablı).

1640–50-li illərdə on yaşlı şah II Abbas dönəmində buralarda qanlı olaylar baş verdi. V Vaxtanq'ın (Şahnavaz'ın) hakimiyəti illərində Borçalı'da sultanlıqlar və tavadlıqlar qaldı.

Gürcü salnamələri bunu da soraqlayır ki, Kaxet (Qarağac) o çağlar Gəncə xanı Səlim'ə tabeydi, Qarabağ'dan Cavanşir, Bayat-Arbatan ellərindən buraya 15 min oymaq köçürüldü. 1687-də Qızılbaşlar Baratlı'yı və Trialet'i ələ keçirdilər.

Yüzilin son onilində Gürcüstan valisi, İslam aləmində Nəzərəli Xan kimi tanınan I İrakli'ylə onun qardaşı Arçil (Abdulla Bəy) birləşdilər, öz əsgərləriylə Bolnis'də düşərgə qurub yubanmadan Borçalı'ya yürüş etdilər. Vaxuşti: 1695-də Nəzərəli xan və Kəlbəli xan Dmanis vadisini keçib Qarabulaq'da dayandılar.

* *

Gürcüstan Mərkəzi Arxivində Ağcaqala'nın yönətimçisi Mehdi Xan'ın yerinə oğlu Mustafa sultanın qoyulması haqqında Şah Sultan Hüseyn'in fərmanı qorunur. XVII yüzildə Borçalı'nın başqa öndər adamları – 1653-də ağalıq almış, Kürdən ayrılan Şahbəddin arxını bərpa etdirmiş, Qaplan'dan Muxnar (Palıdlı) kəndini satın alıb evlər tikdirmiş Oruc oğlu Əli ağa, Loru-Pəmbək'ə və Ağcaqala'ya da hakim olmuş İsa xan, 1659-da ağalıq almış mustofi (xəzinədar) Məhəmməd Zaman, 1693-də ağalıq kağızı almış, Səfiabad qalasında minbaşı, Kartli'nin mustofisi Yadigaroğlu Məhəmməd Bağır Bəy, sonra bu vəzifəyə keçmiş oğlu Mirzə Sadıq, Somhut'un mustofisi Mehdiqulu Xan, I İrakli'nin sarayında eşikağası olmuş Miriman (Nəriman), eyni sarayda mehmandarbaşı olmuş Allahverdi, talağa yazan xəttat Mirzə Məhəmməd Ağa və başqalarının qaynaqlarda adları çəkilir.

Başqa ilginc qeydlər: Parsadan XVII yüzilin ortalarında burada bizimkilərin beş min ailə el və oymaq olduqlarını, Qarayazı'nın


downloaded from KitabYurdu.org

Borçalı'lara ov yeri verildiyini bildirmişdir; 1651-də Qoçulu körpüsü, o çağlar Sınıq körpü yenidən qurulmuşlar.


downloaded from KitabYurdu.org

## ONSƏKKİZİNCİ YÜZİL

Borçalı'nın həyatında mürəkkəb dönəm olan XVIII yüzilin başlarında Borçalı çayı boyunda Loru–Borçalı xanlığı, Anaxatır'ın aşağısında Baydar sultanlığı, onun orta axarında və Dmanis vadisində Orbelli tavadlığı, Alget'dən yuxarıda Baratlı tavadlığı idi. “Aşağı Kartli XVIII Yüzilin Biriıci Çərəyində” monoqrafyasının yazarı Y. Iordkipanidzenin yazdığı kimi, Pəmbək-Bördüzü və Loru bölgəsi özəl xanlıq oluşduraraq, ön sancaq ordusuna daxil olmurdu.

Yüzilin başlarında Gəncə–Qarabağ bəylərbəyisi Ziyadoğlu Uğurlu Xan ləşgər toplayıb Borçalı'ya hücum çəkdi, Ağcaqala'da istehkam qurdu. Bu yandan da Gürcüstan valisi, sonralar Müsəlmanlaşıb Hüseynqulu Xan kimi tanınmış olan VI Vaxtanq buraya qoşun yeritdi. Qarağac (Kaxet) hakimi Konstantin (Məhəmmədqulu Xan) Borçalıların tərəfini saxladı. Şüləver'də Qarabağ–Borçalı döyüşçülərilə Vaxtanq'ın oğlu Vaxuşti'nin sərdarlıq etdiyi Gürcü qoşunu savaşdılar. Salnamədə oxuyuruq ki, Vaxuşti'nin İmer əsgərləri Borçalı tayfalarına divan tutdular, amma Borçalı xanı Ağcaqala'dan çıxmadı. Yazarı bilinməyən Ermənicə xronikada deyilir ki, Məhəmmədqulu Xan Sınıq Körpü'də Vaxtanq'ı məğlub edib öz diyarına qayıtdı.

1723-cü (h. 1135) ildən burada Osmanlılar hakim oldular, Kaxet–Kartli valisi Məhəmmədqulu Xan Tiflis qalasının açarlarını davasız Ərzurum paşasına verdi, Narınqala'da Osmanlı qarnizonu yerləşdirildi. Borçalı tərəflər də Qazax'la, Şəmşəddil'lə birlikdə Osmanlılara tabe Tiflis vilayətinə daxil edildi. Bu çağlar Ağcaqala'da oturan Borçalı xanı Baratlı-Somhut tavadı Ərəsti Qaplanişvili-Orbelişvili'nin işinə də göz qoyurdu. (Sözgəlişi: Dmanis-Cambulat vadisində və başqa yerlərdə həmən vaxtlar Tiflis zərbxanasında kəsilmiş Osmanlı altunları, onluq, beşlik, gümüş pulları tapılmışdır).

Saray salnaməçisi Sexnia Çxeidze'nin əsərindən və başqa qaynaqlardan: 1730-cu il iyunun 10-da Şirvan hakimi Surxay Xan'ın (Çolağ Surxay'ın) Ləzgi qoşunu Baratlı'yı başdan-ayağa, Ksiyə qıyılarını, Dmanis'dən aşağıkı torpaqları çapıb taladı. O il Carlılar da Bolnis'i və başqa yerləri qarət etdilər, çoxlu əsir, mal-qara apardılar. Tiflis'ə xəbər çatdı, İsaq Paşa Osmanlı-Gürcü qoşunuyla onları


downloaded from KitabYurdu.org

Baydar'da yaxaladı, şiddətli döyüş getdi, paşa qalib gəldi, Ləzgilər pərən-pərən düşdülər. 1732-də də Ləzgilər buralara həmlə edib qənimətlər apardılar.

O dönəm olaylarının tanığı Papuna Orbeliani 1723–35-li illəri “Osmanlılıq”, 1735–47-li illəri “Qızılbaşlılıq” deyə səciyələndirmişdir.

1734-də Osmanlı sərdarı Abdulla Paşa'nın qoşunu Gəncə'dən gəlib, Sınıq Körpü'dən keçib irəlilədi, Loru qalasında dayandı.

1735-də buraya Qızılbaşlar gəldilər, Teymuraz'ın və onun məsləkdaşlarının çağırışıyla İran hakimi Nadir buraya qoşun göndərdi, onun kiçik qardaşı İbrahim Xan'ın sərəsgərliyilə bu qoşun Borçalı'ya yürüş etdi, Alagöz dağında Abdulla Paşa'yı yendi, sərdar Aslamaz Xan Qızılbaş ləşgəriylə Tiflis'ə girdi, Nadir özü buraya gəldi, Səfi Xan'ı (Xançal Xan'ı) bu yerlərə müvəkkil qoydu, Osmanlılarla mücadilədə onun tərəfində durduqlarına görə Gürcülərə rəğbətlə yanaşdı, Osmanlıları qovdu, sədaqətli tayfalardan yaxın adamlarını, o sıradan özünün mənsub olduğu Ambarlı tayfasından qohumlarını Borçalıəya gətirdi, qarşılığında 1735-in noyabrında Dəmirçihasanlı ellərindən 12 min nəfər sayseçmə sənətkarı ana vətəni Xorasan'ın Sərgah mahalına köçürdü, Dəmirçihasanlı'lardan bir qismi Qarağac'a qaçmağa macal tapdı, Telav yaxınında beş kənd salındı. Səfi Xan'ın yerinə Gəncəli Uğurlu Xan keçdi. Ancaq 1738-də Uğurlu Xan Ləzgilərlə savaşda qətlə yetiriləndən sonra Səfi Xan yenidən müvəkkil oldu. 1738-in axırlarında Xızı və Car Ləzgi döyüşçüləri Baydar sultanlığına gəlib çıxdılar, talançılıq edib, çoxlu əsir, mal-qara ələ keçirdilər, bu mal-qaranın bir qismini yerli əhaliyə satdılar, qalanını özləriylə apardılar. Bu dönəmdən bəhs edən Papuna Kəpənəkçi kətxudası Mədəd'in şücaətindən ayrıntılı söhbət açmışdır. Mədəd öz evində beş Ləzginin başını kəsmişdi. Car müharibələri xronikasında deyilir ki, Azərbaycan sərdarı Əli Hacı Xan böyük qoşunla Topqarağac'dan hücuma keçib, Tiflis'lə Baydar arasındakı vilayətdə çoxlu mal-dövlət zəbt etdi, zəngin qənimətlə geri qayıtdı. (O vaxt Borçalı kələntəri Müsəlmanlaşmış Mehpəli Bəy Sitsişvili'ydi).

1743-cü (h. 1156) ilin yazında Gürcüstan'da ağır vergilərə qarşı üsyan qalxanda Nadir Şah bir tərəfdən Gürcülərin könlünü almaq, digər tərəfdən də, onun özünü İran şahı bəyan edərkən Gəncə–Qarabağ bəylərbəyisi Ziyadoğlu II Uğurlu Xan buna qarşı çıxdığına görə ondan hayıf almaq məqsədilə 1743-də Şəmşəddil'lə, Qazax'la birlikdə Borçalı'dan da vergi toplamağı yenicə Gürcüstan valisi kimi


downloaded from KitabYurdu.org

tanıdığı, vaxtilə Səfəvi sarayında tərbiyələnmiş II Teymuraz'a havalə etdi. Əvəzində onun oğlu İrakli'yi amanat götürdü. Tarixdə belə də qeydə alınmışdır: 1743-də Nadir şaha qarşı üsyanlara başçılıq etmiş II Sam Mirzə Gürcüstan'a qaçanda Kaxet hakimi Teymuraz onu tutub şaha verdi, şah da bu xidmətə görə Qazax-Şəmşəddil'i, Borçalı'nın gündoğar tərəfini ona bağışladı. Adıgözəl Bəy: "Gəncə xanlığıyla Gürcüstan arasındakı sərhəd Sınıq körpüdən yuxarıkı Suri-daşa qədər uzanırdı... Bunlar Muğan qurultayında gizlin və aşikar olaraq son dərəcə çalışdılar ki, Səfəvilərdan başqa bir kimsə padşah olmasın və özgə bir şəxs səltənət balışına söykənməsin... Ziyadoğlanları qədim bir ocaq və böyük bir dudman olduqlarına görə Nadir şah onlara özgə bir cəza və başqa bir siyasəti rəva görmədi, Qazax və Borçalı ellərini öz xanlarıyla bərabər Gürcüstan əmirlərinə və uca mərtəbəli valinin hökmünə tabe etdi". Mir Mehdi Xəzani, Yusif Qarabaği də belə xatırlamışlar.

İrakli şahın salnaməçisi Oman Xerxeulidze: "1744-cü ildə Nadir şah Qars'dan gəlib Borçalı'ya, Dəbəd vadisinə yetişdi, Göytəpə'də dayandı, bir neçə gün burada qaldı". Papuna belə xatırlamış ki, Borçalı xanını Nadir şah qalaya saldı və asdırdı. Borçalı vəkili Sədli Məhəmməd Xan qoyuldu (sözgəlişi: o, İsa sultanın oğluydu, qəbri Ləcbəddin Xaccaoğlu-Çələbi məzarlığında böyük hərimdədir, başdaşından h. 1223 – m. 1808-də rəhmətə getdiyi bilinir). 1744-də Nadir şah Daşır'a yetişdi, Loru və Bölük qoşununu yendi, özü Ağcaqala'ya gəldi və burada Teymuraz şaha xələt verdi. (Kirəç-Muğanlı'dan Eyyub müəllimin dilindən Borçalı el söyləməsi: Deyir, Nadir şah öz əmələsindən bir neçə adamıyla Baydar kəndində bir qarının yolüstü qonağı olur. Qarı süddaş bişirir. Qonaqların pıçıldaşmaqlarından qulağı alır ki, bu, Nadir şahdır. Süddaş ortaya gələndə qonaqlardan başda oturan ağzı pörtləyə-pörtləyə başlayır qaşıqlamağa. Qarı deyir ki, a bala, Nadir şah kimi niyə tələsiyirsiniz? Şah dura bilməyib xəbər alır ki, Nadir tələsiyib neyləyir ki? Qarı cavab qaytarır ki, neyləyəcək, tələsiyib təndirə düşəçək, xanimanı dağılıb gedəcək də. Nadir şah söz tapa bilmir, barmağını dişləyir, sonra Sınıq körpudən keçəndə öz-özünə deyir ki, belə xalqın belə də körpüsü slar).

Nadir şah öləndən sonra özünü Təbriz'də şah bəyan edən III Sam Mirzə ilə Gürcü şahzadəsi Arçil (Abdulla Bəy) arasında Borçalı üstündə incişmə də, bağımsız dövlət qurmaq niyyətli Təbriz


downloaded from KitabYurdu.org

bəylərbəyisi Sahibi-İxtiyar ləqəbli Əmiraslan xanın, Adil şah adıyla İran taxtına çıxan Əliqulu xanın Borçalı'ya yürüşləri də bu çağlar oldu. Papuna'nın xatirəsinə görə, o vaxtlar Qazax və Borçalı kətxudalarının uşaqlarını İrakli girov götürdü. Borçalı və Baydar sultanları qalada idilər, onlar da buraxıldılar. Teymuraz şah Azərbaycan məmləkətinə getdi, o, İbrahim şahın qolbəyi idi. İbrahim şah Teymuraz şaha belə buyuruq verdi ki, həm Gürcüstan'a, həm də Qazax–Borçalı'ya xidmət elə. Qazax və Borçalı sultanları öz qoşunlarıyla gələrək, peşkəş gətirdilər. Narınqala'da şadlıq keçirildi. Musa Bəy başda olmaqla Borçalı və Qazax kətxudaları bağışlandılar. Teymuraz gələnəçən Borçalı-Baratlı'ya Abdulla Bəy naiblik etdi.

Borçalı'da narazılıq başladı, Gürcü vəkilini qovdular, bir çox nəsillər Qarabağ'a qaçdılar. Gürcü xronikasından: 1748-də Qazax'dan sərdar Zübeydulla yeddi yüzlük Ləzgi qoşunuyla Şəmşöldə'yə Abdulla Bəy'in üstünə gəldi, oradan Kartli'yə keçdi. Mayda İrakli doqquz minlik qoşunla Şəmşöldə'yə hücuma keçdi, Ləzgiləri yendi, çoxlu qənimət apardı. Sonra yenidən Baratlı'ya qoşun yeritdi, Hüseyn Bəy'i yenib Alget'də çadır qurdu... Abdulla Bəy Loru qalasından topları və cəbbəxanayı Şəmşöldə'yə gətirdi, burada iki böyük bürc tikdirdi. Borçalı sultanı da yüz adam gətirdi. Qazax–Borçalı Abdulla Bəy'in tərəfinə keçdi.

İki il İranda qalandan sonra Teymuraz 1749-cu ilin martında vətənə qayıtdı və özüylə Qazax-Borçalı'nın Kartli-Kaxet şahlığına mənsubluğu haqqında şah fərmanını gətirdi. Gürcüstan Mərkəzi Arxivində (fond 12, iş 156) İbrahim şahın 1749-cu il martın 20-də verdiyi Borçalı və Qazağ'ın Teymuraz'a tabe edilməsi fərmanını tapdıq.

"İrakli Şahın Yaşamı" adlı Gürcü salnaməsindən; Sahibi-İxtiyar nisbəli Urmiyalı Fətəli Xan Əfşar'ın Qızılbaş ləşgəri Gəncə–Qarabağ, Dağıstan xanlıqları və Şəmşəddil, Qazax, Borçalı, Dəmirçihasanlı, Baydar elləri və başqa xırda oymaqların hamısı Tiflis'ə yürüşə keçdilər, İrakli Şəmşöldə qalasına girdi.

Bu çağlarda Qazax–Borçalı ləşgəri nəinki təkçə ata yurdu qoruyur, eləcə də İrəvan xanlığının, Gürcülərin də hoylarına çatırdı. 1750-də Qarabağ xanı Pənah'ın Gəncə'yə hücumu zamanı Borçalı silahlıları Gəncəlilərin köməyinə getdilər, həmən il Gəncə'yə yürüşə keçən Gürcülərə Sınıq körpüdə Borçalı qoşunu da qoşuldu. Fətəli


downloaded from KitabYurdu.org

Xan Əfşar qoşununun Əfqan Azad xanın sərkərdəliyilə 1751-də İrəvan xanlığına hücumunu təsvir edən H. Ə. Dəlili bildirmiş ki, Gürcü şahı adından İrəvana göndərilən qoşun əsasən Qazax–Borçalı mahallarından toplanmışdı. Anaxatır'da (Arıxlı-Kolayır) mourav olmuş Papuna Orbeliani'nin xatirələrindən bəlli olur ki, Qazax–Borçalı qoşununa Qaradağ'da düşərgə qurmuş Kazım xan sərkərdəlik edirdi (sözgəlişi: onun və oğullarının hərimi Böyük Muğanlı məzarlığındadır), Borçalı bölüyünün fərmandehi Nağı Bəy idi. Bu vuruşda şücaət göstərmiş Kəlbi Hüseyn oğlu Musa Loru–Borçalı xanı qoyuldu. Borçalı qoşunu gah da Gəncə qoşunuyla birləşirdi, Dmanis'də və Kolayır'da topxana varıydı.

Borçalı xanlığının yanı sıra, Dəmirçihasanlı'da və Baydar'da sultanlıq idi, Dəmirçihasanlı'da İsa Bəy, sonra onun oğlu Əhməd sultan oldular. (Sözgəlişi: Ləcbəddin Xaccaoğlu-Çələbili məzarlığında Əhməd sultanın böyük hərimi, ayrıca, onun qardaşı Sədli Məhəmməd'in oğulları İsa Bəy'in, Süleyman Ağa'nın, Vəli Bəy'in, nəvəsi Vəli Bəy'in qəbirləri durur). Borçalı'dan olaylarla bağlı Bozçalı, Təkə, Kosalar, Qəmərli, Ulaşlı, Qacar, Qarahacılı, Ərəbli ellərindən xeyli adam Osmanlı'ya keçdi, Anadolu güneyində sakinləşdi, Püsyan, Qaraqarlı, Cinli, Dəmirçihasanlı, Qızılhacılı, Səfikürd, Boyəhmədli, Saatlı, Kəngərli, başqa Tərəkəmə tayfalarından bir çoxu Qarabağ'a, Borçalılardan bəlirli qismi İrəvan xanlığına qaçdı.

1752-də Şirvan hakimi Hacı Çələbi Borçalı'ya da öz çaparlarını göndərdi, ismarıcladı: “Gürcü valisinə qulluq etməyin, yoxsa qılıncdan keçirərəm, Müsəlman Gürcüyə boyun əyməz”. Dərhal bütün Qazax–Borçalı elləri Hacı Çələbi'yə birlik işarəti verdilər, qoşun topladılar, Baratlı'yı əzişdirməyə başladılar, Papuna'nın tanıqlığına görə, “Borçalı-Baydarlılar şəhərin qıraqlarınacan ələ keçirdilər, Şəmşöldə'də, Güvəç'də. Birtvis'də binaları uçurub, qalaları yıxdılar, harada mal-qara gördülər, hamısını yağmaladılar, harada taxıl gördülər, biçib daşıdılar, öz güclərilə Çavaxet və Qars tərəflərə də hücuma keçdilər, Dəmirçihasanlı elləri də Hacı Çələbi'yə tərəfkeş çıxdılar, Hacı Çələbi'nin oğlu Ağakişi və Gənçə xanı gəldilər, Baydar'da dayandılar...”. Salnaməçilər (Adıgözəl Bəy, A. Bakıxanlı, Xəzani, Fateh, Baqrat, David, Papuna vb.) xatırlamışlar ki, Hacı Çələbi Baydar torpağında Şəmsəddinli kəndi yaxınındakı Tülkütəpə'də səngər qazdırdı, oğlu Ağakişi Bəy'i (Ağoğlan'ı)


downloaded from KitabYurdu.org

Tiflis'dən bəri yaşayan Müsəlmanlara hökmran qoydu. Teymuraz Kabarda, Alan, Çərkəzlərdən muzdla tutduğu qoşunla 1752 avqustun 31-də Ağakişi'yi qovdu. Papuna'nın xatirələrindən aydınlaşır ki, şəhərdə qorunan, Hacı Çələbi'yə qoşulmayan köhnə xan Musaqulu Xan'a Borçalı xanlığı verildi və Ağcaqala da ona bağışlandı, Borçalı xanı Musa, Baydar sultanı və başqaları İrəvan ölkəsinə keçdilər.

1753-cü il yazda Ləzgilər gəldilər, Hunzax hakimi, Avar xanı Nürsəl bəyin Ləzgi qoşunu Marabda'da Gürcülərlə vuruşduqdan sonra iki hissəyə bölünüb Birtvis və Yağılca səmtlərə dağılışdı. Bəndər, Anaxatır yörələrində talançılıq etdi.

1755-dən Ağcaqala tərəflərdə Naxçıvan xanının qoşunu cövlan etdi, altı nəfər sərdarla Qazax'dan keçib gələn Bəhman xan Ağcaqala'da möhkəmləndi. Gürcü şahlarının göndərdikləri Revaz Amilaxvari və Keyxosro Andronikaşvili'ylə danışıqlardan sonra Bəhman xan Teymuraz'ın yanına gedib Borçalı xanlığının ona verilməsilə razılaşdı. İrakli qoşunla Baydara gəlib, Borçalı kətxudalarından ona tabe olmaq istəməyənləri arvad-uşaqla birlikdə girov kimi Tiflis'ə apardı, habelə qoşunla Trialet'dən keçərək, İrəvan xanlığına girsi, Araz qırağında Qarasu deyilən yerdən neçə il öncə buraya qaçmış Borçalı ellərinin hamısını öz yerlərinə qaytardı və vaxtilə İrandan Muğan düzünə gəlmiş 250 Türkman ailəsini Muğanlı, Kəpənəkçi, Qızılhacılı obalarına gətirdi.

1757-də Borçalı–Qazax elləri yenidən üsyana qalxdılar. Üsyançıların çoxu Pəmbəy'ə qaçdı. İrakli Kaxet qoşunuyla gedib qaçanları, habelə beş min qoyun, dörd min inək, yüz at qaytardı.

1761-də Ləzgi silahlıları Borçalı'yı bir də taladılar, ələlxüsus, Ağməmmədli'yi bütün soydular. Quldurların dəf olunmasında Borçalı qoçaqlarını başına yığmış şahzadə Levan fərqləndi. (Sözgəlişi: Molla Vəli Vidadi həmən Levan'ın ölümünə mərsiyə yazmışdır).

1765-də buralarda mouravlıq (murovluq) idarə üsulu tətbiq edildi. Murov camaatdan vergi yığımına göz qoyur, Gürcü şahının yerdə yetkili elçisi olur, xırda divan işlərinə də baxırdı; Qaynaqlara görə, Sarvan'da Solomon Arqutinski-Dolqorukov, Kəpənəkçi'də Revaz Vaxvaxov, Dəmirçihasanlı'da Tamaz Orbeliani, Baydar'da miskərbaşı Osip Bebutov, köhnə Təkəli'də Saima Barataşvili, təzə Təkəli'də Paata Abaşidze, Muğanlı'da Solomon Qabayev, Kolayır, Muğanlı, Qoşaisə, Arıxlı'da Giorgi Sitsişvili, Hasanxocalı'da Osip


downloaded from KitabYurdu.org

Qorğanov, Faxralı'da Şioş Arğutaşvili... murov idilər.

1773-də Gürcüstan'ın Rusya tabeliyinə qəbul edib, Rusya qoşunu buraya gələndən sonra Borçalılardan bir çoxları qərib yerlərə köçdülər. 1778-də İrakli mülkədar Şioş Soloğaşvili- Arğutaşvili'yə vəkalətnaməylə tapşırdı: “Faxralı eli Gürcüstan'dakı yurdlarından Gəncə'yə gedib, xeyli vaxtdır orada sakin olub. Hər cür yolla çalışın, Gəncə'dən Faxralı elini Gürcüstan torpağına gətirin”.

On beş il öncə Şüləver'də bütün Borçalı'ya qorxulu olan Ləzgi qaçaq, Şamxal'ın yaxın qohumu Murad'ı dar ağacından asdırdığına və vaxtilə Gürcü şahı Müsəlmanlaşmış Rüstəm xanın (Xosro Mirzə'nin) tikdirdiyi məscidi uçurduğuna göre İrakli'dən qisas almaq amacıyla Dağıstan'dan Nürsəl xanın qardaşı, Vidadi'nin “külli ləşgər sərvəri” deyə öydüyü Ümmay xanın 11 minlik qoşunu Əli sultanın sərkərdəliyilə 1785-ci (h. 1199) ildə buralarda göründü. Alazan, Yor çayları tərəflərdə, Qaraçöp elatı yaxınında Gürcü-Rus qoşununu yenən, Sığnağ qalasını zəbt edən Ümmay xanın Tiflis'ə hücuma keçəcəyi güman olunduğu halda, qəfildən o, Qarayazı'ya gəldi, sentyabrın 18-də Kür çayı üstündəki Yeddibölük bölgəsini keçib, Baydar-Borçalı'ya daxil oldu. Papuna'nın salnaməsindən: “El dağdan təzə enmişdi, Ləzgi qoşunu beş qismə bölündü. Bir hissə Ağcaqala'ya getdi. Hunzax hakimi özü Baydar'a gəldi, Baydar qalasına yaxınlaşdı. Baydar sultanının oğulları içərideydilər. Qaladan tüfəng atəşi başlandı, çoxlu Ləzgi qırıldı, qalayı da möhkəm qorudular. Elə mərdliklə vuruşdular ki, heç yüz, iki yüz adam da belə bacaramazdı. Axşam Hunzax hakimi buradan əlini üzüb Borçalı tərəfə getdi. Ləzgi qoşunu Dəmirçihasanlı obalarını və Dəvəd boyundakı Borçalı kəndlərini, Bolnis tərəfləri taladı”. (Sözgəlişi: Şıxlı Mustafa Ağa Arif öz şeirlərində Baydar-Borçalı bəylərini “Meydan günü bir-birindən yeglər” kimi şöhrətləndirmşdir). Ləzgilər Ağcaqala'yı ala bilməyib Gümüşxana'ya doğru tərpəndilər. Gürcü-Rus əsgərləri öz toplarıyla Alget çayına çatanda Ləzgilər artıq Ləlvər'ə, Axtala'ya, Gümüşxana'ya, Mədən kəndinə yetişdilər, buradakı gümüş, mis yataqlarını talan etdilər, orada işləyən Yunanlardan 640 nəfəri qırıb, qalan 860 nəfər əyal və uşağı əsir götürüb, çoxlu qənimət ələ keçirdilər, sonra Loru ellərini çalıb-çaparaq, Ahısqa'ya gedib çıxdılar. İrakli hər əsir üçün beş tümən və illik min tümən bac verib basqıyı dayandırdı. Gürçu-Rus qoşunu Baydar'da möhkəmləndi. Baydar-Borçalı xanları və kətxudaları


downloaded from KitabYurdu.org

Qullar'a yığışıb İrakliyə peşkəşlər göndərdilər. Borçalı Musa xana yenə də hökmranlıq verildi və Ağcaqala'da yerləşdirildi. İrakli Soğanlıq'dan aşağı bütün elləri cərimələdi, Baydar sultanlığını Yadigaroğlu Sadıq Bəy'in böyük oğlu Ağaçan Bəy'ə verdi və yeni sultan öz eliylə Baydar'da sakinləşdi.

Qarabağ hakimi İbrahimxəlil Xan Qazax–Borçalı'yı Gürcüstan şahına güzəştə getməyə razılaşdı, bir şərtlə ki, yerli əhali Qarabağ–Gəncə yörələrinə köçsün. 1787-ci ilin yazında Kartli–Kaxet qoşununun Rusların yardımıyla Gəncə–Qarabağ'a hücumu zamanı vaxtilə Borçalı'dan buraya qaçmış 200 ailənin geri qaytarılmağı tələb olundu. İbrahimxəlil xan Borçalıları vermək istəmirdi. Borçalıların bir qismi qaçıb doğma yurda qayıtdı. (Gürcü xronikasından: 1787 sentyabrın 23-də İrakli şah öz qoşunuyla Qaraçöp'də dayandı. Ümmay xanın hücumu gözlənilirdi). Bu vaxtlar buralarda İrakli'nin müvəkkili general-adyutant Qarsevan Çavçavadze (Aleksandre Çavçavadze'nin atası) idi, Yor-Muğanlı da ona bağışlanmışdı.

1787-də Gəncəli Cavad xanın və Qubalı Fətəli xanın ciddi tələblərindən sonra Şəmşəddil ərazisinin idarə olunması Gəncə xanının ixtiyarına verildi, Qazax və Borçalı Gürcü şahının tabeliyində qaldı. Çavad xan Şüləver'əçən qoşun çəkib geri qayıtdı. İrakli Borçalı'nın bir qismini oğlu Giorgi'yə varidat verdi, özünün at və dəvələrini Borçalı İbrahim sultana həvalə etdi.

Yüzilin sonlarında Borçalı'da vəkil Əmircan oğlu Hacı idi (onun türbəsi Araplı məzarlığındadır, h. 1209 – m. 1794-də vəfat edib). İrakli'nin oğulları Giorgi, David, Aleksandre, Yulon, Giorgi'nin oğlu İohan tez-tez Ağcaqala'da, Şüləver'də, Dəmirçihasanlı'da, Baydar'da, Təkəli'də, Sadaxlı'da, Qullar'da olur, Azərbaycan'dan, İrandan mehmanları burada qəbul edir, günlərinin çoxunu buralardakı dostlarıyla keçirirdilər.

Güney Azərbaycan'ı ələ keçirmiş, Səfəvi dövlətini quran yeddi Türk qəbiləsindən biri Qacarların xanədan sülaləsini qurmuş olan qaniçən axta hökmdar Ağa Məhəmməd Qacar 1795-də Şuşa qalasını mühasirəyə alanda İbrahimxəlil xan vaxtilə Borçalı tərəfdən köçmüş olan, İraklinin geri çağırdığı nəsilləri və qaladan kənardakı Qarabağ cins atları yad əlinə keçməsin deyə onları mehtərlərlə birlikdə Gürcüstan'a köçürdü. Məşhur salnaməçi kapitan Mirzə Adıgözəl Bəy də köçürülənlər arasındaydı. (Hazırda Gürcüstan'ın Kaspi ilçəsində Adıgözəlli obası var). Onun xatırlamalarından


downloaded from KitabYurdu.org

aydınlaşır ki, el və camaatla köçüb Gürcüstan'a pənah gətirənlərə İrakli hörmət görsədib, Sarı Kilsə adlı yerləri qışlaq və əkinəcək üçün onlara verdi, sonra onlar Tiflis'in yuxarısındakı Qocor dağında gizləndilər, buradan Ahısqa'ya getdilər, yayda oradan Bolis adlı yerdə məlik Əbu yanında sakin oldular, qarət edilib dağınıq düşən elləri yığılıb bir camaat oldular.

Ağa Məhəmməd Xan İrakliyə xəbərdarlıq göndərdi: Ruslarla ilişkilərinizi büsbütün kəsməlisiniz, hərgah bu göstərişə əməl etməsən, onda çox yaxın bir sürədə Gürcüstan'ın üzərinə yürüş edəçəyəm, Ruslarla bərabər Gürcüləri də qılıncdan keçirəcəyəm, qanınızdan Kür çayı misallı bir qan axıdacağam. İrakli Ağa Məhəmməd Xan'ın önərisini rədd elədi. Payızın əvvəlində Qarabağ'ın Şahnazarlı camaatından gəlib Şüləver'də sığnaq tapmış məlik Məcnun və Xaçınlı məlik Əbu Borçalı'dan, Qocor səmtdən çuğulluqla Tiflis'ə gəldilər, bir gün sonra Ağa Məhəmməd Xan Cavad Xanla bərabər Sınıq körpüyü keçib Yağılca'da dayandı, Görarxı'dan, Gümüşgöl'dən, Soğanlıq bağlarından adlayıb Tiflis'ə doğru hərəkət etdi. İrakli'yə Başıaçıq (İmeret) valisindən, Borçalı–Qazax ellərindən dəstək gəldi. Gürcü şahı ehtiyat üçün xanımı Darya'yı (Darəcan'ı) Kolagir'dən uşaqlarıyla bərabər Təkəli Yadigaroğlulardan Xeyransa xanımın, Nabat xanımın və başqa hünərvər qadınlarımızın gözləmçiliyilə Qaraqalxan yaylağına – Duşet'ə göndərdi. (İlya Xoneli'nin qələmə aldığı bir el söyləməsi: Darya'ya bələdçilik edənlər arasında Yadigaroğlu Allahverdi Bəy'in gənc xanımı da vardı, o, at belində cövlan edirdi. Şah xanımı soruşur ki, ərin haradadır, Nabat xanım, Allahverdi Bəy haradadır? Gözəl xanım cavab verir ki, bizim nəslin kişiləri hamısı İrakli dəstəsindədir).

... Ağa Məhəmməd Xan sentyabrın 9–10-da Qazağ'a, Borçalı'ya daxil oldu, buralarda İslam bayrağı altında özünə tərəfdarlar toplaya bildi, çoxsaylı Qızılbaşlar Borçalı tərəfdən Tiflis'ə doğru yön aldı, Soğanlıq'da çadırlar qurdu, gecəyi orada keçirib, sentyabrın 12-də səhər tezdən şəhərə yürüş etdilər, şah sarayını (indiki Tiflis Nəbatat bağındaydı) atəşə tutdular,

İrakli Hallavar körpüsündən keçib Qaraqalxan dağlarına üz tutdu, Qızılbaş əsgərləri Tiflis'i matəm evinə döndərdilər. İran'dan aralaşıb Ruslara yaxınlaşdıqlarına görə Gürcülərdən Ağa Məhəmməd Xan yeddi gün qisas aldı, şəhəri odlara qaladı. Əldə olan faktlara görə, bu savaşda Gürcülər tərəfdan Borçalı igid suvarları, Gürcüstan'da


downloaded from KitabYurdu.org

gizlənmiş Qarabağ'lı mehtərlər də vuruşmuşlar, cəsur sərkərdələr Yadigaroğlu Sadıq Bəy və Borçalı Xudu Bəy şücaət görsətmişlər. Sözgəlişi: Bunu ünlü Gürcü şair Akaki Sereteli də minnətdarlıqla yad etmişdir.

Bu vaxt Tiflis'də aclıq baş verəndə bircə günün içində Qazax–Borçalı'dan 400 araba buğda gəldi.

Qızılbaş ləşgəri çəkilib gedərkən yolüstü Borçalı ellərini, gümüş yataqlarını yağmaladı.

Ağa Məhəmməd Xan Borçalı–Qazağ'ı Mustafa xana bağışladı, sonra onun qardaşı Əliqulu xan İrəvan'a gəldi, Borçalı Musa xanın oğluna Loru'da xan olmağı buyurdu, habelə əmr etdi ki, Pəmbək və Borçalı İrəvan xanının qulluğunda dayansınlar, Qazax və Şəmşəddil isə Gəncə xanına tabe olsunlar. İrakli 8 Yanvar 1796-da Moskva'ya göndərdiyi məktubuyla Pəmbək, Borçalı və Qazax əyalətlərini qaytarmağa yardım istədi.

Haldan düşmüş Borçalı'ya Ləzgilər də beş minlik qoşunla hücum etdilər, onlar Yeddibölük'də. Dəmirçihasanlı'da talanlar törətdilər. Şahzadə Teymuraz'ın yazdığına görə, Borçalı'nın yüzə qədər kişisi toplaşıb Yeddibölük'ü qorudu, Ləzgiləri Kür nəhrindən o yana qovdu.

1798-də İrakli'nin vəfatından sonra böyük oğlu Giorgi (Gürgin) xan şahlığa keçəndə onun ögey qardaşı 32 yaşlı Aleksandre (İsgəndər) Mirzə də hakimiyyət həvəsinə duşdü, özünü Borçalı, Qazax mahallarının hakimi bəyan elədi.

Ancaq tezliklə Giorgi Rusların, muzdla tutduğu Ləzgilərin, Kaxet'lilərin yardımıyla Borçalı'yı ələ keçirdi, Mirzə Adıgözəl Bəy'in yazdığı kimi, “Qazax və Borçalı'nın bir para fəsad törədən adamlarını cəzalandırdı”, yerli kətxudaları ona sədaqətli olacaqlarına and içdirdi.

İsgəndər də Borçalı'da məskən salıb özünə tərəfkeşlər yığdı.

Darya xanım da Kolagir qalasına çəkildi, onu Borçalı'nın mərdanə qadınları qoruyurdular. Burada şaha tabe əhaliyi qorumaqdan ötəri özəl qarnizon yerleşirdi. Etnoqraf-tarixçi İ. Şopen bəlirləşdirmişdir ki, Qazax elləri Giorgi'yə sədaqət görsətdiklərinə görə şah onlardan 1451 Qarapapaq ailəsini, o sıradan Çobankərə – 480 ailə, Şeyxlər (Şıxlar) – 34, Dəmirçili – 31, Qafarlı – 98, Qarabağlar – 12, Cəfərli – 16, Gədikli – 24 ailəyi... Gürcüstan'a köçürtdü. (Xatırladaq ki, İ. Şopen Qarapapaqları Xəzər qövmü, Qazaxların tirəsi nişan verib).

* *

... Qaynaqlardan yüzil boyu toplam əhalinin, o sıradan


downloaded from KitabYurdu.org

bizimkilərin sayı haqqında bilgilər əldə edirik. 1701-də Firəng səyyahı Turnefor bildirmişdi ki, Tiflis'də 20 minə yaxın əhalinin 3 mini Müsəlman idi. 1707–1709 illərinə aid Dəmirçihasanlı, Baydar, Borçalı, Baratlı divanbəyisinin hesabatına görə, 34 kənddə 1964 ailə bizimkiləriydi.

Yüzilin birinci çərəyində VI Vaxtanq'ın (Hüseynqulu Xan'ın) göstərişilə əhali sayımı aparılmışdır. Ançaq bu sayım daha çox Gürcü əhalisinə şamil olmuşdu. Qayqulu'dan tutmuş Baratlı'yacan siyahıyaalma keçirilməsi haqqında şah sərəncamında “Tatarlar və məlik soyurqalları istisna olmaqla” ifadəsi vardı. Pəmbək-Borçalı ayrıca xanlıq olduğundan onun əhalisayımı Gürcü valiliyindən ayrı aparılmışdı. Vaxuşti Baqrationi'nin 1721-də yazıya aldığı siyahıda bizimkilərə aid bilgilər az olsa da, önəmlidir. Vaxuşti'yə görə, Alağac'da 20 oba, Şüləver oymağında Qullar 6 oba, Mollaoba 1, Mirhasan Durqaya 2, Maşaver boyunda Nəsibli 1, Ağbabalı 1, Ksiyə boyunda Nəcbəddin 1, Sultanoba 11, Rüzəd 7, Hallavar 1, Alget boyunda Çələbli 1, Tiflis'əcən Əmirhaclı 1, Saqqaltutan 2, Baqratlı 2, Güvəncür 4, Sarvan 1, Qorqud 1, Vərə boyunda Laçın 1, Dəmirçihasanlı 120, Qarağac-Yor'da 1, Masabrun-Baydar 1 obamız, Qayqul-Lök tərəflərdə 49 obamız olmuşdu. Şahzadə Vaxuşti'nin coğrafi əsərindən başqa bilgilər də ilgi çəkir; o yazmış ki, Bördüzü (Borçalı) çayının quzeyi Borçalı'ya və Arran'a mənsubdur, həmən nəhrin günçıxar qismi Borçalıların, günbatarının bir qismi Hunan'acan Kartli valisinin ixtiyarındadır; Ksiyə ovasında, Şüləversu'yun Ksiyə'yə qarışdığı yörələrdə, Anaxatır'dan aşağı çayın hər iki tərəfində, Alget'in mənsəbindən Yağılca'yacan, Kür nəhri sahillərində Müsəlman elləri yaşayırlar, Dmanis tərəfdə çayların qıraqlarında və dağlarda da kəndlər var; Hallavar'dan aşağı Nəcməddin'ə və Nəzərkənd'əcən sultanlıqdır, Qarayazı ormanlığının aşağıları Dəmirçihasanlı elləridir.

1728-də Osmanlıların düzənlədikləri “Tiflis Əyalətinin Müfəssəl Dəftəri”ndən aydınlaşır ki, bizimkilərdən Baratlı nahiyəsində 190, Baydar nahiyəsində 1135, Dəmirçihasanlı nahiyəsində 1811, Pəmbək nahiyəsində 365, Ağcaqala nahiyəsində 663 vergi verən qeydə alınmışdı.

1770-də İrakli sarayının Rusya müvəkkilinə təqdim etdiyi demoqrafik siyahıda oxuyuruq: Dəmirçihasanlı – bir sultanlıq, onların tayfası min ailədir, əvvəlkilərdən bir çoxu səpələnmiş, başqa


downloaded from KitabYurdu.org

diyarlara getmiş və orada sərbəst yaşayırlar; Baydar – bir sultanlıqdır, çoxları başqa diyarlara köçmüşlər, indi burada qalanlar iki yüz ailədir; Borçalı-Pəmbək vadisi – bütün xanlıqdır, əvvəlkilərdən çoxları özgə nahiyələrə dağılmışlar, hazırda iki min ailədir; ayrıca Sabarataşvili (Baratlı) – bu böyük və zəngin diyar dağılmış, çəmi yüz ailə qalmış; Kaxet'də Yor çayı boyunda da ellər – 12 min ailə yaşayır.

O çağlarda Borçalı'yı da gəzmiş Alman alimi İohan Anton Güldenştedt'in səyahətnaməsindən: Kür'lə Yor arası Qarayazı'da Türkmanlar yurdlaşmışlar, onlar qışda öz qoyunlarını Qarayazı'da saxlayır, yayı Alget qırağında keçirirlər; Anaxatır çayının aşağı axarı boyunda Dəmirçihasanlı deyilən Türkman Müsəlmanlar yaşayırlar, onların sayı 500 ailədən çoxdur, öncələr isə Qarayazı'da yaşayırdılar və 10 min ailədən ibarət idilər, Nadir Şah və eləcə də ona qədərki şahlar çoxunu İran'a köçürmüşlər, öz hakimlərinə sultan deyirlər (Güldenştedt bir neçə sultanın qonağı olduğunu xatırlamışdır); Türkmanlar yaxud Tərəkəmələr həmçinin yuxarı Kartli'də və Qarayazı'da da yaşayırlar, onların Kaxet'də beş kəndi var. Güldenştedt'in diğər qeydləri də diqqətiçəkəndir, örnəyin: Marneuli əhalisi 1769-da buradan Alget düzünə köçmüş və yeni Marneuli yaranmış, burada hazırda 30 Müsəlman və Gəncə'dən gəlmiş 40 Erməni ailəsi var; Aravlı yaxud Araplı'yı Nadir Şah 50 Müsəlman ailəsindən qurmuş; Qırıxlı'yı Nadir Şah İsfahan'dan gətirdiyi 10 ailədən qurmuş; Tərkəvün 1767-də Ağcaqala'dan 30 Müsəlman ailəsindən, Şamamalı 1772-də Qarakilsə'dən 15 Müsəlman ailəsindən, Qayaxocalı 1768-də İrəvandan və Kaxet'dən gələn 20 Müsəlman ailəsindən düzəlmişlər. Sarvan'da 80 ailə vardı.

Gördüyümüz kimi, bizimkilər geniş ərazidə yığcam yaşayırdılar, Borçalı, Şüləver, Anaxatır, Alget, Kür, Pinəzər, Qarabulaq, Maşaver çayları boylarında, habelə Yor boyunda, Tiflis yörələrində yurdlaşmışdılar.

Gürcü kəndləri genəldə Baratlı, Trialet tərəflərdəydi, onlardan ən irisi Gümərət, Güvəc, Balıc'ıydı.

Bu çağlar Gəncə–Qarabağ'dan, İrəvan'dan Ermənilər əsir kimi burada sığnaq tapmış, Şüləver'də, Xaçın'da, Güvəc'də, Kolagir'də və başqa yerlərdə sakinləşmişdilər.

Xeyli Türkdilli Yunan (Berzen) Türkiyə'dən gəlib Ağtala, Ləlvər gümüş, mis mədənlərində işləyirdi, Ümmay xan, Ağa Məhəmməd


downloaded from KitabYurdu.org

Xan onlara divan tutandan sonra bir qismi Borçalı'nın quzeyinə – Barmaqsızkörpü (Zalqa) tərəflərə qaçmışdı.

(Sözgəlişi: 1750-li illərdə İrakli'yə xəbər gətirirlər ki, Yağılca'dan bütün Müsəlmanlar var-yoxları, barxanaları, mal-qarasıyla Türkiyə'yə getmişlər. İrakli soruşur: "Yağılca'yı da özlərilə mi aparıblar? Heç narahat olmayın, bu dağ onları çəkəcək". Gerçəkdən, Dəmirçihasanlı, Sarvan, Görarxı ellərindən qaçanlar özləri geri qayıtmışdılar. Bu da Borçalıların yurda sədaqətinin bir örnəyi).

... Yüzilin birinci yarısına aid Gürcü qaynaqlarına –"Dəstərül-əməl"ə (qanunnaməyə), 1701–1711 illəri Qaplanlı'nın əhalisayımına, divanbəyinin hesabatına, Vaxuşti'nin əsərinə əsasən, Daşır-Qarabulaq–Dmanis–Pinəzər'də Baxçalar, Bostlar, Parçıxlı, Pərəncik, Çardaxlı, Çaxmaxlı, Ləkləkeşən, Əngirivan, Sukeçən, Tərəkeçən, Darbaz, Qamışlı, Qələmçə, Ərgəntala, Dunus, Hacılıq, Ormozan, Qədirqulu, Qaradağ, Şindlər, Görüncük, Gülbaba, Gülgül, Damğalı, Börtəkər, Darbənd, Kərəmdərə, Molla Masxud, Nəsibli, Salamməlik, Çəkişxana, Turan, Qoqarçlı, Crayurd, Ağzıböyük, Qarabulaq, Saça, Hüseynkənd, Qurdqala, Heydərbəy, Qızılziyarət, Qaraqala, Əskipara, Yenkiçax, Canbaxça, Şiştəpə, Azbulaq, Taxılbitməz; Qayqul-Lök'də Kəpənli, Ağayurd, Qoruncuq, Tapan, Musapirilər, Tanziya, Torpaqqala, Kipric, Ağbabalı, Muxnar (Palıdlı), Binələr; Somhut-Maşaver boyunda Nəsibli, Ağbabalı, Qışlaq, Təkanan, Şindlər, Qaradağ, Kəmərli, Mirasan-Durğaya, Keşəli-Qoçulu, Saraclı-Qaraclı, Ərkivan-Qaçian, Qoşakilsə; Ksiyə boyunda Ağbabalı, Arıxlı, Kolagir, Hallavar, Əmirəhmədli, Kanallı, Muğanlı, Baydar, Ellər, Darbənd, Qalaqlar, Naxatır, Şaheli, Sultanoba, Tarxaneli, Ağamateli, Nəcbəddin, Nəzərkənd, Baydar, Sınıqkörpü; Alget boyunda Əmirxaslı, Görarxı, Baqrat, Candar, Başıncaq, Kareli, Güvənciroba, Gödək Piri, Gültəpə, Günənət, Yenakət, Sarvan, Saqqaltutan, Çələbili, Torpaqqala; Kür nəhri boyunda Soğanlıq-Qurqud; Kürüstü-Dəmirçihasanlı'da Kəpənəkçi, Cavanşir, Cabbar, Dəmirçilər, Qaradəmirçi, Qazaxlar, Qoca-Keşəli, Kosalı, Fərmanlı-Qaramanlı; Vərə vadisində Laçın adlı obalarımız, ellərimiz, kəndlərimiz var olmuşdur.

Vaxuşti'nin əsərində Gəlgör (Birtvis) qalasından Naxatır'acan Ksiyə yarğanı (xramı), yəni çayın yuxarısı Ksiyə, orta axarı Xram (yarğan), aşağısı Anaxatır, habelə Odzis'dən yuxarı Ksan'dan günbatardakı duzəngah Cəngilər-Bəytatav adlandırılır.


downloaded from KitabYurdu.org

İstanbul arxivindəki "Tiflis Əyalətinin Müfəssəl Dəftəri"ndəki kənd, camaat, qışlaq, məhəllə adlarımız: Baratlı nahiyəsində Cəlayir, Qurdağzı, Ağbaba, Həsənli, Qaşqatala, Soğanlıq, Cavuşan; Dmanis nahiyəsində Ziyabəyli, Üşən, Ortaşevən, Heydərqulu; Baydar nahiyəsində Lahan, Qorcubaşı, Cığlay, Bəykəndi, Qoçlu, Əlamdarlı, Əmirxanlı, Padar, Daşdəmir, Heydərli, Mürşüdlu, Çələbili, Zülfüqarlı, Mahmudlu, Əhmədli, Qobu, Zəngişamlı, Ağamirhəsənli, Başaçıq, İmirli, Onbaşı, Xızır, Qacar, Şıxatlı, Dəllər, Qullar, Xanoğlu, Çələbili, Orucoğlu, Nəçməddinli, Yadigaroğlu, Qaradəmirçilər, Çavanşir-Pahləvanlı, Qədimxan, Həsir, Cavanşir-Kəbirli, İmirhəsili, Muğanlı, İmirxəlil, Qaramanlı; Dəmirçihasanlı nahiyəsində Qoluqaralı, Qaraçıbaşı, Yüzbaşı, Telli, Dükər, Çubuğlu, Nurubəy, Çəltiklər, Süleyman, Arıxlı, Sayatlı, Uruz, Alağac-Qaramanlı, Qaradikənli-Qaraçılar, Sarbanlar-Sarvan, Şərəfəddin-Qaramanlı, Lətifli-Şahbudaq, Nəzərli, Kəpənəkçi, Qaraöküzlü, Bəyəhməd, Sancaqlı, Sarı Sabunçu, Cığallı, Qəmərli, Köhnəli, Keşalı, Şahgəldi, Bərəli, Siraclı, Qacarlı, Nazarlı, Əmin, Kosalı, Arıxlı, Pətəkli, Səlcikli, Bəxtiyar, Göycəli, Çallı, Suqaraçı, Koxalı, Sayadlı, Palçıqlı, Ballı Qaya, Yayçı, Ağkeçi, Lacivərd, Çardaqlı, Çaxmaqlı, Cala, Molla Qasım, Süleyman, Yaqub, Azadkənar, Dəliqılıc, Qamış, Sarıxana, Yengixan, Sarıq, İrənçapıq, Qaraqala, Qarabulaq, Sarıqala, Göydağ; Ağcaqala nahiyəsində Boızçalı əşirətləri Saral, Qaçağan, Hacılı, Qılıclı, Kohalı, Təkəli, Quşçular, Qurdlar, Heydərli, Yaraqlı, Qaramanlı, Qazmalı, Marağallı, Ağəhməd, Məhanə, Şammalı, Şəmsəddiinli, Sayatlı, Həzrətli, Sübhan, Sücəddinli, Korlar, Zəngənə, Ərəbli, Ziyaqocalı, Pəhləvanlı, Seydiqocalı, Ulaşlı, Burundəli, Bozanlı, Aşıqlı, Çubuqluca, Soğanlı, Xocalı, Ağbaba, Qaraxan, Heyvalı, Qəribqaya, Əcabəy, Güləbdi, Şahablı, İmamkəndi, Muğanlı, Dəhnə. (Sözgəlişi: Vaxuşti yazmışdı ki, Ərkivan ilk dəfə Qaçiani və Ovcalasıydı, sonra  Qayazin, Cabaladan quzeydə Ksiyənin qayalı sahilindədir; Bolnisdən yuxarıdakı Bördiki qalası sıldırım qayada, çox möhkəmdir, Bördüzü adı da bu addan törəmiş olar; Qarağac-Daşır dağlarında Maşaver çayı yanında Keçid Dağı var; Ormozan gölü yanında Qarabulaq çayı güneyində dörd yanı qaya divarlı hündür Musa qala, onun içində Karvansaray bulağı axır).

1770-li illərə aid Güldenştedtin gəzinaməsində Soğanlıq, Qarayazı, Dəmirçihasanlı, Sınıq Körpü, Ksiyə, Naxətir (Anaxatır), Borçalı, Dəbəd, Sadaxlı, Surudaş, Qızqala, Şüləver, Maşaver,


downloaded from KitabYurdu.org

Güvəc, Görarxı, Qarahasan, Təkəli, Ağməmmədli, Qaçağan, Ulaşlı, Aravlı (yaxud Araplı), Saral, Mamay, Qırıxlı, Lalalı, Tərkəvün, Şammalı, Qayaqocalı, Saqal, Kosalı, Kəpənək, Keşəli, Baydur, Ağcaqala, Talaverdiqala, Marneulqala, Cabalaqala toponimlərimiz xatırlanır. Arxiv bəlgələrində Faxralı adına da rast gəlirik. Daha bir neçə qeyd: Güldenştedt Ksiyəyə Müsəlmanların Anaxatır (Naxətir), Gürcülərin Naxidur dediklərini yaxmışdı; Gürcü saray salnaməçisi Sexnia Çxeidze də Anaxatır deyə anmışdı; Şopendə də "Ksiyə vəya Nakatir (Xram)" deyimi var; qaynaqlarda çayın yuxarı yarğanı Darbənd olaraq da keçmişdir; Soğanlığın bir adı da Qorqud (Qurqud) olmuşdu; Algetin digər adı Xuna olmuşdu. O vaxt Kaxetə həm də Topqarağac (vəya Qarağac) deyilmişdir).

1794–1799 illərində şahzadə İohanın yazıya aldığı ərazi və əhali sayımına görə, Qarabulaq-Zurdakənd boylarında Torpaqqala, Söyünkənd, Bostlar, Bağcalar, Orməşən, Şüləvər, Qarabulaq; Lökdə Misxana, İlyaskənd; Pinəzər boyunda Qoruncuq, Çəkişxana, Ləkləkeşən, Molla Mashud, Dağətəyi, Pərəncik, Sukeçən, Tərcəşen, Darbaz; Güvəc boyunda Torpaqqala, Darbaz, Damğalı; Balıc boyunda Şüşəli, Dunus, Qələmşili, Hacılıq, Əvəncük, Ormozan, Qədirqulu, Dmanis, Şindlər; Bolnis boyunda Darbaz, Saxundərə, Bördiki, Ortaşua; Maşavər boyunda Nəsibli, Ağbabalı, Muxnar, Cığnət, Qızlar; Ksiyə boyunda Çələbli, Nəcbədin, Baydar, Kürt, Bəylər, Görarxı, Bala Muğanlı, Kolagir, Şeytanlı, Ayvazlı, Crayurd, Faxralı, Qoşakilsə, Hallavar, Qızqala, Kilsə, Fəriz, Naxidur, Ksilə; Alget boyunda Saqqaltutan, Güvənciroba, Qorqudoba, Maltəpə, Torpaqqala, Nəzərkənd; Şüləver boyunda Qullar, Mollakənd, Qalaqlar, Şüləver, Şətəkkənd, Ağkənd, Mehrağac, Canxoş, Dağlar, Kərmikər, Cərəkvi, Qalakənd, Çanaxçı, Hasankənd, Şıxçoban, Cabala, Talavər, Ərkivan, Mirasan-Durğaya; Dəbəd-Borçalı boyunda Sadaxlı, Qazangünbəti, Göytəpə, Qırıxlı, Mamay, Bəyazit, Dəmirçi, Saral, Araplı, Axılmahmud, Bəytallı (Qayqocalı), Dəmirçilər, Şammalı, Qayqocalı qışlağı (Tüllər), Tərkəvən, Canəhmədli, Uğuroğlu, Ulaşlı, Körpülü, Bəytərəfçi, Qurçlar, Qaçağan, Bərəhli, Xancığaz, Təkəli, Qurarquşçu, habelə şah elləri (birbaşa Gürcü şahına tabe), Kaxet elləri, Sarvan, Qaracalal, Qızılhacılı, Muğanlı, Kəmərli, Təklə, Arıxlı, Kəpənəkçi, Kosalı, Keşəli, Nazarlı, İlməzli kəndlərimiz varıydı.

... Öndər adamlarımız: Yüzilin birinci yarısında – 1710 illərində


downloaded from KitabYurdu.org

Əmirxaslı Molla Abdulla oğlu və Qazi Molla, Əmirəhmədli Pirməmməd, Dəmirçihasanlı Şərəfəddin, Muğanlı Seyid Qasım, Əli oğlu Məhəmməd, Hazarlı Söyün, Saraclı Əmin, Sarısabunçu Mustafa, Əmirxan, Kəpənəkçi Hacı İlyas, Cabbar, Hacı Məmməd, Hacı Şəfi, Hacı Saleh, Keşəli Xoca, Kosalı Göycə, Qaradəmirçili Molla Xanvəli, Xiyallı Mehrab Ağa; 1721 ilində Arıxlı Haqverdi, Xanməmməd, Ağbabalı Molla oğlu Əbül Qasım, Molla oğlu Abdulla, Tarıqulu oğlu Tarıqulu, Vəli oğlu Mədəd, Vəli oğlu Asdan, Mustafa oğlu Asdan, Molla oğlu Allahverdi, Anaqız oğlu Hacı Musa, Ködək Piri; Dəmirçihasanlı Məmməd, Dərzi oğlu Xəlil, Vəlixan oğlu Vəli, Yaşılbaş oğlu Əhməd, İbrahimxəlil, Yolçu oğlu Həsən, Zərgər Məmməd, Mirzə oğlu Mustafa, Molla Abdulla oğlu Məmməd, Molla Baba oğlu Əbülqasım, Muğanlı Əli oğlu Məmməd, Sarısabunçu Xıdır oğlu, Cavanşir Şatır İbrahim, Şatır Məmməd; 1728-də Baydar tərəfdə İmirhasanlı Miri oğlu Əli, Padar Əlləz, Qullar Vəli, Molla Əhməd, Pirəli, Bayram, Həsən, Xanoğlu, Çələbili Oruc oğlu, Molla Abdulla oğlu Mustafa, Nəcməddinli Molla Əli, Molla Mahmud, Yadigaroğlu Əhməd, Molla Əhməd, İmirxəlil, Qaramanlı İsmayıl, Dəmirçihasanlı tərəfdə Yüzbaşı tayfasından Mustafa, Əhməd, Həsən, Nuru bəy, Süleyman, Çopur Əhməd, Vəliağa, Molla Mehdi, Qara Uzun oğlu Əhməd, Abdulla oğlu, Qaramanlı Həsən, Şərəfəddin ağa tayfasından Qaramanlı Vəli, Əhmədqulu, Nəzərli Cığal Əhməd, Əmin, Mahmud oğlu Məhəmməd, Kəpənəkçi Hacı Şəfi, Əhməd, İlxıçı Yusif, Əbülqasım, Çatal Vəli, Tağı, Hacı oğlu, ibrahim ağa, Əyyub ağa, Bəy Əhməd, İmirhəsili Molla Abdulla oğlu, Saraclı Məhəmmədxəlil, Kosalı Yaqub oğlu, Ağcaqala-Borçalı tərəfdə Təkəli Ağəhməd (Pirvəli); 1740-lı illərdə Borçalı Cəfər bəy, Məhəmməd Qasım, Cəlil, Məhəmməd Əmin, Soğanlıq Allahverdi, Tiflisdə Hüseynəli bəy, Hacı Məhəmməd bəy; habelə Qaplanoğluların qolbəyiləri olmuş yasovullar Cəlal, İsmayıl, Usub; 1701-də Nəzərəli xanın ağalıq kağızı verdiyi mustofi (xəzinədar) Yadigaroğlu Mirzə Bağır bəy; 1723-də Tiflisi Osmanlıların işğalı haqqında kitab yazmış Gürcüzadənin hörmətlə adlarını çəkdiyi Borçalı kətxudaları Əli ağa, İbrahim ağa 1735–1744 illəri arasında Borçalı vəkili, gəlir vergisi üzrə dövlət müvəkkili Mirzə Əmin ağa; 1738-də Ləzgilərə qarşı şüçaət göstərmiş Kəpənəkçi Mədəd; II Teymurazın "Sərgüzəştlər" poemasında İsfahana yürüşdən bəhs edərkən tərifədiyi Borçalı ağaları ğözəl dilmanç Kəlbi. cəld atıcı Musa, sadiq nökər Adıgözəl;


downloaded from KitabYurdu.org

Nadir şah vaxtında Bopçalı vəkili qoyulmuş İsa sultan oğlu Sədili Məhəmməd xan, 1742-də Nadir şahın Gürcüstan kələntəri qoyduğu Xoca Əmin və b.

Yüzilin ikinci yarısındakı öndərlərimizdən: Yadigaroğlular, 1751-də Borçalı xanı Kəlbi Hüseyn oğlu Musa, Dəmirçihasanlı sultanı İsa bəy, Borçalı–Qazax qoşununun sərkərdəsi Kazım xan, 1755–1757-li illərə aid Şatır Mustafa, yasovullar Əli, Cəfər, Carçı Baba, Molla Qasım, Sübhanverdi sultan, Şeyxülislam Oruc, Novruz ağa, İsa yüzbaşı, Mirzə Süleyman, Cavanşir, Qurban, Şüləver Cəfər, Qızılhacılı Piri, İsmət, Vəli, 1766-da Dmanis'də Haqverdi bəy, arxiv sənədlərində adlarına rast gəldiyimiz Nalbənd oğlu İsmayıl, Ağaçan, Məhəmməd sultan, Muğanlı cilovdar Əli, onun oğulları Məmməd, İmanqulu, Məmmədqulu, Əhməd, Nəbi, Süleyman, 1783-də İrakli'nin ağalıq kağızı verdiyi Qara Məhəmməd, 1789-da Qarsda Türklərə qarşı Gürcülər tərəfdən savaşmış mehtər Sarvan Şərif oğlu Gül-məhəmməd, yüzilin sonlarında Tiflis şeyxülislamı Şamil Məhəmməd, Borçalı axundu Tarverdi bəy, Ağqızoğlu Piri'nin “o ki bənzəməzdi heç bir kimsəyə” deyə öyüb, dünyadan murazsız getməyinə ağı yazdığı Baydar İsa sultan, Baydar sultanı olmuş Yadigaroğlu Ağacan, Sarqis Hasan Calalyans'da "Borçalı nəhənginin" hakimi deyə anılmış Süleyman xan, Borçalı vəkili Əmircan oğlu Hacı, 1792-də Hərtvis ağası İbrahim bəy, şahzadə İohan'ın şahbaz atlarını təriflədiyi Ağ Kazım, 1799-da Giorgi'nin ağalıq verdiyi Mursaqulu ağa, Muxran çökəyində Çömbər Məmməd, Əhməd, Osman, Məşədi Mustafa, Nəsib qardaşları, Qara Hasan, Tatoğlu Rüstəm, Cəfər, Məşədi ağa Məmməd, Adıgözəl...

Yadigaroğlulardan ayrıntılı danışmaq gərəkdir. Onların 1701-də I İrakli (Nəzərəli Xan), 1707-də II David (İmamqulu Xan), sonra Anna (Bəhriçan) Bəyim, Konstantine (Məhəmmədqulu Xan), II Teymuraz'dan ağalıq imtiyaznamələri vardı, Sınıq Körpü'dən bəri kəndlər onlara verilmişdi, o sıradan Bahadır Bəy 1730-lu illərdə Gürcü valisinin naib-eşikağasıbaşı, Borçalı'da arxların mülk sahibi olmuşdu. Abbasqulu Ağa Bakıxanlı'nın “Gülüstani-İrəm”indən: "İrakli Xan Sadıq Bəy Yadigaroğlu'yu səfir sifətilə Fətəli xanın yanına göndərdi. O, qədim valilər nəslindən yadigar qalıb... Səfir Sadıq Bəy Nuxa'da xanın hüzuruna gəlib, hədsiz lütf və mərhəmətə nail oldu". Sadıq Bəy Farsca mükəmməl bilmiş, həm də güclü tarix, ədəbiyyat bilgini, gözəl xəttat olmuşdur (sözgəlişi: Bakı'dakı Əlyazılar


downloaded from KitabYurdu.org

İnstitutunun arxivində onun köçürdüyü Mirzə Mehdi Xan Astrabadi'nin “Tarixi-Nadir” əsərinin əlyazma kitabını əldə etdik). Məhəmməd Sadıq Bəy Yadigaroğlu Mustafa Bəy'in oğludur. 1780-də İrakli Sadıq bəyə, onun oğulları Ağacan-Mamacan'a, Mustafa'ya, Allahverdi'yə və onların varislərinə Tiflis'də Meydan məhəlləsində məscid yanında beş dükan bağışlamışdı, 1787-də şahzadə Giorgi'nin buyruğuyla Loru'dakı Ağaöyü kəndi də Sadıq bəy'ə verilmişdi, Sadıq bəy oraya öz rəncbərlərini yerləşdirmişdi, yüzilin sonlarında Sadıq bəy'in böyük oğlu Ağacan Baydar sultanı olub, öz eliylə oraya köçüb Çələbili obasını qurmuşdu. 1797-də şah İrakli'nin Sadıq bəy'ə, onun oğulları Ağacan'a, Mustafa'ya, Allahverdi'yə, İsmayıl'a və onların varislərinə verdiyi imtiyaznamə: “Xələflərimiz Sınıq Körpü'yü sizə (nəslinizə) bağışlamışlar. Sizdə bundan ötrü babamız Nəzərəli Xan'ın, şahənşah Anna'nın, əmimiz İmamqulu Xan'ın və atamız Teymuraz şah'ın imtiyaznamələri vardı. Ağa Məhəmməd xan Tiflisi odlara qalayıb, virana qoyanda sən bizimləydin və nə qədər bacardın bizə yardım elədin, oğulların Ağacan, Allahverdi bizi Araqvi'yəcən bələdlədilər və bizə sədaqətlə xidmət görsətdilər. Tiflis dağıdılan vaxt sən çox şey itirdin, xatırlanan imtiyaznamələri də o vaxt itirdin. Cani-dillə, sədaqətlə xidmətini nəzərə alıb həmən imtiyaznamələrin qüvvəsini bərpa edirik və Sınıq Körpü əhalisini kəndlilər kimi sənə bağışlayırıq”.

“Xudu Bəy də Yadigarovlardandır”– bunu Şəmistan Nəzirli yazmışdır. 1770-in yazında Ahısqa'da Xudu Bəy'in görsətdiyi şücaət şahzadələr Teymuraz'ın, Baqrat'ın, David'in, İohan'ın tarixi icmallarında özəlliklə qeyd olunnuşdur. Gürcüstan və İmeret (Açıqbaş) şahları Rus qoşununun yardımıyla Ahısqa'yı, Azğur'u, Aspinza'yı tutmağa getdilər, İraklinin muzdla tutduğu Ləzgi qoşunu Kür nəhri üstündəki Aspinza Körpüsü'ndə məğlub olub, qaçmağa üz qoydu, İrakli özu məşhur Ləzgi sərkərdəsini öldürdü, sonra İrakli, Borçalı atlı dəstəsini Qori'yə göndərdi. O, öncəbhə sərdarı Rus generalına məktubunda (əsli Gürcüstan Əlyazmalar İnstitutu'ndadır) yazırdı: “Xudu dörd yüz qoçaq müsəlmanla sizin yanınıza gəlməlidir. Borçalılar yaxşı, mərd adamlardır. Mən bunu yazan vaxtlar həmən qoşun ya gəlmiş, ya da yaxınlaşmış olacaqdır. Bu müsəlman ləşkəri oniki - onüç gün sizin yanınızda qalacaqdır”. Rus qoşunu qəfil atəş xəttindən arxaya çəkildi, buna baxmayaraq, Xudu'nun, habelə elbəyi Ağbaba'nın, Muxran ağası Levan'ın oğlu Simon'un dəstələrinin


downloaded from KitabYurdu.org

yardımıyla aprelin 20-də körpü tutuldu, Türk qüvvətləri çəkildilər. Borçalı'nın arıq atları möcüzə görsətdilər. İohan, Xudu Bəy'i “şan-şöhrətli cəngavər” deyə öymüşdür. Xudu'nun dəstəsi Ahısqa'dan sonra Qars'da da vuruşmuş, daha sonra Gürcüstan ləşgəri içində Naxçıvan'a yürüş etmiiş, Şükürəli xan'ı yenmişdir. Gürcüstan Əlyazmalar İnstitutundakı arxiv bəlgəsində oxuyuruq ki, Gürcüstan qoşun sərdarının kəşfiyyatdan ötrü Sisyan'a göndərdiyi Xudu (Xudiya) 50 nəfər döyüşçüylə İlandağ'da İbrahim xan'ın 200 nəfərlik ön qoşununa qalib gələrək, 8 adamı əsir götürdü, Xudu və Borçalı Topçuoğlu öldürdükləri iki sərkərdənin başını gətirdilər. Şahzadə Teymuraz'ın salnaməsində həmən yürüşə Borçalılardan əlavə Qazaxlıların, Pəmbəklilərin, Şəmşəddillilərin də qatıldıqları bildirilir. 1795-də Sadıq Bəy'in Qazax-Borçalılardan yığıb Ağa Məhəmməd Xan'a qarşı çıxardığı qoşuna o sərkərdəlik etmişdir. (Sözgəlişi: ünlü Gürcü ədib Sandro Şanşiaşvili'nin Ağa Məhəmməd Xan'ın Tiflis'ə yürüşü təsvir olunan “Krtsanis Qəhrəmanları” dramında İrakli'nin ən yaxın sirdaşlarından və sərkərdələrindən biri kimi Xudu Borçalı obrazı da var – İrakli'nin şəxsi qoruyucusu olan Xudu: “Məni vuruşa göndərin” deyəndə İrakli: “Sən burada mənimlə olacaqsan” deyir və İrakli Qocor yoluyla dağlara çəkiləndə də ona Xudu bələdlik edir; indi Marneuli'də Xudu Borçalı küçəsi var). Qaynaqlardan aşkarlamışıq ki, Xudu bəy şah Giorgi'nin də ən yaxşı məsləkdaşı olmuş, sonra isə o, şaha və Ruslara boyun əyməyərək, İran'a varıb getmişdir.

... Borçalıların bir qismi oturaq, bir qismi köçəbə (tərəkəmə) güzəranı keçirirdi. Oturaqların məskənlərinə obalar, köçəbələrin yerlərinə ellər deyilirdi, hər elin aranda (ovada) qışlağı, dağda yaylağı varıydı. Ellər yayda Qayqulu, Lök-Qarağac, Balağac, Başkeçid, Ərcivan, həmçinin Qaraqalxan, Şirək, Göycə, Qarabağ... yaylaqlarına da yayılırdılar. Sözgəlişi: hələ XII–XIV yüzillərdə Qıpçaqların yaylaqları olmuş Qaraqalxan dağı Ağ Araqvi (Qaraqalxan) çayı boylarındaydı, onu Aşıq Qərib tərəkəmə oylağı deyə vəsf etmişdir. Qaraçöplülər də Borçalı yaylaqlarında yaylayırdılar. 1705 aprel-may ayları arasında Qaraçöpdəki Keşəli camaatından Əlixan'ın, Qaramanlı çamaatından Məhəmmədvəli Hüseyn oğlu'nun diləkçələrinə yanıt olaraq Şah Sultan Hüseyn'in fərmanıyla (əsli Gürcüstan mərkəzi arxivindədir) həmən çamaatların əski çağlar olduğu kimi, yenə də yayda Qarakilsə və Borçalı diyarlarındakı yaylaqlara getmələrinə heç kəsin mane olmaması,


downloaded from KitabYurdu.org

Kaxet valisinin onlara yardım görsətməsi tapşırılmışdı.

Əhalinin zümrələri ağa-bəy, ruhani, rəiyyət-rəncbərlərdən ibarətiydi. Ağaların, bəylərin knyazlarla bərabər imtiyazları varıydı, onların torpaqlarında yaşayan kəndlilər azad idilər. Borçalı ağa-bəyləriylə Gürcü şahlar arasında araçılığı knyaz nəsilli murovlar oynayırdılar. Ruhanilər yaxşı savadlı din adamlarıydı. Rəiyyət və rəncbərlər ağa-bəylərin tabeliyində olurdular, birincilərin öz torpaqları varıydı, ikincilərin yoxuydu. Habelə yüzbaşı, tarxan, qolbəyi, molla, fağır (füqəra), elağası, elbəyi, gizir, bəziyər, mütacir, çobanbəyi, qoruqçular da olurdu.

Əhali xərac (torpaq vergisi), damğa (alver vergisi), bac (yol vergisi), bəhrə (məhsul vergisi), çöpbaşı (otlaq vergisi), bağbaşı (meyvə vergisi), darğalıq (vergi vergisi), habelə mehmanlıq, novruzluq və başqa vergilər verirdi. Örnəyin, Arıxlı'da Məhəmməd'in nəsli 1 tümən 5 minalt, Dəmirçihasanlı Molla Əbdülqasım'ın nəsli 2 tümən 5 minalt vergi ödəyirdi. Tarxanlar vergidən kənar idilər, 1707-də 250 nəfər tarxanımız varıydı.

Kəndlər, camaatlar, elatlar yaşayış tərzinə görə fərqlənirdilər. Kənd öz təsərrüfatını oluşdurub əkinçiliklə, heyvandarlıqla əlbir məşğul olan yığamatıydı. Kəndə kətxuda (koxa), camaata ağsaqqal, elata elağası başçılıq edirdi, kənddə torpaq mülkləri varıydı, rəncbərlər sultan, naib, vəkil, bəy, ağa, qazi, kətxudaların təsərrüfatlarında işləyirdilər. Camaatlar xana, sultana, naibə xərac verir, torpaqlardan istifadə edirdilər. Tərəkəmələr elat (ellər), onların saldıqları düşərgələr uluslar adlanırdı. Yüzilin birinci qərinəsində Baratlı, Dmanis, Pəmbək nahiyələri hamısı kəndləriydi, Baydar, Dəmirçihasanlı, Ağcaqala nahiyələrində həm kəndlər, həm camaatlar, həm də qışlaqlar varıydı. Bir də birbaşa şaha tabe olub, ona xəraç verən, qoşununda vuruşan özəl imtiyazlı ellərə Şah Elləri deyilirdi. 1773-dən şah İrakli'nin sərəncamına əsasən öz torpağı olanlar hər il bir ay Gürcüstan hüdudlarında əsgəri xidmət keçirdilər. 1783-də İrakli qoşununda bizimkilərdən 4 min nəfər qulluqdaydı.

Yüzilin ilk onillərində Anaxatır'dan Qızqalası'nacan köhnə arx təzələndi, Borçalı çayından, Kür nəhrindən təzə arxlar çəkildi.

1720-li illərdə Vaxuşti'nin, 1770-li illərdə Güldenştedt'in soraqladıqlarına görə, Alget mənsəbindən Yağılça'yacan və Kür üstündəki ellər düyü, pambıq, hər cür dənli-sünbüllü bitkilər əkir, ipək hazırlayırdılar, Yağılca'da bol ot bitirdi, Baydar'da hər çür dənli-


downloaded from KitabYurdu.org

sünbüllü bitkilər, bağ və bostan məhsulları bol, pambıq və ipək çox olurdu, Balıc vadisi, Anaxatır'ın aşağı boyları üzümlük, meyvəlik, Dəbəd vadisi, Sadaxlı yörələri arpa, buğda, düyü, pambıq zəmiləriydi, tərəkəmə rəncbərlər ildə iki kərə məhsul götürürdülər, Qarağac-Daşır dağları sıx ormanlarla, dadlı bulaqlarla, otla, çiçəklərlə zənginiydi.

Kürüstü'ndə maral, qaban, qırqovul, Borçalı çayı vadisində qırqovul, kəklik, ördək, Qarayazı'da dağkeçisi, çeyran, cüyür, Lök, Başkeçid, Ləlvər dağlarında dağkeçisi, Anaxatır, Maşaver boylarında hacıleylək, qaz, ormanlarda maral (o sıradan xallı maral), ayı, vaşaq, cüyür, tülkü, canavar, dovşan və başqa ov heyvanları, quşları çoxuydu. Quş ovundan ötrü ən əlverişli yer Baydar'ıydı. Alget Karp balığıyla, Borçalı çayı qızılbalıq, naqqa, karp, sazan (çəkibalığı), alabalıqla, Maşaver xırda balıqlarla, dağlara yaxın yerdə Alabalıqla, Anaxatır qarabalıqla, Qarabulaq çayı qızılbalıq, alabalıqla zənginiydi. (Sözgəlişi: Vaxuşti, Borçalı çayı vadisini öngörərək yazmışdır ki, burada balıq və heyvan əti çox dadlıdır).

Bu tərəflərdə buğda, arpa, darı, düyü, pambıq, tənbəki, kətan, çətənə də becərilirdi. Noxudu ən çox Borçalı'da, Qarayazı'da becərirdilər, onun toxumu İran'dan gətirilmişdi. Borçalı'ya və Qarayazı'ya Açıqbaş'dan (İmeret'dən) maş-lobya da gətirilib səpilirdi, ordan da çox yetişdirilirdi. Borçalı uzümü rəngi, ləzzətli dadıyla seçilirdi. “Borçalı” adlı özəl üzüm növü də varıydı və çox məşhuruydu. Burada bol xiyar, badımcan da əldə edilirdi, İçarədarlıq geniş yayılmışdı, 1707–1709 illərində Dəmirçihasanlı'da, Baydar'da, Borçalı'da 1426 içarədar varıydı. Baydar Əlləz ən yaxşı icarədar kimi ad çıxarmışdı. Sulu yerlərdə düyüçülük yayılırdı, 1707-də Rəncbər elində 438 tağar 30 çanaq, Nəcməddin'də 130 tağar 10 çanaq, Hallavar'da 80 tağar, Qalaqlar'da 9 tağar düyü beçərilmişdi. 1770-də Güldenştedt soraqlamışdır ki, Alget'in hər iki qırağı müsəlmanların düyü zəmiləridir, ən çox düyü Dəmirçihasanlı'dadır.

Borçalı çökəyində bol qarpız, yemiş, şamama yetişirdi, vilayətdə qarpız ən çox burada yığılırdı, şamama təkcə burdaydı (sözgəlişi: Qırıxlı, Qullar tərəflərdə Şamamalı vəya Şammalı kəndimiz də olub). Burada, Vaxuşti'nin sorağına görə, nar, əncir, zeytun da daxil olmaqla hər cür meyvə yetişirdi. Güldenştedt Borçalı'da söyüd, qara və ağ çinar, qara və ağ tut, zeytun, habelə nadir yulğun görmüşdü.

Borçalılar çoxlu mal-qara, qoyun-quzuyla varlıydılar. Yağılca'da


downloaded from KitabYurdu.org

bolluca şirəli ot tükənməziydi, burada inək, camış, dəvə, at, qoyun, keçi vb. heyvanlar otarılırdı, yazda mal-qoyun sürüləri dağlara üz tutur, payızda köç geri dönürdü. (Sözgəlişi: Vaxuşti, Borçalı tərəkəmə naxırçıları haqqında yazmışdır ki, onlar çalışqan, dildən iti, cəsur, boylu-buxunludurlar).

Kolagir'də yerli rəncbərlərin və İrəvan quberniyasından əsir gətirilmiş 55 erməni ailəsinin qüvvəsiylə ipəkçilik gəlişdirilirdi.

Qaynaqlarda qızıl-gümüş yatağı deyə xatırlanmış, pul əskinazları kəsilməsindən ötrü əsas xəzinə olmuş Ağtala'da 1763-də mədən işləri başlandı, 1775-də də Ləlvər misxanası işə düşdü. Burada Türkiyə'dən İrakli'nin çağırışıyla gəlib yerləşmiş Türkdilli Yunanlar (Berzenlər) önəmli rol oynayırdılar. Bolnis vadisində otuza qədər dəmir filizi mədəni aşkarlanmışdı, Dəmirli dərəsində dəmir və mis, göydaş (lazurit) çıxarılırdı.

Yurdumuz mədən, tibbi-müalicəvi sularıyla, doğal ehtiyatlarıyla da şöhrətliydi. Başkeçid tərəflərdən bəhs edərkən Vaxuşti bildirmişdir ki, burada bir bulaq var, onun suyu mədə yarasını (xorayı) qurtarır, burada bir bulağın suyu da sidik kisəsində daşı parçalayıb tökür; Yağılca'da torpaqdan əkinçilikdə işlənən şora (silitrə) çıxarılır, orada qara və xırda, rəngbərəng əqiq daşına rast gəlmək olar, burada qanqal adlı bir ot bitir, onun kökünü yandırır və külündən sabun bişirirlər, bundan əlavə, onu başqa məqsədlə də işlədirlər; Qarayazı, Dəmirçihasanlı tərəflərdə xalq təbabətində və qatran hazırlanmasında yararlanılan sumaq kolu və çoxlu yerqulağı bitir.

Daha iki ilginc arxiv sənədi – şahzadə Giorgi'yə Talıbxan oğlu'nun 24 Aprel 1796 tarixli diləkçəsi: “Biz, Qarabağ'dan gəlmiş Muğanlı Talıbxan oğlu'nun ağa nəsli Kolagir'də məskunlaşmaq istəyirik. Cilovdar Qasımoğlu deyir ki, Kolagir onun rəiyyətidir, onları burada məskunlaşmağa qoymur”; Giorgi'nin münasib əmri: “Onları ya Müsəlman, ya Gürcü incitsə, tutub mənim yanıma gətirin”.

Darəcan Bəyim'in yazdıqları: “Kolagir yüz il virana qalmışdı, mənim möhtərəm ərim şah İrakli ona-buna bağışlayırdı, ancaq onu heç kəs bərpa edə bilmirdi, heç kəs əl qatmırdı. Mən özgə məmləkətdən xaçpərəstlər gətirib burada məskunlaşdırdım. Həmən Kolagir'də üzümlük saldıq, burada ipək qurdu yetişdirdik, burada düyü, pambıq, bostan bitkiləri becərdik, həmən Kolagir'də daşdan böyük qala və hasar tikdik, onun yaxın qonşuluğundakılar bu tikintidə


downloaded from KitabYurdu.org

müşə kimi işlədilər. Ahısqa paşası və Dağıstan əsgərləri bir neçə dəfə bu qalanın tikintisini pozmağa çalışdılar. Ancaq onu tikib başa gətirdik. Xərc beş min tümən olardı. Burada Kolagir müsəlmanları, yerli sakinlər on iki ailədir və başqa məmləkətlərdən buraya adamlar gəlmişlər. Burada Kolagir'də ikigöz dəyirman, burada Kolagir arxı, icarə balıq ovu yeri də var. Burada Molla Qışlağı adlı balaca kənddə də mən dəyirman qurdurmuşam... Qoşakilsə elinə mən özgə məmləkətdən müsəlmanlar gətirib yerləşdirmişəm. Hasanxocalı müsəlmanları Anaxanım Bəyim'in vaxtında Osmanlı'ya qaçmışdılar, on beş ildir ki, mən onları geri qaytarmışam".

... O zaman Təbriz'dən, Gəncə'dən, Qars'dan, Dmanis'dən Tiflis'ə gəlib gedən önəmli ticarət yolları Borçalı'dan keçirdi. Əhməd Bəy Cavanşir Tiflis, Dmanis ticarət ilişkilərinin genişləndiyini, Gəncə–Tiflis karvan yolunun həməşə açıq olduğunu yazırdı. Gürcü salnamələrində də xatırlanır ki, hər gün Gəncə'dən, Şamaxı'dan, İrəvan'dan, Təbriz'dən və Ərdəbil'dən Tiflis'ə çoxlu ticarət karvanı gəlirdi. 1798-də Şamaxı tacirlərinin Borçalı'da alver etdikləri haqqında də tarixi sənədlər var. Nəçməddin yaxınındakı Damğaçı məntəqəsi karvan yollarının kəsişdiyi nöqtədə yerləşirdi. Qarabulaq (Zurdakənd) tərəflərdə də ticarət yolları, karvansaraylar olmuşdur. 1750-li illərdə Borçalı'da nəqliyyat yollarının çəkilişinə başlanmışdı.

... Tiflis şəhəri müsəlman mədəniyətinin dayaq nöqtələrindən biri olaraq qalırdı. Burada Şah Abbas'ın adıyla bağlı minarəli, beştağ eyvanlı məsciddən, XVII yüzildə Osmanlıların tikdikləri məsciddən əlavə, üçüncü məscid də varıydı.

Görarxı, Arıxlı, Sadaxlı, Saral və başqa kəndlərdəki məscid binaları o vaxtdan ərməğandır.

... Borçalı'da təhsil ocaqları mədrəsə, molla məktəbləriydi, bu məktəblərdə oxumuş gənclər xan, sultan iqamətgahında, bəylər, ağalar yanında mirzəlik edir, mollalıqla məşğul olurdular. 1799-da Tiflis'də, Qori'də, Telav'da ali məktəb tipli milli təhsil ocaqlarında Azərbaycan dilinin tədrisi nəzərdə tutulmuşdu (bunu İohan soraqlamışdır).

... Şahzadə İohan xatirələrində Borçalı'da, daha dəqiqi, Qullar'da Azərbaycan, Fars, Ərəb, Cığatay dillərində kitablar əldə etdiyini qeyd etmişdir.

... Ehram üstündə, şair demiş, köhlən belində qızıl yəhərə


downloaded from KitabYurdu.org

bənzəyən, ortaçağ abidələrimizin tacı Sınıq Körpü'nün karvansaray divarlarındakı yazılardan görükür ki, 1772-də doktor Anton Güldenştedt, 1796-da şahzadə David, habelə həmən çağlar naturalist İvan Adam, Xristian Steven bu körpüdən keçmiş, ona valeh olmuşlar. Dəbəd çayı üstündəki daş körpü, Alget üstündə Marneuli yaxınındakı körpü də səyyahları heyran etmişdi.

Qaynaqlarda Ağcaqala, Baydar qalası, Marneul qalası, Talavar qalası, Güvəc qalası, Suqala, Çaxlaqala (Opret), Qızqala (Şüləver), Çabala qalası... haqqında xoş təriflərlə rastlaşırıq. Kolagir (Kolayır) yaxınında uçub xarabalığı qalmış Ağqala'nın yerində İrakli şahın xanımı Darəcan (Darya) Bəyim'in 1788–1798 illərində yerli və qonşu müsəlmanların zəhmətiylə tikdirdiyi, Kolagir qalası adlanan dördbürclü, iki hündür qapılı (gündoğar və günbatar səmtlərdən), mazğallı, qülləli daş qala düzən yerdə olmasıyla seçilir.

... O dövr incəsənət xadimlərimizdən biri sazəndə Allahverdi'dir. İohan'ın "Kalmasoba" (Qalmazlıq – xırmandan taxıl yığımı) xatirələrindən: "İohan Şüləver'ə gəldi, şahzadə Aleksandr da ordaydı. Nahar verdilər. Və şahzadə musiqiçi Allahverdi'yi çağırtdırdı. Allahverdi çonqurda (sazda yaxud tarda – Ş. M.) çalıb şirin-şirin oxudu. İohann çox məmnun qaldı, onun çox xoşuna gəldi..." və buradan o da aydınlaşır ki, Allahverdi çavan yaşlarında Borçalı'da sazəndəlik etmiş, sonra İrakli sarayına gətirilmişdir, sarayda o, tarçalan Səyyadnəvə (Sayat-Nova), David Besiki ilə bir dəstədə çıxış etmiş, öz ana dilində və Gürcücə mahnılar oxumuşdur. Ketevan Orbeliani'nin xatirələrində ilginc bir məqam da anılmışdır: Əvvəlcə Nabat adlı bir qızla ailə qurmuş olan Allahverdi sonra şah nəslindən Anastasya'yı sevir, Anastasya'nın qəfil vaxtsız ölümündən sonra Allahverdi heç evlənmir, tar çalaraq qəmli mahnılar oxuyur. Aleksandre Çavçavadze ona Gürcücə mahnı mətnləri yazmışdır. Allahverdi özü də şair olmuş, əvvəl Allahverdi, sonra Divanə imzalarıyla şeirlər, mahnılar qoşmuşdur. Arxiv saxlanclarından onun bir neçə qoşqusunu da əldə etmişik. Ömrünün xeyli qismini Borçalı'da keçirmiş Qərib təxəllüslü şahzadə David şeirlərindən birində Allahverdi'yi "bərk kişi, isti şilə-plov bişirən" təqdim etmişdir. Sözgəlişi: bu xanəndə Nəriman Nərimanov'un babası nişan verilmişdir; araşdırmalarımız təsdiqləyir ki, N. Nərimanov'un ulu babası Allahverdi XVIII yüzilin əvvəlində I İrakli sarayında mehmandarbaşı olmuş, əsrin sonunda II İrakli sarayındakı Allahverdi


downloaded from KitabYurdu.org

Borçalı Yadigaroğlu Sadıq Bəy'in oğludur.

... Xalçalarımız da tariximizə, mədəniyyətimizə açardır. Xalça bilgini Lətif Kərimov Borçalı xalçaçılıq məktəbi ifadəsini çəkinmədən işlətmişdir. Xalça bilginlərinin (L. Kərimov, N. Abdullayeva) XVIII yüzilə aid etdikləri, gah "Borçalı", gah da "Damğalı" adlandırılan sənət incimiz dünyada ünlüdür. Biri Nyu-York'da ABŞ-ın ən böyük incəsənət muzeyi Metropoliten-Muzeydə, biri də Almanya'nın Münhen şəhərindəki İncəsənət muzeyində saxlanan, orta boyutlu bu xalı-gəvə qoşa qoçbuynuzu və paxlavarı naxışlı yelənlə bəzədilmişdir, arasahəsi geniş, rənglər yığçam, şux, dolğundur, ən çox arasahədəki iri damğa ünsürlərinin biçimiylə xarakterikdir. Xatırladaq ki, Berlin incəsənət muzeyindəki "Damğa" kilimini də Borçalı xalçaçılıq inçisi hesab edirlər. XVIII yüzildə Borçalı'da toxunmuş sənət örnəklərimizdən biri də Budapeşt dekorativ inçəsənət muzeyində görsədilən "Çobankərə" xalısıdır. İfadə lakonikliyiylə diqqəti çəkən bu xalıda quyrum xətlərlə və nəbati rəsmlərlə çəmənlik, su, qoyun sürüsü, qoşa tazı təsvirləri var. Gəncə'dəki Şah Abbas məscidinin divarını bəzəyən "Qaraçöp" çeşnili xalı da XVIII yüzilə aiddir. Bu xalı yaşıl yelən, quyrum motivlər, qoçbuynuzu quyrumlar, gəzmə xətlərlə zəngin quruluş və naxış koloriti oluşdurur.

... "Borçalı Dübeytisi", "Borçalı Gözəlləməsi", "Borçalı Qaytarması", "Borçalı-Urfani"... saz havalarımız, çoxlu başqa saz havaçatları, "Tərəkəmə", "Camış Bağa Girdi", "Tiflisi", "Atdandırma", Şax gəldi", "Bağdagülü", "Gödək Baba", "Tellayı", "Kələfcə" oyun havaları Borçalı'da yaranmışdır. Məhəmməd'in "Şəhriyar" dastanı bu ədəbi mühitin bəhrəsidir. Tiflis'də Rizvan, Sadiq, Allahverdi..., Borçalı'da Şəmsəddinli Cəlal, Zabit, Ağqızoğlu Piri, Qul Allahqulu, Sarvan Əli, Muğanlı Qasım ağa... kimi aşıqlar, şairlər ağır məclislər aparmışlar.

... O vaxtdan qalma türbələrdə, məzar daşları üzərində yazılar burada gözəl xəttatların olduğuna da tanıqdırlar. Araplı'da 1794-də vəfat etmiş Borçalı vəkili Əmircan oğlu Hacı'nın türbəsində Quran ayələri gözəl xətlə oyulmuş və usta Molla Məhəmməd Molla İsmayıl oğlu olmuşdur. Nəcməddin kəndində sultan Əhməd'in, Böyük Muğanlı'da Kazım Xan'ın türbəsində süls xəttiylə Ərəb, Fars, Azərbaycan dillərində yazılar, şeir parçaları, habelə Təkəli,


download from KitabYurdu.org

Ləcbəddin, Araplı, Kürtlər, Sadaxlı, Qızılhacılı, Sarvan, Arıxlı, Kolayır, Faxralı, Kəpənəkçi, Görarxı, Kosalar, Darbaz, Yırğançay, Hamamlı, Kosalı, Təhlə... məzarlıqlarında oxunmamış gözəl xəttlər var.


downloaded from KitabYurdu.org

▫

# ONDOQQUZUNCU YÜZİL

12 sentyabr 1801 tarixli manifestlə Gürcüstan qəti olaraq Rusya'ya birləşdi, Gürcüstan quberniyası tərkibindəki beş qəzadan biri Borçalı'nın da daxil olduğu Loru qəzası oldu, buraları qorumaq və Gəncə xanının gözlənilən hücumlarının qarşısını almaqdan ötrü rus yeger (nişançı) alayının bir batalyonu Alget qırağında yerləşdirildi. İlk öncə Borçalı Ruslara itaətsizlik görsətdi. Gürcü şahzadələri Aleksandre, Yulon, Parnaoz, David də Borçalı'dakı dostlarının yanına gələrək, onlara həmməslək olduqlarını bildirdilər. Dəmirçihasanlı, Baydar ağaları Usuf miskərbaşıyı qovladılar. Borçalı ağa-bəylərindən bir neçəsi, o sıradan Əmircan ağa, Seyid bəy Ruslara qarşı qiyamlar düzənlədilər. General-mayor Lazarev'in 1802-ci il raportundan: “Qazaxlılar, Borçalılar və genəldə Azərbaycanlılar bizə inanmırlar, açıq-açığına bizə qarşı çıxırlar və Gəncə xanı da onlara qoşulur. İndi Aleksandre şahzadə də Kaxet'in bəzi knyazları və Borçalı, Qazax xalqının kətxudalarıyla birlikdə Gəncə xanının yanındadır”. Lazarev Borçalı'da, Dəmirçihasanlı'da. Qazax'da aqa-bəylərə belə məzmunda andnamə yazdırdı: “Biz öz kəndlilərimizlə birlikdə Rus hakimiyyətinə sadiq, xeyirxah və itaətkar olmaq istəyirik, nəslimizlə bərabər xaricə getməyəcəyimizə və başqalarına xidmətə girməyəcəyimizə and içirik”. O sıradan Musa əfəndi, Cəfər yüzbaşı da belə andnamə imzalayıb möhürlədilər. Dağlarda dincələn beş ağa belə andnamə yazmadı.

Rusya'nın Gürcüstan'da baş rəisi general Pavel Sisyanov'un müşketyor (qvardiya süvari) alayının əsgərləri Tiflis'dən Gəncə'yə Cavad xan üstünə yürüşə gedərkən Dəmirçihasanlı'da dayandılar, Sınıq Körpü'yə qədər bir həftə Borçalı ellərindən keçdilər, yol boyu kəndləri taladılar, Rus tabeliyini qəbul etdirdilər.

1804-cü (h. 1219) ilin yay-payızında İrəvan yaxınındakı vuruşda Rus qoşununu yenən İran hakimi Fətəli şah Borcalı'da da hökmranlıq etməyə başladı. Mirzə Adıgözəl bəy: “Əvvəlcə Qazax və Borçalı elatı Rusya dövlətindən üz çevirdilər və o dövlətin itaətindən boyun qaçırdılar”. Mirzə Yusif Qarabaği: “Bu zaman Qazax və Borçalı elləri Rusların itaətindən çıxıb, onlardan üz çevirmişdilər”. Fətəli şah 1804-də fərmanlarından birində bildirirdi: “Borçalılar,


downloaded from KitabYurdu.org

Qazaxlılar, Şəmşəddillilər və Pəmbəklilərin bir qismi mənim tərəfimdədir”. Ruslardan üz çevirib, üsyan ünləmi ucaltmış olan Borçalı elatı qorxudan Qarabağ'a köçməyə hazırlaşdı. Rus sərkərdəsi Lisaneviç bundan xəbər tutan kimi Borçalı'nın elbəyisi Nəsib bəy'lə birgə Borçalıları Ruslara tərəf çəkmək istədi. Sadaxlı'da keçirilən Borçalı ağa-bəyləriylə məşvərətdə də bu mövzuda söhbət getdi, sərdar Sisyanov soruşdu: “Bu qüvvətli dövlətə qarşı niyə üsyan etmişsiniz? Sizin sağlam düşüncənizi kim zəhərləmişdir?”. Borçalı ağa-bəyləri dinməyib susdular, istər-istəməz təslim oldular. Sərdar mərhəmətlə dilləndi: “Siz bu çirkin hərəkətləri və nalayiq işləri qanuna bələd olmadığınızdan görmüşsünüz, günahınızdan keçirəm. Lakin Gürcüstan'dan qarət etdiyiniz şeylərin hamısını sahiblərinə qaytarmalısınız”. Rusya'nın Qafqaz'dakı qrenader (seçmə) alayının bir bölüyü Dəmirçihasanlı'da, biri Güvəc'də, biri Bolnis'də, biri Misxana-Gümüşxana'da, biri Böyük Şüləver'də, biri Sadaxlı'da möhkəmləndirildi.

Bununla yanaşı, Borçalı, Qazax, Şəmşəddil və Pəmbək'dən qorunmaq üçün qoşun yığıldı. Sisyanovun 1804-cü il hesabatından: “Şahzadə Aleksandre Borçalı və Sarvan müsəlmanlarını yığıb, mənim gəlişimi gözləmədən Gürcüstan'ı ələ keçirmək istəyir”. Sisyanov həmən il verdiyi əmrlə Borçalılardan Tiflis'lə Gəncə və Pəmbək arasındakı yolları, körpüləri təhlükəsiz, saz saxlamağı tələb etdi, ağa-bəylərin, kətxudaların uşaqlarından amanatlar götürülüb, Tiflis'ə gətirildi, Ruslar əleyhinə bir hərəkət olacağı təqdirdə bu uşaqların Sibir'ə sürgün ediləcəyiylə hədələdilər. Bundan sonra ağa-bəylər və kətxudalar əhaliyi Ruslara təslim olmağa məcbur etdilər. Bu yandan da Fətəli şah'ın göstərişiylə təşkil olunan, Pirqulu xan Qacar'ın, şahzadə Aleksandr Mirzə'nin başçılıq etdikləri 6 minlik qoşuna həmən Borçalı, Qazax, Şəmşəddil, Pəmbək qoşunu da qoşuldu, bu qoşuna bütün Gürcüstan'ı (o sıradan İmeret'i də) Ruslardan təmizləmək amacı tapşırılmışdı. Aleksandre Orbeliani'nin xatirələrindən: “Aleksandr Mirzə iki yüzə yaxın Qarapapaq seçib Məngilis'ə, Kaxet'ə hücuma keçdi”. Qafqaz Arxeologiya Komissiyası'nın topladığı bəlgələrdən: “Borçalılar Rus rəisini qarət etdilər, arvadını əlindən aldılar və Pəmbəklilərə qoşuldular”.

Təbriz vəliəhdi Abbas Mirzə Qaçar'ın Ruslara qarşı mücadələsində ona Borçalılar da dəstək verdilər. 1807-ci ilə aid arxiv sənədinə görə, Abbas Mirzə layiqli xidmətini, xalqın rəğbətini nəzərə


downloaded from KitabYurdu.org

alaraq, Borçalı Məhəmməd bəy'i Ağçaqala, Loru, Pəmbək mahallarına elbəyi qoydu. General Tormasov sərdarlığa keçib Maşaver qırağında düşərgə qurandan sonra Osmanlı'yla barışdı, Qızılbaşlarla savaş isə kəsilmədi. Qızılbaşlar tərəfdə duran Aleksandre Mirzə'yə Borçalıların bir qismi tərəfkeş olub, ona 300 qoyun, 200 inək verdilər.

1809-cu il payızda Borçalı yenidən hərb səhnəsinə dönüşdü, Dmanis'də yeger alayı, Şüləver və Kolagir'də onun dayaq nöqtələri yerləşdirildi, Qızılbaşlar Rus vəkillərini yatırdılar, Fətəli şah'ın (Baba xan'ın) oğlu Məhəmmədəli gizlincə sərhədi keçib Ağçaqala tərəfdə Tülkütəpə deyilən yerdə çadır qurdu, bir yanı Dmanis, bir yanı Koda'yacan çapıb taladı, hədsiz zərərlər vurdu, Borçalılardan 170 ailəyi zorla əsir götürdü, onlardan yarısı qaçıb yurda gəldi, bir qismini də Ruslar hər əsirə bir çervon hesabıyla satın alıb geri qaytardılar, habelə iki min inək, beş mindən çox qoyun qaytarıldı. Bir il sonra da Qızılbaşlar İrəvanlı sərdar Hüseyn xan'ı Borçalı'ya hücuma göndərdilər. (Sözgəlişi: bu çağlar Borçalı'nın baş pristavı Bəylərdəki Bozqala'da iqamət qurmuş Dmitri Krılov, Borçalı baş murovu Mirmanoz Eristavi'ydi).

1810-da Türkiyə'dən və güney Azərbaycan'dan xaçpərəstləri Qafqaz'a köçürmək üçün qurulmuş komitənin xəttiylə Borçalı'ya da xeyli Erməni və Yunan gətirildi. 1813-də Rusya ilə İran arasında Gülüstan barışından sonra Borçalı'da da Rus hökmranlığı möhkəmləndi.

31 Mart 1818 tarixində Yermolov'un təşəbbüsüylə hazırlanan “Qazax, Şəmşəddil və Borçalı distansiyalarının ağaları haqqında Əsasnamə” təsdiq edilərək, qüvvəyə mindi. Əsasnaməylə ağa-bəylərin haqqları sınırlaşdırıldı. Onların vəzifəsi kəndlərdə asayişə göz qoymaqdan, kəndləri xarici basqınlardan qorumaqdan, oğru və quldurları tutmaqdan, kiçik mübahisələri çözməkdən, vergi yığımını təşkil etməkdən ibarətiydi və əhali onlara ev tikməyə, onların torpağını əkib-becərməyə. taxılını yığıb döyməkdən, xidməti işdən ötrü at verməyə, hərbi qəniməti onlarla bölüşməyə və onlara dövlət gəlirinin onda bir qismini ödəməyə borcluydu. Borçalı ağalarına 212 nəfər nökər verildi.

Koxalara, ağa-bəylərə yardımçı yasovullar seçildilər: Dəmirçi-hasanlı'da 7, Böyük Şüləver'də 4, Araplı, Sarvan, Qaracala, Qızılhacılı, Baş Muğanlı, Şınıx, Uzunlar və Xaçın'ın hərəsində 2,


downloaded from KitabYurdu.org

qalan kəndlərin hərəsində 1.

1819-da Borçalı'ya Tiflis qubernyası tərkibində əlahiddə mahal ("Tatar distansiyası") statusu verildi, Borçalı pristavı Tiflis mülki qubernatoruna tabe edildi, torpaqlar yerli ağa-bəylər arasında paylaşdırıldı, Qafqaz canişininin fərmanıyla Borçalı'nın aran elləri Loru dərəsinəcən Yadigaroğlu Sadıq bəy'ə bağışlandı.

Yermolov'un 1812-ci il göstərişinə əsasən, Ruslara sədaqət göstərmələrindən çəkindiklərinə görə Borçalılardan əsgər aparılmırdı, əvəzində əsgər pulu adlı vergi alınırdı. (Sözgəlişi: Yermolov yazırdı ki, Qazax, Borçalı, Şəmşəddil xalqı mərd, mübariz xalqdır, bir neçə dəfə bizə xəyanət etmişlər, ancaq onlardan faydalanmaq olar).

1824-də Abbas Mirzə yenidən qüvvə toplayıb hücuma keçdi. 1826-cı il yayında onun təşviqiylə İrəvanlı sərdar Hüseyn xan və onun qardaşı Həsən xan (Sarı Aslan) İran'a pənah aparmış şahzadə Aleksandre Mirzə'ylə birgə İrəvan'la Tiflis arasındakı yerləri tutdular, Borçalı'da da cövlan etdilər, Rus iqamətgahlarına od vurdular, Mirzə Adıgözəl bəy'in qeyd etdiyinə görə, hətta Borçalı mahalında Küncük altında yaşayan Almanları soyub çox əsirlər apardılar, Tiflis'i də götürməyə çəhd görsətdilər, ancaq Rus əsgərləri onları geri oturtdular. Bundan sonra Ruslar Borçalı'da daha da möhkəmlənməkdən ötrü əlavə tədbirlər gördülər, Dəmirçihasanlı'da yeni bölük, Zalqa körpüsü yaxınında Sarvanlı yüzbaşı Qasım Şərif oğlu'nun başçılığıyla yerli əhalidən atlı qarovul dəstəsi yerləşdirildi. Yermolov Borçalı ağa-bəylərinə, başçılarına və bütün əhalisinə müraciət edərək, Ruslara sadiq qalmağa, rəqibə qarşı çıxmağa çağırdı. Qafqaz çanişininin Borçalı baş pristavına 1827-ci il 22 mart göstərişiylə Borçalı ağa-bəyləri İran'la müharibəylə ilgili olaraq Tiflis'ə öz uşaqlarından amanatlar göndərdilər. 1827–1828 hərbində Rus qoşununa Borçalı'dan iki min inək-qoyun verilmişdi.

Abbas Mirzə'yə tərəf olan Borçalı–Qazax Qarapapaqlarının bəlirli qismi yurddan didərgin düşərək, İrəvan xanlığına qaçdı, 1827-də İrəvan da Rus işğalına uğrayandan sonra onlar orada da qala bilməyərək daha güneylərə səpələndilər, 1828-in əvvəllərində 800 ailə Borçalı Mehdi xan'ın başçılığıyla Güney Azərbaycan'a sığındılar, Abbas Mirzə'yə ildə 12 min tümən vermək və 400 atlı əsgər çıxarmaq şərtiylə Urmiya gölünün güney-günbatarındakı Uşnu əyalətinin Sulduz mahalı və yörələrində münbit torpaqlı ovalarda və


downloaded from KitabYurdu.org

yaylalarda yurdlaşdılar. Həmən Qarapapaqlar yeni kəndlərinə köhnə oymaqlarının adlarını verdilər – Tərkəvan, Saral, Araplı, Canəhmədli, Çəkərli, Ulaşlı. Təzə yurdu Borçalı Qulu xan yönətməyə başladı.

Rusya–Türkiyə savaşı qızışdı. Qaynaqlara görə, Rusya qoşunundakı müsəlman atlı alayında qeyri-nizami əsgəri dəstələrdən biri də Borçalılardan ibarətiydi və onlar Qazax, Şəmşəddil döyüşçüləriylə birlikdə vuruşurdular. Türkləri Rus qoşunu yendi. Yenə qaçanlar çox oldu, bir köç də Qars tərəflərə üz tutdu. Bu köçənlərin yerinə Borçalı'ya Ermənilər və Gürcülər gətirildilər. 1830-da vəbadan xeyli adam qırıldı.

1840-ci il 10 aprel qərarıyla Gürcüstan–İmeret qubernyası tərkibindəki Tiflis qəzası Borçalı məntəqəsinin bir qismini və Trialet torpaqlarını da əhatə etdi.

1859-da Ərcivan yaylaqlarına köçən ellər və Başkeçid'in bir neçə kəndi üzərində ayrıca idarə üsulu tətbiq olundu, bilavasitə Tiflis qəza rəisinə tabe sahə pristavı qoyuldu. Xatırladaq ki, Borçalı pristavı Ağcaqala'da otururdu, köç vaxtı o da dağlara köçürdü.

1855-dəki kimi, 1877–78-lərdə də Rus-Türk hərbiylə ilgili olaraq Borçalı'dan, Qazax'dan 3 mindən çox ailə – 25 min nəfərə yaxın Qarapapaq Rusya'ya tabe Qars vilayətinə qaçqın düşdü, onlar vilayətin Qars (63 kənd, 2301 ev), Ardahan (29 kənd, 690 ev), Kaqızman (7 kənd, 95 ev) mahallarında yeni binə qurdular. Qars vilayətində Borçalı'dan köçmüş 21.652 nəfər Qarapapaq qeydə alınmışdı və bu, əhalinin 15 faiziydi (Publisist K. Sadovski Qars'dakı Qarapapaqları öngörərək yazmışdır: “Bu xalqda narahat Borçalıların bütün ləyaqət və nöqsanları dəqiq əks olunur... Bu Qarapapaqlar... dostluğu qorumağı, təsdiqləməyi bacarırlar, qonaqpərvərdirlər, şəndirlər”).

1877 martın 25-də Borçalı məntəqəsinin torpaqlarıyla Trialet və Loru pristavlıqları birləşdirilərək, Şüləver müvəqqəti inzibati bölməsi, 1880 mayın 6-da həmən bölmə əsasında Tiflis qubernyası tərkibində Borçalı qəzası oluşduruldu, qəza da Borçalı, Loru, Yekaterinenfeld, Trialet nahiyələrinə və uyğun olaraq dörd pristavlığa, polis sahələrinə bölündü; ərazisinin böyüklüyünə və əhalisinin çoxluğuna görə birinci yeri Loru, sonra Trialet, sonra Borçalı, daha sonra Yekaterinenfeld nahiyələri tuturdu.

* *

Yüzil boyu Borçalı'ya dövlət adamlarının, alimlərin, səyyahların


downloaded from KitabYurdu.org

ilgisi böyük olmuşdur. Finlandya botaniki Xristian Steven, Peterburq Bilimlər Akademisi akademikləri Bartolome, Abix, Dübya, İngilis rəssamı, səyyahı Porter, dövlət xadimi, yazar Muravyov-Qarslı, Rus diplomatları Neqri, Freyqanq, yazar Qriboyedov, Rusya çarı I Nikolay, Qafqaz naibi Voronsov, Amerkan missioneri, şərqşünası Smis, Azərbaycan yazarı İsmayıl Bəy Qutqaşınlı, Rus hərbi publisistləri Filipov, Lyaxov və başqaları burada olub materyallar toplamışlar. 1850 aprelin ortalarında Voronsov Marabda'dan keçib, kəndləri gəzib, Sadaxlı'da ona nahar verilmiş, Polkovnikli kəndində müsafir olmuş, buradan Borçalı çökəyinin gözəlliyini seyr etmiş, Arıxlı-Kolayır körpüsündən keçmiş, onu bərpa etməyi əmr etmiş, Arıxlı'da kömrükxana yardımöısı, əvvəllər adıbəlli qaçaq olmuş Əliağa'nın və onun beş oğlunun qonağı olmuş, Kolayır yanındakı Ağqala'ya baş çəkmişdir. Voronsov'a gözləmöilik etmiş jurnalist, tarixçi Luka İsarlov'un (İsarlişvili'nin) qeydlərindən: "Alget çayından o yana güney-gündoğara doğru Moğol və Türkman tayfalarının məskənləri başlayır. Cingiz və Tamerlan döyüşçüləri varislərinin yaşadığı kəndlərdən birincisi Türkman tayfasının məskunlaşdığı Sarvan'dır, sonra Qırmızı Körpü'yəcən Moğolların varislərinin məskunlaşdığı Muğanlı, Görarxı, Ləcbəddin, Çələbi, Kəpənəkçi kəndləridir. Sonra Yaqublu, Ağbaba, İmirhasan, Qullar, Faxralı, Ormeşən və başqa kəndlər Osmanlı kökənlidirlər, Kür'ün sağ sahilindəki Dəmirçihasanlı kəndləri, sol sahilindəki Təhlə, Qaracalar, Xram'ın sağ sahilindəki Saraclı, başqa Kəpənəkçi Farsların yönətimi dönəminin tayfalarıdır"; "Qızılhacılı'dan Xram üstündəki körpüyə qədər qədim yola köhnə Kolagir yolu deyirlər"... İ. Qutqaşınlı'nın "Səfərnamə"sindən: "Sınıq Körpü'dən keçdikdə sağ tərəfində Dəmirçihasanlı mahalı, sol tərəfində Baydar, ondan bir az uzaq Borclu (Borçalı) mahalının kəndləri görükür. Özləri müsəlman olub, içlərində olan sultanları və xalqlarıyla Gürcüstan valilərinə tabe olubdurlar. Bəzi vaxt Gürcüstan'dan ayrı olub, gah Osmanlı və İran padşahlarına qulluq edibdilər"... Yüzilin sonları haqqında də qəza qlasnısı A. M. Arqutinski-Dolqorukovun "Borçalı Qəzası İqtisadiyyat və Ticarət Baxımından" kitabı, Gürcü jurnalisti, yazarı İlya Çavçavadze'nin "Borçalı Qəzası" məqaləsi, Rus hərbi icmalçıları Filipov'un, Lyaxov'un, professor Marr'ın, Gürcü alimləri A. Xaxanaşvili, E. Takaişvili, L. Musxelişvili, jurnalistlər A. Yeritsov, İlya Xoneli (Baxtadze), Stepan Borçaloeli'nin (Baydaşvili) məqalələri zən-


downloaded from KitabYurdu.org

gindir. (Sözgəlişi: S. Borçaloeli Borçalı sözünün Gürcücə bora – qurd və çala – küləş kəlmələindən oluşduğu fikrini bildirmişdir).

... Ərazi. Qaynaqlara görə, 1835-də Borçalı məntəqəsinin genəl sahəsi 6.000 kvadrat verstə (6.828 kv.km.), 1880-də Borçalı qəzasının sahəsi 5.417,2 kv. verstə (6.164,6 kv. km.), 1897-də 6.155,74 kv. verstə (7.005, 59 kv. km.) bərabəriydi.

... Əhali. 1832-də Borçalı məntəqəsində 145 kənd, 4.092 ev, 25.000 əhali vardı, 1886-da Borçalı qəzasında bu rəqəmlər uyğun olaraq 225-ə, 12.116-ya və 106.534-ə çatmışdı. 1897-də qəza əhalisinin sayı 128.877 nəfəriydi. Etnik tərkibcə, 1838-də Borçalı'da genəl əhali sayında Türklər 64 faizi, Ermənilər 24,5 faizi, Yunanlar 5,5 faizi, Gürcülər 4,8 faizi; 1880-li illərdə qəzada bizimkilər 27,4 faizi, ermiənilər 38,4 faizi, Yunanlar 19,7 faizi, Gürcülər 6,5 faizi, Ruslar 6,4 faizi, Almanlar 1,6 faizi tuturdular.

Bizimkilərin sayı mahalda və qəzada 1832-də 16.000, 1886-da 33.382 nəfər (18.367 kişi, 15.015 qadın) idi. 1875–1880-li illərdə bizimkilərdə artım 2.586 nəfər (1479 oğlan, 1107 qız) olmuşdu. Həmən çağlar Borçalı qəzasının 51 camaatından 18-də tam, daha dördündə qismən bizimkilər yaşayırdılar. Soydaşlarımız qəzanın Yekaterinenfeld nahiyəsində 71,8 faizi (13.973 nəfər əhalinin 10.028-i), Borçalı nahiyəsində 64,8 faizi (19.109 nəfərin 12.377-si), Trialet, Loru nahiyələrində də 20–30 faizi oluşdururdular.

1886-da qəzada bizimkilər kəndlər üzrə belə yaşayırdılar (ailə–nəfər): Qaçağan 118–596, Təkəli 14–62, Bərəhli 15–60, Xancığazlı 21–86, Çələbli-Yadigarlı 24–114, Quşçu 15–88, Ağməmmədli 67–291, Ulaşlı 25–80, Qasımlı 72–522, Bəytərəfçi 26–205, Canəhmədli 7–24, Baytalı 13–36, Abdallı 26–134, Sadaxlı 153–1041, Mamay 9–58, Xocornu 12–70, Ayrım (Axtala) 24–318, Körpülü 37–311, Ləmbəli 45–288, Aşağı Saral 55–223, Yuxarı Saral 39–114, Qayaxocalı 10–34, Axılləli 46–292, Seyidxoçalı 14–60, Dəmyə 11 – 57, Araplı 49–216, Axlı-Mahmudlu 28–125, Görarxı 12–70, Qırıxlı 30–341, Şamalı (Bəyazitli) 12–57, Qullar 52–294, İmir 45–230, Görarxı 259–1156, İvanbəyli (Dəvədoba) 100–558, Baydar 56–374, Böyük Bəylər 10–61, Bala Bəylər 8–51, Kürtlər 59–492, Baş Muğanlı 41–326, Ləcbəddin 49–346, Kültəpəli 22–243, Qəmbərli (Yağılca) 16–129, İlməzli 15–120, Qarakeşəli 12–130, Keşəli 54–406, Kosalı 127–813, Kəpənəkçi-Dəmirçihasanlı 49–360, Sarvan 299–1619, Qızılhacılı 237–1317, Candar 29–184, Kolayır 25–257, Bala Muğanlı


downloaded from KitabYurdu.org

23–168, Hallavar 25–128, Güləvən 7–39, Arıxlı 99–855, Hasanxocalı 22–162, Daştıoğullar 24–136, Əsmələr 3–13, Sisqala (Qızqala, Saaloğlu) 13–51, Saraclı 143–1026, Bala Qoşaisə 20–6972, Böyük Qaşaisə 54–432, Molla Əhmədli (Bala Kolayır) 11–63, İmirhasan 58–367, Şahbuzlu 11–49, Faxralı 137–860, Qoçulu (Cabala) 22-216, Bolnis-Kəpənəkçi 122–1192, Mığırlı 22 – 183, Abdallı 25–199, Qışlaq 16–77, Cəfərli 11–80, Şibilər 11–59, Müşəvən 9–49, Darbaz 55–532, Yuxarı Küləver 14–94, Aşağı Güləver 11–116, Zol-Güvəc 30–134, Bəytəkər 9–79, Ayorta 17–110, Ormeşən 16–205, Musapirilər 6–60, Qaradaş 20–162, Gibircik 4–29, Ciris 7–73, Hamamlı 40–325, Qədirqulu 6–64, Səfərli 13– 89, Dağətəyi (Məmişli) 19–131, Aşağı Oruzman 7–84, Yuxarı Oruzman 20–198, Bəzəkli 17–163, Canbaxça 32–335, Əngirivan 5–61, Qəmərli 50–304, Dunus 10 – 92, Ködəkdağ 16–171, Gəyliyən 18– 124, Böyük Qarabulaq 32–155, İkiqapılı (Qarabulaq) 8–37, Busuqala 11–149, Qağma 15–120, Qızılkilsə 14–211, Bala Qarabulaq 6–45, Tanzya (Tağılı) 6–69, Məryəmli (Arıxlı) 18–137, Yaqublu 18–198, Şüləver 8–85, Şindilər-Kəpənəkçi 15–178, Təhməzqulu 30–355, Yırğançay 60–440, İlməzli 51–402, Qamışlı 24–163, Ərcivan-Sarvan 100–768, Minasaz 5–29, Çulux (Qızılhacılı) 36–232, Təcis 45–372, Gödəklər 32–234, Şüləver camaatında 6–30, Başkeçiddə 1 – 4.

Habelə soydaşlarımız Tiflis qubernyasının başqa yerlərində də – Tiflis şəhərində, Tiflis, Telav, Sığnaq qəzalarında da yığcam yaşayırdılar. Tiflis'də bizimkilər 1835-də 723, 1865-də 1.523, 1876-da 2.310, 1886-da 1.275 nəfər idilər, onlar şəhərin əsasən Meydan, Müsəlman Qəbiristanı, Sololak, Bağlar məhəllələrində, İrakli küçəsində, Aleksandrovski bağı, Soldat bazarı tərəflərdə cəmləşmişdilər. Tiflis qəzasında 1880-də 9.438, 1886-da 6.437 nəfər soydaşımız qeydə alınmışdı, ən çox bizimkilər Qarayazı nahiyəsindəydilər – 1886-da burada əhalinin 94,6 faizə qədərini (4.754 nəfər) onlar oluşdururdular; kəndlər üzrə 1886-da Soğanlıq'da 40 ailə – 269 nəfər, Ağtəhlə'də 122– 1091, Qaratəhlə'də 67–655. Qaracalar'da 86–563, Zirbit'də 9–38. Gölkənd'də (Candar'da) 37–253, Qaratəpə'də 19–63, Qaçalar'da (Kosalı'da) 161–887, Qaçalar'da (Nazarlı'da) 109–684. Məşədabad'da 1–9, Kosalar'da (Qarakənd'də) 27–250. Musavən 3–15, Sərtcala-Muğanlı 99–637. Sığnaq qəzasında yurdlarımız Qaraçöp'də və Eldar düzündəki kəndlərimiziydi, 1886-da qəzada 3.220 nəfər soydaşımız varıydı,


downloaded from KitabYurdu.org

Eldar düzündəki Qanlıkənd'də 110 ev–655 nəfər, Lənətkənd'də 112–849, Qaraçöp'dəki Yor-Muğanlı kəndində 76–463, Düzəyrəm'də 19 – 130, Ləmbəli'də 116–799, Keşəli'də 67–366, Tüllər'də 31 – 260. Telav qəzasında 1880-də 1.599, 1869-da Qaracala kəndində 1372, Kəpənəkçi'də 242 nəfər soydaşımız siyahıya alınmışdı.

Ermənilər burada 1838-də 3.634, 1880-də 23.251, 1886-da 34.123 nəfəriydilər, onlar XVIII yüzildə Qarabağ'dan, XIX yüzilin otuzuncu illərində Ərzurum yörələrindən buraya köçürülmüşdülər, yüzilin sonlarına doğru Heydərbəy, Ağbat, Aşqala, Şüləver, Xaçınlı, Barmaqsız, Güllükərək, Cəlaloğlu, Dmanis, Güvəc, Gurtan, Mqart, Nərdivən, Opret, Uzunlar, Cöçkən, Şahnazar, Şınıx icmalarında məskənləşmişdilər.

Gürcülər də Borçalı'da 1838-də 669, 1886-da 3.864 nəfərdən ibarətiydilər, Güməret, Disix, Dmanis, Güvəç, Şüləver camaatlarında yaşayırdılar. (Sözgəlişi: İlya Çavçavadze "Borçalı Qəzası" məqaləsində bildirmişdir ki, bəzi kəndlərdə Gürcülər ana dillərini yadırğamışlar, ya da çoxu Gürcü dilində Azərbaycan sözləri işlədir, Azərbaycanca hər kəs bilir).

Yunanlar Borçalı'da 1838-də 764, 1886-da 17.815 nəfəri təşkil edirdilər, Borçalıların və Gürcülərin Berzenlər dedikləri, Türkcə danışan bu Yunanlar ən öncə XVIII yüzildə Osmanlı'dan gəlib Ağtala'da mis, gümüş yataqlarında işləyirdilər, hərbi olaylar üzündən Barmaqsızkörpü (Zalqa) tərəflərə köçmüşdülər, 1810, 1820, 1830-lu illərdə Ərzurum'dan, Anadolu'dan, Urmya'dan Ermənilərlə bərabər 505 Yunan ailəsi gətirilib, Ağbulaq'da və Zalqa'da yerləşdirildi.

12 qəsəbə və kənddəki Rusların sayı 1886-da 5.948 nəfərə çatırdı (çoxu zabit uşaqlarıydı).

Burada Almanların da yüz iyirmi illik tarixi olmuşdur, onlar XVIII yüzildə Yekaterina'nın manifestiylə Virtemberq krallığından, Lüksemburq'dan Rusya'ya, oradan XIX yüzilin başlarında Yelizavetpol (Gəncə) qəzasının Şəmkir dövlət torpaqlarına, oradan da Borçalı'ya gətirilərək, üzümçülüyü, maldarlığı, pendirçiliyi gəlişdirməkdən ötrü Yekaterinenfeld, Aleksandersilf qəsəbələrində, başqa yerlərdə məskunlaşdırılmışdılar. 1886-da 1.471 nəfəriydilər.

Borçalı'da 33 nəfər Yəhudi də qeydə alınmışdı.

1871-də Tiflis qubernyasının təsviri materialları məcmuəsində Mığırlı'dan başlayıb gündoğara doğru Kür'əçən uzanan Borçalı çökəyi haqqında oxuyuruq ki, burada 63 çoxadamlı kənd var, ikisi


downloaded from KitabYurdu.org

Erməni, qalanı Müsəlman kəndləridir.

... Toponimlər. Xəritələrdə, səyahətnamələrdə, statistik hesabatlarda, tarixi-publisistik əsərlərdəki yer-yurd adlarımızın çoxu indikilərlə, demək olar ki, eynidir. Bəzi fərqlər də nəzərə çarpır; örnəyin: Çələbli-Yadigarlı, Çələbli-Tarxanlı, Xutor-Nazarlı (Nəcbəddin yaxınında), Tərkivan, Mollacalı, Bərəhli (Qaçağan yaxınında), Gurçala, Saramqar, Canəhmədli, Bəyeli, Qayaqocalı, Şamalı, Çatıqran (Ulaşlı yaxınında), Şətikər, Kərliklər, Dağar (Qullar tərəfdə), Dəmirçilər (Qırıxlı tərəfdə), Yüzbaşılar, Ağvazalı, Əmirxanlı, Başaçıq, Saqqaltutan, Güvənciroba, Kültəpəli, Qurbağaoğlu (Kürüstü'ndə), Səmədli, Torpaqqala (Körarxı'da), Anaxatır (Arıxlı'yla bərabər, ondan yuxarıda çayın hər iki toyunda), Güləvən (Kolayır yanında), Muluxsalı, Ağkörpü (Saraclı yanında), Böyük Qəmərli, Varkətli, Qışlaq, Şibillər, Kövşənli, Şeytanlı, Cirəm, Gədikli (Bolnis'dən yuxarıda), Cərəyer, Qədirqulu, Mahmudlu, İkiqapılı Məryəmli, Qağma (Qarabulaq tərəfdə), Qələmçə, Qayıtmaz, Eyuboğlu, Sıxalnar, Səfikli, Ursevən, Dəmirbulaq, Zayılıstan, Əmbərli, Torpaqqala, Keyvanbulhasan, Karvansara (Güməret bölgəsində), Cincavad (Pinəzər vadisində), Comuşbatan, Leyləyeşən (Səfərli yanında), Vərzəgər, Molla Maxsudlu, Pərəncik, Əvəncik, Hacılıq (Hamamlı tərəfdə), İpnar, Saca, Maçkatala (Qızılhacılı tərəfdə) vb kəndlərimiz, el-obalarımız da olmuşdur. Yüzilin başlarında Şüləver tərəflərə Alağac da deyilmişdir; yer-yurdlarımız başqa biçimlərdə də adlandırılmışdır, örnəyin: Xancığazlı – Hacıqazılı, Qoçulu – Qapalı vəya Cabala, Kosalar – Kosalar-Kolayır, Bala Muğanlı – Kolayır Muğanlısı, Dəştoğullar – Ağbabalı, Hasanxocalı – Nəsibli, Marneuli – Künjürüt, Molla Əhmədli – Bala Kolayır, Sisqala – Saaloğlu, Rəncbər – Polkovnikli (Körpülü), Ambarovka – Əmbərli (Qəmbərli) vəya Yağılca, İvanbəyli – Dəvədamlar, Ağqula – Ağkənd, Abdallı – Haceli, Tanzya – Tağılı, Qaradaş – Snore, Kipricik – Sarıməmmədli, Samsevris – Şəmşöyü, Qarabulaq – Zurdakənd, Söyünkənd – Karvansaray, Maşavera – Qoruncuq, Mahmudlu – Şamdüyə, Dağ Qızılhacılısı – Nabələdəv vəya Təhməzqulu, Məmişli – Dağətəyi, Şindilər – Kəpənəkçi, Şüləver – Başkeçid (dağda), Lök-Candar – Leyləyeşən, Şüləver – Siyavurdya... kimi də verilmişdir. Sözgəlişi: Tiflis qubernyasının təsviri üçün materyallar məçmuəsinin 1870-ci il buraxılışında, başqa qaynaqlarda Marneuli'nin həm də Künjürüt qeyd edilməsi ilgincdir və Marneuli adıyla bağlı Sulxan-Saba Orbeliani'nin,


downloaded from KitabYurdu.org

Davit Çubinaşvili'nin Gürcücə şərab saxlanan yer anlamlı maran, bitki adı mərnə kəlmələrini bildirmələriylə yanaşı, qədim Türkcədə mərnənin Küncüt (vəya Qulançar) bitkisinə deyildiyini də, Marneuli'yi Mərnəli izahlamağı mümkün saydığımızı da xatırladırıq.

Xəritələrdə çay, dağ, dərə, təpə, qala, bulaq adlarımıza da rast gəlirik; örnəyin, yüzilin sonunadək Dəbəd çayının adı Borçalı getmişdir; yüzilin əvvəllərində Anaxatır da deyilən çay sonralar Xram adlandırılmışdır; Maşaver çayının bir adı Qorunçaq olmuşdur; İmir yaxınında Xram'a qarışan çay Çanaxçı çay, Trialet dağları Ərçivan sıra dağları kimi də xatırlanmışdır; qaynaqlardakı Başkeçid bölgəsində Şindilər, Lök, Keçid, Əyriqar, Əyridağ, Lələqar daqları, Armudlu (Oruzman, Sölüoğlu) gölü, Qarabulaq, Şamdüyə yaxud Mahmudlu, İstisu çayları, Sarp, Fındıq, Arxnal, Karvansaray, Hamam, Şindilər, Əngirəvan dərələri, Sərdar bulağı, Lələqar, Busuqala qalaları; Bolus'un yuxarısında Baltalı dağı, Qurdağzı keçidi, Ağkörpü vəya İtkörpü çayı, aşağıda Tapanlı dağları, Eldağ, Sağsağan çayı, Saxundərə, Qayalı dağ, Dəlikdaş qalası; Candar'dan yuxarıda Gorxana təpəsi; Yağılca dağlarında Ağburun zirvəsi; Ərcivan tərəfdə Çürüksu çayı; Kürüstü'ndə Bağlar, Söskürtlü cala; Xram (Ehram) boyunda Göytəpə, Kiliktəpə, Urustəpə, Çardaxtəpə, Qayarcala, Dəlikdağ, Surudaş, habelə Qarayazı'da Balatəpə, Nalbəndtəpə, Kəditəpə, Dağdağanqılıcı dağları, Təkətərvin başı, Qoşakol, Qaradüz, Uzundərə, Buzxana, Qışlaqlar... toponimlərimiz də ilgi doğurur. (Sözgəlişi: Tiflis qubernya statistik komitəsi əsərlərinin 1886-cı il birinci sayında Borçalı qəzasının ayrıca bütöv xəritəsi var).

... Və öndər, sayımlı adamlarımız. Qaynaqlarda adları çəkilənlərdən Borçalı'dan 71 Ləzgi quldurunun qovulmasında vəya öldürülməsində mərdlik görsətmiş Borçalı ağa-bəylərindən Əmircan ağa Həsən oğlu, Seyid bəy, Sarvan sakini Gülməmməd Şərif oğlu, Ləcbəddin ağası Əli, Qafqaz canişininin sərəncamıyla üzərində Rus imperatorunun şəkli olan qızıl medala layiq görülmüş Ağakişi bəy, Baydar Almaz sultan, Dəmirçihasanlı İsa sultan, şahzadə Aleksandre'nin Abbas Mirzə'yə məktublarını çatdıran Dəmirçihasanlı Xəlil Şəkərəli oğlu, Görarxı Əli Hümmət oğlu, Aleksandre Mirzə'yi izləməkdən ötrü Borçalılardan oluşan yüz atlı dəstəylə qarovulda dayanmış poruçik İlyaz ağa, həmən dəstədə olmuş Qaracalar kətxudası Mirzə Əli ağa, Ərcivan-Sarvan'da Bayramlı ağa nəsli,


downloaded from KitabYurdu.org

Qoşakilsə'də igid Əhməd, Cəfər yüzbaşı, Nəsib bəy, Məhəmməd bəy, Sarvan'dan yüzbaşı Şərif oğlu Qasım, İran'a köçərək Abbas Mirzə sarayında qulluğa girmiş Qarapapaq Nağı bəy və başqaları ehtiramla yada düşürlər. 1832-də Rusların Gürcüstan'dan qovulması qəsdində İrakli şahın oğlu, Borçalılarla birgə Səlmas'da yaşamış Aleksandre başda olmaqla onun təşkilatçılarına Borçalılardan Hasanxocalı kənd sakini 25 yaşlı Molla Zaman, onun silah dostları Hasanxocalı koxası Şıxəli, eyni kəndin və qonşu kəndlərin sakinləri Qurban Şəmşi oğlu, Qurban Sədi oğlu, Ənvər Allahverdi oğlu, Hacı Hüseyn oğlu, Kosa Mustafa, Görarxı Koxa Əli, Arıxlı Əli Eyyub oğlu, Hallavar Əlyar Qaraxan oğlu, Yekaterinenfeld sakini Mustafa Seyid Kazım oğlu, Kəpənəkçi Bayram Əli oğlu, Dmanis sakini Hümbət, Gülöyür Qədim Nağdəli oğlu, Abdallı İsmayıl, Bala Məhəmməd, Vəliəli Emin oğlu və başqalarının yaxın yardımçı olduqlarını arxiv bəlgələri təsdiqləyir. Həmən vaxtlar Borçalı Mustafa əfəndi, Gürcüstan şiələrinin baş axundu Tanrıverdi, 1850-də Voronsov'u Candar yaxınında qarşılamış Dəmirçihasanlı Əhməd sultan, Daşdəmir, Araplı Məhəmməd ağa, Sarvan İbrahimxəlil ağa, Kəpənəkçi Mustafa ağa, habelə yüzilin ikinci yarısında Qarayazı–Qaratəpə tərəfdə Sultan ağa, Müqəddəs Giorgi təqaüdçüsü Həsən bəy Ağalarov, Krım hərbində vuruşmuş Rus ordusunun zabitləri Alı ağa, Mustafa ağa Mürsəqulovlar, Tanrıverdi Novruzov, Borçalı müftüsü Hacı Həmid əfəndi, Sarvan sakini Molla Mustafa Talıbzadə, Nayvəli, Təhlə'dən Qarabağlı Allahverdi'yi... ehtiramla xatırlayırıq.

XIX yüzildə də Yadigaroğlular seçilmişdilər. 1820-li illərdə onlar öz zadəganlıq imtiyazlarını bərpa etməyə çalışdılar. 12 nəfər Gürcü əsilzadəsi tanıqlıq etdi ki, Ağacan və Mustafa bəy Yadigaroğlular öz qohumlarıyla mahiyətcə həqiqi zadəganlardır. Gürcüstan ali hökuməti genəl məclisinin Gürcü üzvləri bildirdilər ki, Yadigaroğlular'ın sələflərinin daşıdıqları naib-eşikağasıbaşı rütbesi tərcümədə general-adyutant canişini deməkdir, bu rütbə knyaz və zadəganlığa bərabəriydi. Bunlara əsaslanan Gürcüstan Zadəganları Deputat Məçlisi və sonra Gürcüstan ali hökumətinin genəl məclisi Yadigaroğlular'ın zadəgan ləyaqətini tanıdı, onları əsilzadə-zadəgan kitabının 5-ci hissəsinə daxil etməyi qərara aldı. Yadigaroğlulardan Tiflis sakinləri Ağacan (Ağhacan) və Mustafa bəy 1825-də Qafqaz canişini Yermolov'a ərizəylə müraciət edərək, onların zadəgan ləyaqətlərini təsdiqləməyi rica etdilər. Üstəlik, öz kökənlərini


downloaded from KitabYurdu.org

sübutdan ötrü 1723-də naib-eşikağasıbaşı Yadigaroğlu Bahadur bəyə arxları idarə etmək xüsusunda Gürçü valisi fərmanını, Yadigaroğlu Sadıq bəyə və onun oğullarına Sınıq Körpü əhalisini əmlakla birlikdə mülk kimi bağışlamaq haqqında şah İrakli'nin 1797-ci il fərmanını, Çələbli'də dörd kəndi Yadigaroğlulara bağışlamaq haqqında şah Giorgi'nin fərmanını əlavə etdilər. Yermolov hökumət senatına 1825-ci il 26 iyun tarixli raportuyla əsaslı səbəb olmadan Yadigaroğlulara zadəganlıq verməkdən imtina etdi. 1846-da Qafqaz canişininin uyğun fərmanıyla Yadigaroğluların zadəganlıq ləyaqətləri bərpa olunmuşdur, Sınıq Körpü'dən Loru dərəsinəcən torpaqlar onların ixtiyarına verildi. Bu nəslin adamları ictimai-hərbi fəaliyyətləriylə irəli çıxırdılar. Sənədlərdən Məhəmməd Sadıq Bəy'in ciddi ictimai-diplomatik görəvlər yerinə yetirdiyi, o cümlədən İrəvan hakimi Məhəmməd xanın Sisyanov'a məktubunu çatdırdığı, Mirzə Mehdi xan Astrabadi'nin “Tarixi-Nadiri” (“Çahannüma”) əsərini kitab halında tərtiblədiyi, Sadıq bəyin oğlu xanəndə Allahverdi'nin yüzilin başlarında Ruslara qarşı qiyamın əsas örgütçülərindən olduğu, Tiflis'dən İrəvan'a gizli məktublar apardığı, 1832-ci il qəsdində də əli olduğu aydınlaşır. Yadigaroğlulardan İsrafil bəy 1853 Kırım müharibəsi zamanı Borçalılardan min nəfərlik könüllü yığma süvari ovçu döyüşçülər yığaraq, ordu tərkibində ikinci süvari müsəlman briqadası oluşdurmuşdu, general-mayor rütbəsi almışdı. Mirzə Fətəli Axundzadə'ylə səmimi sirdaş olmuşlar. Mirzə Fətəli ölüm yatağında olanda başı üstündə İsrafil bəy dayanıbmış. Ağa bəy Yadigarov (1823–1892) nəinki təkcə Borçalı'nın Rusya'da ali təhsil almış ilk ziyalısı, eləcə də Peterburq universitəsinin ilk azərbaycanlı məzunuydu. Uşaq vaxtlarında onu yaxın qohumu, Peterburq universitəsinin professoru, kafedra müdürü Mirzə Cəfər Topçubaşov öz yanına aparmış, oxutmuşdur. 1837–1844 illərində Peterburq'da gimnazyada təhsil almış, 1844-də Mirzə Cəfər'in xahişinə, çarın razılığına əsasən və gimnazyanı birinci dərəcəylə bitirdiyinə görə Peterburq universitəsinə dövlət hesabına imtahansız qəbul olunmuşdur. 1848-də buraxılış imtahanlarını yüksək qiymətlərlə başa vurmuş, Şərq filologyası üzrə namizəd dərəcəsi almışdır. Peterburq'da qardaşı, imperatorun qoruçu əmələsinin fərmandehi İsrafil bəy'in yanında qalmışdır. Tiflis'ə gəlmiş, Qafqaz çanişininin sərəncamıyla onun dəftərxanasında masa rəisinin baş yardımçısı atanmışdır, 35 il qulluq etmişdir, qulluqdaykən bir çox önəmli


downloaded from KitabYurdu.org

məsələlərə baxmış, o sıradan 1861-də Şirək düzündə yaylayan Qaraçöp, Borçalı sakinlərinin ərizəsini olumlu həll etmişdir. Sonra canişin baş idarəsində çalışmışdır. 1865-də saray müşaviri rütbəsi almış, 1881-də dördüncü dərəcəli Vladimir ordeninə (xaçpərəst olmayanlara) layiq görülmüşdür. 1883-də bu idarə ləğv olunanda o da əməkliliyə ayrılmış, xalq məsləhətçisi kimi soydaşlarına fayda vermişdir. 1892-də vəba xəstəliyindən vəfat etmişdir. Ağa bəy Ərəb, Fars, Türk əlifbasının islahına, təkmilinə çalışmış, bu xüsusda məcmuə-kitabça da yazmış, M. F. Axundzadə'ylə məsləkdaş olmuşdur. İsrafil bəy kimi, Ağa bəy də Akaki Sereteli'ylə yaxın dostluq etmişdir.

Peterburq'da kadet korpusunda yüksək hərbi təhsil almış, Qafqaz ordusunda xidmət etmiş, general-mayor rütbəsinə layiq görülmüş, Rus-Türk müharibəsində Rus qoşununun rota fərmandehi olmuş Əsədulla bəy, xanəndə Allahverdi, İsrafil bəyin nəvəsi və adaşı, mayor rütbəsinəcən yüksəlmiş, Qafğaz süvari briqadasının tərkibində vuruşmuş, zabitlərə məxsus Giorgi ordeninin ikinci dərəcəsini almış, xeyriyyəçi kimi tanınmış, o sıradan Gəncə'dəki İmamzadə məscidinin künbəzini öz puluyla ucaltdırmış İsrafil bəy, Tiflis zadəganlar məclisi tərəfindən Borçalı'dan zadəganlar bankına üzv seçilmiş Sadıq bəy, mülkədar Həsən bəy, habelə Kərim bəy, Arçil bəy, Vəli bəy, David bəy və başqaları da Yadigaroğlular nəslinin yetirmələridir.

Borçalı qaçaqlarının şöhrətli adı mərdlik, hünər rəmzi kimi yaddaşlarımıza hopmuşdur.

Arıxlı Eyyub oğlu Əli ağa 1818-dən əvvəl və sonraların adıbəlli qaçağı olmuş, atlı qarovul dəstəsinə başçılıq etmişdir. Tarixin hafizəsindən: Ləzgilər və Ahısqa Türkləri Kartli'nin yuxarısına basqın etmiş xeyli Gürcüyü, o sıradan knyaz arvadı Maya'yı əsir götürmüşdülər. General Yermolov, Əli ağayı çağırmış, həmən xanımı Ahısqa paşasının hərəmxanasından azad edərsə, onun bütün əməllərini bağışlayacağına söz vermişdi. Əli ağa knyaz arvadını gətirib, Tiflis'də Yermolov'a təqdim etmişdi. O, 1826–1828 illərində İran'la hərbdə partizan həmləlıəriylə seçilmiş, sonra Tiflis türməsinə düşmüş, oradan qaçmış, yenidən qaçaqçılığa başlamış, Borçalı'da, Məngilis'də, Pəmbək'də, habelə Qars çivarlarında ad-san qazanmışdı. 1850-də Voronsov onun qonağı olmuş, jurnalist Luka İsarlişvili, Əli ağanın kömrükxana müdürü yardımçısı işlədiyini,


downloaded from KitabYurdu.org

ucaboy, dolubədənli, çəld, mərd və son dərəçə güclü olduğunu bildirmişdir.

Yüzilin birinci yarısında Qaçaq Həsən, Qaçaq Daşdəmir kimi mərdlərimiz də olmuşdur.

Borçalı Koroğlu'su – Qasımlı Səməd bəy Sibir'ə sürgün olunmuş, Həştərxan'da vaqonu qırmış, 18 dəlisiylə vətənə dönmüşdü. Yaponya Qafqaz'a hücum edəndə torpaq sevgisi üstün gəlmiş, yadellilərə qarşı vuruşmuş, onun üstündə atası Daşdəmir'i sürgün etmişdilər, sonra çar hökuməti onu bağışlamış, mülk vermişdi, ancaq yenə Səməd bəy hökumətlə barışmamış, İran'a, Türkiyə'yə keçmişdi. “Droeba” qəzetindən: “Səməd bəy gördü ki, Borçalı böyükdür, amma qayda-qanun yoxdur, ona görə də Borçalı'da vətəndaş hökuməti – haqq divanı qurdu, Qarağacdakı Çaxçax yaylağında oturub, suçluları cəzasına çatdırdı, zərərçəkənlərə pul verdi, hökumətə də, öz yurduna da yardımda bulundu. Borçalı pristavı Mamikonov'un xalqa zülmünün qarşısını aldı”. Səməd bəy əlində bir stəkan çay tutduğu halda xaincəsinə, paxıllıqla öldürülmüşdü. Aşıq Şenlik onunla dost olmuş, onu ətdən qala, aslan görümlü deyə vəsf etmişdi. Səməd bəygil doqquz qardaş olmuşlar, hamısı da güllədən-qurşundan ölmüşdür. Bu qardaşlardan Astan ağa da məşhurlaşmışdı. O, Rus-Yapon hərbində bir alayı xilas etmiş, buna görə Giorgi ordeni almış, yüz adamla Yaponların arxasına keçmiş, onları geri çəkilməyə vadar etmişdi. Sonralar yaylaq müdürü olmuş, qaçaqlıq vaxtı yaylaqda gecə atışmasında bilməyərəkdən öz qardaşı Əli ağayı güllə ilə vurmuşdu. Qardaşı ölümcül halda: – Heç nə istəmirəm, bircə qardaşım Astan ağa biləydi məni kim öldürdü, – deyəndə Astan ağa: – Əli, – deyə qışqırmış, qardaşı onun sinəsi üstündə gözlərini yummuşdu. Bundan sonra o, dəli kimi olmuşdu. Astan ağaya yanmış kösöy demişlər. Kor İsmayıl əvvəlcə Səməd bəyin dəstəsində olmuş, onunla bərabər Türkiyə'yə, Şamdıra'ya keçmişdi. Aşıq Şenlik'in “Koroğlu'dan çoxdur bunun ədası, Zaloğlu'dan artıq gələr sədası” deyə öydüyü Abdallı İsmayıl Borçalı'da qovğalar törətmiş, Kəşmir'i, Şiraz'ı vəlvələyə salmış, Osmailı'ya keçmiş, sonra doğma yurda qayıtmışdı. O, kasıb ailədən olmuş, qaynatası Görarxılı qaçaq Şeytan Süleyman'ın qisasını alaraq ağayı öldürdükdən sonra Tiflis'də qazamata salınmış, burada Astan ağayla dostlaşmışdı.

Mehralı bəy də əvvəlcə Səməd bəyin dəstəsində qaçaqlıq etmiş, sonralar Qars'da və bütün Anadolu'da igidliik, paşalıq zirvəsinə


downloaded from KitabYurdu.org

uçalmışdı. Yəmən'də şəhidliyə qovuşmuşdu. Əsil-nəsli Darvaz kəndindən olmuşdur (Mehralı bəy haqqında Valeh Hacılar dəyərli kitablar yazmışdır).

Hünərvər yurddaşlarımızdan Halay bəy Mürsəqulu ağa nəslindəniydi, gimnazyanın bir neçə sinfini oxumuşdu, Rus dilində çox yaxşı danışırmış, namərd düşmənini öldürdüyünə görə Sibir'ə sürgün olunmuş və oradan qaçıb gələndən sonra başına dəstə yığaraq, qaçaqlıq etmiş, daha sonralar Türkiyə'yə qaçmışdı. Rus bilim adamı, jurnalisti Vasil Veliçko Halay beydən tapdanmış ədalətin bərpaçısı, xalqa zülm edənlərin düşməni, şücaətli, mətanətli qaçaq kimi danışmışdır. Halay bəy bir dəfə dörd çaparla bərabər Borjom'da milyonçu Erməni qadınını şəxsən samovar qoyub, süfrə açıb, qulluq görsətməyə məcbur etmişdir. 1898-də Türkiyə'də Halay bəyi Astan ağa köhnə inciklіyə görə çadırda öldürmüşdür.

Arıxlı Koxalıların Hacıxəlil ağa da bu vaxtlar qaçaqlıq etmiş, mərd olmuşdu. O da Rus hökuməti əlindən Türkiyə'yə keçmişdi.

Kəpənəkçi Emin ağa müftü yanında üç il Quran'ı mükəmməl öyrənmişdi, Ağbulaq'da da zabit xanımından Rus dili dərsi almış, gimnazyayı yarımçıq qoymuş, orman akademyasını bitirmiş, Şüləver'də qəza idarəsində tərcüməçi işləmişdi. Öz həmkəndlisini öldürəndən sonra qaçaq düşmüşdü. Astan ağayla əvvəlcə aralarında inciklik olmuş, sonra dostlaşmışdılar. Emin ağa nəinki öz soydaşları, eləcə də Gürcülər arasında ədalət tərəfkeşi kimi tanınmışdı. Emin ağanın deyimidir: "Özgələr arxasınca sürünməkdənsə öz sunurumuz önündə getməyi həməşə əsvəl tutaq!"

... Etnoqrafik yaşam tərzimizi İlya Çavçavadze geniş açıqlamışdır. O, Borçalıların geyimlərini belə təsvir etmişdir “Kişinin geyimi – böyük züllə papaq qış, yay başlarına qoyurlar... Çuxa, arxalıq, eləçə də bunların üstündən kürk mütləqdir. Xəncər, enli şalvar və çarıq. Kimin də imkanı var, gümüş, bürünç kəmər, qılınc, tüfəng bağlayır. Onların içindən igid, boy-buxunlusu, yaxşı geyim-gecimlisi çoxdur. Arvadlar başlarına nazik çit örtürlər, üstündən alabəzək, ya qırmızı örtük bağlayırlar... Qadınlar arasında qəşəngini, girdəsifətlisini, qaragöz, qaraqaş, göyçək ağız-burunlusunu, sərv ağacı tək qəddi-qamətlisini, həyat eşqi aşıb-daşanını da tapmaq olar”, Adı keçən məqalədən: “Borçalılar silah gəzdirməyi çox xoşlayırlar. O, evdə acından ölər, amma özünə bir xəncər tapar, hələ bir oğluna da. Qılınc da, tüfəng də”; “Plovu lap çox sevirlər. Onların


downloaded from KitabYurdu.org

hazırladıqları plov yağda və şəkər-kişmiş içində üzür"; "Borçalı qəzası tərəfdə yaşayan Gürcülərin hamısı Tatar (Türk) dilində danışır". Abdulla Şaiq'in xatirələrindən: "Evləri yeraltı daxmalardan ibarət olan Sarban iri kəndlərdən sayılırdı. Daxmaların ortasında ocaq qalanır və damın ortasındakı baca tüstüyü zor-güclə çəkirdi. Daxma içindəki avadanlıq və adamların üst-başı his qoxuyurdu. Daşdan tikilmiş evlər çox az idi".

... Yüzilin ilk onillərində camaatı ağalar yönətirdilər, sonra hər kənddə bir, iki vəya üç koxa, onlara yardımçı olaraq da məhəllələr üzrə yasovullar (çauşlar) seçilirdi. Sonralar pristav və onun yardımçıları rəhbərlər oldular.

Yüzilin əvvəllərində kəndlərdən mülk kimi vergi toplanırdı. Örnəyin, Giorgi'nin qızı Dariya'nın mülkü olan Hasanxocalı'da 1803-də 80 manat pul, 20 manatlıq əşya, habelə taxıl, yulaf, arpa yığılmışdı. Şahqızı Mariya'nın mülkü Kolagir və Muğanlı kəndlərinin hərəsindən 100 manat toplanmışdı. Arıxlılar vergi vermirdilər, onlar qoşuna əsgər göndərirdilər. Genəlliklə, Borçalı'da bir neçə kəndi çıxmaq şərtiylə qalanları əsgər vermirdilər, ona görə hərbi töycü (əsgər pulu), əlavə olaraq, yay qarovul dəstəsinin, hökumət çaparlarının xərcini ödəmək üçün də pul verirdilər. 1860-lı illərədək Borçalı'da bizimkilərdən kəndlilərin çoxu xizanlar, yəni ağaların torpaqlarına sığınanlar, bir qismi də kəndli asılılığından azad tərxanlar, dövlətə təhkimli olanlarıydı. Sonra isə dövlət kəndliləri çoxluq təşkil etdi. 1885-də qəzada 6.321 ailə dövlət kəndlisi, 2.247 ailə razılaşma ilə ortaq kimi məskunlaşanlar, 1.774 ailə keçici mükəlləfiyyətlilər, 1.280 ailə xizan və icarədar, 496 ailə özəl mülkiyyətlilər, 164 ailə ruhani təbəqəsiydi.

... Borçalı torpağı öz münbitliyi, bar-bəhrəsiylə həməşə diqqəti çəkmişdir. İlya Çavçavadze: "Borçalı'nın torpağı bərəkətlidir, onun içi mürəkkəb kimi qaradır, eyni yer hər il əkildikcə daha artıq məhsul verir". Qəzada torpaqdan istifadənin ən çox yayılmış biçimi icmaydı. Torpağın paylaşdırılmasının üsullarından başlıca yeri "ampa-çərək" (həmkar-çərək) adlanan, yəni hərəyə işinə görə yer verilməsini öngörən bərabər pay düzəniydi. Otlaqlar camaatın genəl istifadəsindəydi. Ən çox taxıl, arpa, buğda, darı, çəltik, duyü, kartof, yulaf, pərinc (buğda növü) becərilirdi, üzümçülük, bostançılıq, meyvəçilik gəlişdirilirdi. Yüzilin lap əvvəllərində Kolagir'də yaxşı tut bağı salınmışdı, ildə yüz manatlıq ipək istehsal olunurdu.


downloaded from KitabYurdu.org

Ləcbəddin'də də barama qurdu bəslənən saraylar tikilmişdi. 1888-də Araplı'da, Axlımahmudlu'da, Baytallı'da, Saral'da, Seyidxocalı'da, Şamalı'da, Şüləver'də 139 fut ipək hazırlanmışdı. Eyni il Borçalı'da 13.000 çərək payızlıq buğda, 4.500 çərək yazlıq buğda, 300 çərək yulaf, 2.800 çərək arpa, 1.600 çərək kartof... əkilmişdi, 397 desyatin bostan (qarpız, yemiş, xiyar, soğan), 20 desyatin bağ varıydı, 155.306 desyatin ormanıydı. Tiflis qarpız-yemişlə buradakı bağ-bostanlar sayəsində təmin olunurdu. 1863-ə qədər pambıq, 1890-lı illərəcən tütün əkilmiş, sonra dayandırılmışdı. Borçalı buğdası bütün Qafqaz'da, İran'da, Türkiyə'də məşhuruydu. Borçalı'nın "Tərəkəmə" çörəyi Tiflis'də ən baha qiymətə (20 qəpiyə) satılırdı. "Güney Qafqaz dövlət kəndlilərinin iqtisadi durumunu öyrənmək üçün materyallar" məcmuəsində (1885) belə məsəl də xatırlanmışdır: "Borçalı çökəyiiin çörəyi şah süfrəsinə yarayır". Burada uzüm növlərindən ən çox "Borçalı", "Sarısaçaq", "Çaqqalboğan", "Lək" yayılmışdı. "Borçalı" adlı üzüm tənəyinin salxımı iri və dolu, yumru, ətli, bənövşəyi-qırmızı qabıqlı, yumşaqıydı. Burada həmçinin qızıl boyaqotu (indiqo), zəfəran (şafran), başqa tropik bitkilər də bitirdi. Ormanlarımız şam, çinar, fındıq, palıd, cökə, ağçaqovaq, ağcaqayın, toz ağacı, vələs, dəmirqara və başqa ağaclarla zəngin olmuşdur. Ləlvər, Başkeçid dağlarının doğal dərman bitkilərinin sədası çox yayılıbmış. Əlverişli doğal ortam, biçənəklərin, otlaqların bolluğu burada heyvandarlığın gəlişimini də şərtləndirirdi. "İveria" qəzetindəki "Borçalı qəzası" məqaləsindən: "Xalqın varı mal-qoyundur. Hər ailənin on başdan yüzə qədər varıdır – öküzü, camışı, atı, eşşəyi, qoyunu. Bəzisinin at ilxısı da var... Yağlı qoyun ətini ləzzətlə yeyirlər”. 1838-də Borçalı'da 35 min iribuynuzlu, 600 min xırdabuynuzlu heyvan, 4 min at qeydə alınmışdı. Yerli inək cinsi "Tərəkəmə" adlanırdı, yüzilin sonlarına yaxın belə inəklər çoxalmış, 48 min başı keçmişdi. Borçalı ellərindən, ən çox da Sarvan, Görarxı, Qızılhacılı, Dəmirçihasanlı'dan hər il 25–30 min pud yun verilirdi, Tuş qoyunuyla Borçalı "Tərəkəmə" qoyununun qarışığından alınan yarımbəyaz yuna bazarda “dönmə” deyilirdi. 1870-də Borçalı'da mindən çox dəvə saxlanırdı, o cümlədən Yırğançay'da 400, Dəmirçihasanlı'da 180, Görarxı'da 60 dəvə varıydı, dəvələrdən yükdaşıma. qoşqu məqsədiylə istifadə olunurdu, həmçinin onun südündən qımız, yağ, pendir hazırlanırdı, yunu da işə yarayırdı. Arıçılıq da yayılmışdı, yüzilin sonlarında 6.585 pətək bal verilirdi.



downloaded from KitabYurdu.org

1899-da Borçalı'da 8.600 inək, 7.600 camış, 140.000 qoyun, 2.300 keçi, habelə çoxlu at, eşşək, qatır varıydı. Həmən il Tiflis'dəki Qafqaz sərgisində Borçalı "Tərəkəmə" inəyinin südlülüyüylə, möhkəmliyiylə seçildiyi qeyd olunmuşdu, habelə Qızılhacılı kəndindən Əmrah Qurban oğlunun gətirdiyi "qurut" özəlliklə dəyərləndirilmişdi. Başkeçid'də alaçıx dəyələrini Platon İoseliani "Tamerlan'ın və Cingizxan'ın ordusuna" bənzətmişdi.

Borçalı'da iki balıq ovu məntəqəsi varıydı – biri Borçalı-Dəvəd, biri də Ehram çaylarında; birinci ildə 177 manat, ikincisi 120 manat gümüş pul iltizam (dövlətə xeyir) verirdi. Arıxlı ilə Kolayır arasında piçix (piçxuli, xramuli), sazan, alabalıq tutulur, qızardılır, Tiflis'ə satışa aparılırdı. Qaynaqlara görə, hələ VIII yüzildən əvvəl də bu tərəflərdə arxlar, kanallar varıymış. 1885-dən yeni arxlar çəkilişi başlandı. Həmən il yazdan payıza kimi tavad Svimon Sereteli'nin kəndindən Ləcbəddin'ədək 20–25 verst, Arıxlı'dan Görarxı'yadək 16 verst uzunluğunda arxlar təzələndi, arxların dərinliyi bir sajından artıqıydı.

Borçalı'da dörd pendir karxanası açıldı, burada əsasən Almanlar işləyirdilər. Bunlardan ən böyüyü Mahmudlu (Şamdüyə) kəndindəki Kuçenbax'ın fermasıydı, onun məhsulu qıraq ölkələrə də göndərilirdi. Yüzilin sonlarında Borçalı'da ildə iki min pud pendir (çoxu İsveçrə, bir qismi Holland pendiri), 300 pud yağ (o cümlədən 250 pud kərə yağı) ürətilirdi. Habelə Başkeçid'də kətan toxumundan yağ hazırlayan zavod, Yekaterinenfeld'də, İmirhasan'da, Kolagir'də, Ləmbəli'də, Sadaxlı'da uzüm-meyvə suları, bəhməz, şərab zavodları varıydı.

... Borçalı doğal sərvətləri – qızılı, gümüşü, filizi, qurğuşunu, manqanı, mərməri, inşaat daşıyla şöhrət qazanmışdı. Allahverdi misxanasında ildə 130 min puddan çox, Şamlıq'da 11 min puda yaxın, Çatax çuqun əritmə karxanasında 85 min puddan artıq filiz hasil edilirdi, mis və dəmir filizi Tiflis'ə, habelə Bakı qubernyasındakı Lahıc mis ayırma zavoduna göndərilirdi. Qəzetlər xəbər verirdi ki, Borçalı'da neft tapılıb, tezliklə Oldenberq'in başçılığıyla quyular qazılacaq və hər gün buradan ən azı bir milyon pud neft çıxarılacağı gözlənilir ("Snobis Purtseli", 1896, 26 oktyabr). Borçalı'ya xaricdən kapitalistlər axışırdılar. Səfərli yaxınındakı şüşə karxanası, Ormeşən yaxınındakı əhəng zavodu, ayrı-ayrı yerlərdəki dulusçuluq, kirəmit, kərpic, dəri zavodları, Sarvan'dakı, Muğanlı'dakı, Qoşakilsə'dəki boyaqxanalar yerli xammal əsasında çalışırdılar. Əsrin axırlarında


downloaded from KitabYurdu.org

Alman, Rus, İsveç biliciləri axtarış apararaq, Axtala'da, Çatax yanındakı Əbülmusa adlanan yerdə, habelə Başkeçid, Ehram, Alget boylarında qızıl səpintiləri aşkarlamışdılar. Platon İoseliani'nin tanıqlığına görə, Ehram çayında ən yaxşı dəyirman daşı əldə olunurmuş. Bolnis vadisinin, Dəvəd çayının inşaat daşı, Şüləver'in, Sadaxlı'nın mərmərə oxşar əhəng daşı, Başkeçid'in manqanı da məşhurlaşmışdı.

Mədən sularından Yekaterinenfeld'ə çatmamış Sunulu təpədə Turş bulağın dörd sajın hündürlükdən tökülən karbon qazlı suyu çox manşırıydı.

... Borçalı ormanlarında ceyran, qaz, ördək, dovşan, kəklik, qırqovul, turac, çaylarda qızılbalıq, naqqa, qarabalıq, alabalıq, şirbit vs ovlanırdı.

... Tiflis–İrəvan–Qars dəmiryolunun çəkilişi Borçalı üçün böyük önəm kəsb elədi. Qafqaz canişininin təsdiqlədiyi sivil idarənin dövlət şosse yollarından ikisi Borçalı'dan gedirdi; biri – Lök dağından gündoğarda Sarvan'dan, Şüləver'dən keçib Borçalı çayı boyunca Ağzıböyük (Ağzıbörü) aşırımınacan uzanan, ikincisi – Lökdən günbatarda Sarvan'dan, Yekaterinenfeld'dən keçib Qoruncaq (Maşaver) çayı boyunca Cəlaloğlu'yaçan uzanan yoluydu və bu yolların bütövlükdə Tiflis qubernyasından ötrü birinci dərəcəli iqtisadi-ticarət önəmi varıydı. 1885-də Borçalı'da 79 çörək mağazası, 174 dükan işləyirdi, yüzilin lap axırlarında genəl ticarət nöqtələrinin sayı 233-ə çatmışdı və bunun 68-i manufaktura dükanıydı, 114-ü qalantereya, xırdavat, baqqal dükanları, 51-i çayxanalarıydı. 1869-dan Sarvan'dakı böyük həftəbazarda alış-veriş gedirdi. Təbriz'lə, Qars'la ticarət ilişkiləri genişlənmişdi.

Sınıq Körpü, Dəmirçihasanlı ellərini birləşdirən ağac körpü, Ehram üstündəki Kolayır körpüsü, Alget üstündəki Görünküt körpüsü və başqa körpülərin ticarət, genəlliklə, əhalinin iqtisadi durumundakı rolu böyüküydü. Borçalıların xahişinə əsasən knyaz Voronsov, Ehram üzərində qədim daş körpünün bərpasına icazə vermişdi və Borçalıların qatılımıyla bərpa işləri 1850-də başlanmış, 1854 noyabrında başa çatmışdı.

... Yüzilin sonlarına yaxın Borçalı'da 16 məscid varıydı, Sarvan'da Axund Mustafa Süleyman oğlu və bir çox başqaları sayımlı din adamlarıydı.

... 1827-də Borçalı'da bizimkilər üçün qəza məktəbləri açmaq


downloaded from KitabYurdu.org

təşəbbüsü irəli sürülmüşdü. 1828-də Tiflis'də açılan amanatlar məktəbində Borçalı ağalarının girov gətirilmiş uşaqları da (o sıradan Mürsəqulu ağanın oğlu Allahverdi ağa vb) oxuyurdular. N. Muravyov-Qarslı'nın səyahətnaməsində adı ehtiramla çəkilən Tiflis'də 1817-də Türk dili müəllimi Mirzə Babacan'ın, 1833-də Tiflis'də gimnazya müəllimi olmuş Mirzə Abdulla Vəzirov'un əsli Borçalı'danıydı. Uşaq yaşlarından Tiflis'də yaşamış, sonra Peterburq'da professor kimi məşhurlaşmış Mirzə Cəfər Topçubaşov'un anası Borçalı Yadigaroğlular nəslindəniydi. Tiflis'də açılan Əliyyə (şiə) və Öməriyyə (sünnü) məktəblərində Borçalı uşaqları da oxuyurdular. Əsrin son çərəyində Qızılhacılı'da, Sarvan'da açılan dünyəvi məktəblər Borçalı'da maarifin gəlişimində təkan oldu. Qori seminaryasının Borçalı yetirmələri Abbas və Hüseyn Minasazlılar, Səməd bəy Hacıəlizadə, Aslan İsmayılov, Paşa bəy Hüseynov, Nəriman Nərimanov, Əlimirzə Nərimanov, Mirzə Rza Əlizadə, Məmməd Məmmədov və başqaları ellərimizdə maarif ziyasını şöləndirdilər. Nəriman Nərimanov: “Bəşərin geridə qalmış qisminə bacardığım qədər yardım etmək fikrim ilk dəfə burada – Qızılhaçılı'da yaranmışdır”. 1877-də Tiflis qubernyasında 76 məscid məktəbi varıydı, 1890-da onların sayı 111-ə çatmışdı, 1880-də mədrəsə açmağa təşəbbüs görsədilmişdi.

Borçalı'da əlyazı kitabları da meydana çıxdı, Bakı'da Əlyazıları İnstitutu'nda saxlanan 1818-ci (h. 1234) ildə Məhəmməd Sadıq bəy Yadigaroğlu-Tiflisi'nin tərtib etdiyi Mirzə Mehdi xan Astrabadi'nin “Tarixi-Nadiri” (“Cahannüma”) əsəri və 1838-ci (h. 1254) ildə Abbas Molla İsmayıl oğlu'nun Borçalı'da tərtib etdiyi (Farsca şikəstə-nəstəliq xəttiylə) əlyazı kitabları, habelə Gürcüstan Əlyazıları İnstitutu'nda saxlanan XIX yüzilə aid Borçalı'da Əmirxaslı kəndində köçürülmüş XVI əsr müəllifi Məhyəddin Məhəmməd Bərdəli'nin “Hədaiq” əsəri... önəmlidir.

... Mədəniyyətdən danışanda öncə memarlığın gəlişmiş olduğunu qeyd etməliyik. Tiflis'dəki bişmiş qırmızı kərpicdən tikilmiş, məsciddən, onun ibadət salonundan, otaqlardan, hündür minarədən ibarət olmuş, genəl quruluşu və xaricə açılan beştağ-eyvanları, geniş ibadət salonu memarlıq çözümünə görə diqqəti cəlb etmiş qədim məsçiddə, habelə XVII yüzildə Osmanlıların tikdikləri Cümə məscidində XIX yüzilin axır onillərində bərpa işləri aparılmış, Cümə məscidində milliyətcə Kazan Tatarlarından olan müftü minarə


downloaded from KitabYurdu.org

ucaltmışdı. Borçalı'nın Görarxı, Arıxlı, Sadaxlı, Saral və başqa kəndlərindəki məsçid binaları da memarlıq baxımından valehedicidir. Mədəniyyət abidələrimizdən biri olan, Bəylər kəndi yaxınındakı Bozqala'yı 1816-da seyr etmiş Rus generalı N. Muravyov-Qarslı'nın təsviri: “Qala uca qayada, kəndlər və bağlar düzümlənmiş gen düzənlikdə qərar tutmuşdur. Daş döşənmiş nazik əyri-üyrü cığır yüksək sürüşkən daş pillələrlə qayaya, qalaya qalxır”. Böyük Muğanlı kənd qəbiristanında 1817-ci (h. 1233) ildə vəfat etmiş Kazım xan oğlu Məhəmməd və Əli qardaşlarının başdaşında iki adam şəkli yonulmuş, habelə həmən hərimdə yonma daşdan papaq fiquru, at, yüyən, üzəngi təsvirləri var. Borçalı'nın müqəddəs məzar daşlarındakı əski yazıları oxumuş səriştəli etnoqraf-alim Məşədixanım Nemətova'ya təşəkkür duyğularıyla qeyd edək ki, Böyük Muğanlı qəbristanındakı və başqa məzarlıqlardakı başdaşlarında Quran ayələrinin, digər bilgilərin yazılışı burada xəttatlığın da gəlişdiyini görsədir. Araplı türbələrində şeirlə yazı da ilgincdir.

Yadigaroğlulardan Allahverdi xanəndəliyi davam etdirmişdi. 1829-da A. S. Puşkin Ərzurum'a gedərkən yolüstü iki həftə Tiflis'də qaldığı vaxt Ortacala bağlarında Allahverdi də çalıb oxumuşdu. Nikoloz Barataşvili'nin atası Meliton ona şeir həsr etmiş, Gürcü liriki Qriqol Orbeliani Allahverdi'yi “qoca bülbül” adlandırmışdı.

Borçalı ellərində aşıq və el şairlərindən Xəstə Hasan, Aşıq Nuru, Aşıq Şenlik, Aşıq Oruç, Qul Qarani, Aşıq İsmayıl, Dost Pirməmməd, Alxas Ağa, Dollu Abuzər, Quşçu İbrahim, Abbasəli, Soğanlıq Abbas, Şikəstə Pəri, Aşıq Qəhrəman, Dollu Aşıq Mustafa, Qara Zülal, Molla Xalis..., Tiflis'də Kazım, Divanə... yaşayıb yaratmışdılar. Atası Sarvan'da Mustafa Süleyman oğlu, anası ata tərəfdən Sarvan'da Bayramlılardan, ana tərəfdən Dəmirçihasanlı'da Əminlilərdən olan Abdulla Şaiq də Borçalı ədəbi mühitinin yetirməsiydi.

Bu çağlar Borçalı həyatı Nəriman Nərimanov'un, Abdulla Şaiq'in, əslən Borçalı'nın Serakvi (Zirəkli) kəndindən Mixeil Cavaxişvili'nin... əsərlərində bədii əksini tapmışdır.

1886-da Tiflis'dəki Qafqaz yun sərgisində Sarvan'dan gətirilmiş Borçalı qumral qoyunuyla Tuş qoyununun qarışığından alınan “dönmə” adlı yun, 1889-da yenə belə səpgili sərgidə Borçalı sakini İsmayıl Mürşüd oğlunun gətirdiyi ipəkdən toxunma cecim yüksək dəyərləndirilərək, gümüş mükafata layiq görülmüşdü... XIX yüzildə


downloaded from KitabYurdu.org

də Borçalı xalılarının, xalçalarının bəzək motivlərində mifik izlər güclüydü, stilizə olunmuş təsvirlər üstünüydü. Əsasən Qızılhacılı'da toxunmuş “Ziynətnişan” vəya “Zeyvənişan” çeşnili xalı, Lətif Kərimov'un zənnincə, Borçalı Qarapapaqlarının adıyla bağlı olan “Papaqlı” xalıları, Borçalı'da toxunmuş və Azərbayçan İncəsənət Muzeyi'ndə saxlaian “Qaraqoyunlu” xalısının çeşniləri, “Faxralı”, “Qaraçöp”, “Qarayazı”, “Qaçağan”, “Qurbağalı”, “Ləmbəli”, “Dəmirçihasanlı”... xalıları hər "inçə naxışda, ilmə-düyündə, əriş-arxaçda nənələrimizin ürəklərinin hərarətini, arzu-istəklərinin işığını, ahıllarımızın dağ təmkinini, oğul-qızlarımızın qeyrətini, bu torpağın gül-çiçəyinin ətrini, saf sularının büllurluğunu yaşadır.


downloaded from KitabYurdu.org

▪

# İYİRMİNCİ YÜZİL

Yüzilin ilk illərində Borçalı qəzasına Türkiyə'dən, İran'dan Ermənilər, Yunanlar, qubernyanın başqa bölgələrindən də Gürcülər gətirilib yerləşdirildilər. Örnəyin, Kaspi'dən Apsiauri, Xevsuret'dən Tsiklauri, Raca'dan Xomasuridze, Burduladze, Metreveli, Lobjanidze, Sxirtladze, Davlianidze, Pşav'dan Miqriauli, Xizanaşvili, Cavaxet'dən Aspanadze, Kaxet'dən Zirakaşvili... nəsilləri gəlib Marabda, Gümərət, Məcevan, Cavax kəndlərində məskənləşdilər.

1905-də Erməni–Müsəlman çatışması Borçalı'ya da sirayət etdi, özəl qatışıq komissiya oluşduruldu, noyabrın 21–22-də Tiflis'in Meydan, Hallavar məhəllələrində Erməni–Müsəlman toqquşmasında 34 adam öldü, 55 adam yaralandı. Borçalı ağsaqqalları Kəpənəkçi'dən Emin ağa, Faxralı'dan Oruc ağa, habelə Gürcü xeyriyyə cəmiyyətinin xəttiylə knyaz Çavçavadze və başqaları Bolnis-Xaçınlı'da, Bolnis-Kəpənəkçi'də, Şüləver'də, Başkeçid'də, Bosleb'də... qırğını dayandırdılar.

Bu vaxtlar qəza mərkəzi Şüləver'iydi. Yerli (zemstvo) yönətim üsulunun tətbiqinə dair 1909 oktyabr müşavirəsində Dəmirçihasanlı'dan Osman Sadıq oğlu iştirak etdi. Borçalı'da 46 qlasnı (məclis üzvü) seçildi, bunun 40 nəfəri qəza və nahiyə məclislərində, qalanı quberniya və vilayət məclislərində təmsil olundu. Qəzada 6 zemstvo birimi oluşduruldu.

1913-də Qafqaz Canişin Şurası'nın hazırladığı var olan qubernyaların sərhədlərində dəyişikliklər layihəsində etnik prinsiplərə görə Borçalı qəzasının güney-günbatar qismini İrəvan quberniyasına, quzey-gündoğar budağını Yelizavetpol (Gəncə) qubernyasına birləşdirmək ön görülürdü. Eyni il noyabrın 6-da və dekabrın 18-də Mehdi ağa Sultanov'un, Əhmədmirzə Məmməd oğlu'nun, Şamil Abbas oğlu'nun, Əbdürrəhman Qayıbov'un da daxil olduqları özəl komissiya bu səmtin iqtisadi baxımdan daha çox Tiflis'lə ilişkidə olduğunu diqqətə alaraq, “Borçalı qəzasını Tiflis qubernyasının tərkibindən ayırmağın arzuedilməzliyinə” yekdilliklə tərəf çıxdı. 1914 yanvarın 24-də Tiflis Qubernya Şurası bu qərarı təsdiqlədi.

1917-də Qafqaz'da yenidən sərhəd bölgüsü məsələsi qalxdı.


downloaded from KitabYurdu.org

Ermənilər Borçalı'nın Loru nahiyəsi və başqa ərazilər hesabına Gümrü (Aleksandropol) qubernyası oluşdurmaq xəyalına düşdülər. Həmən il Borçalı qəza komissarı Əbdürrəhim Bəy Haqverdiyev'in başqanlığıyla Loru nahiyəsi bütün camaatları təmsilçilərinin qurultayı çağırıldı və qərara alındı: “Tiflis qubernyası hüdudlarından heç vəchlə ayrılmamalı və yeni oluşdurulan Aleksandropol qubernyasına birləşməməli”. Noyabrın 10-da Tiflis'də əlahiddə müşavirə də Borçalı'nın parçalanması əleyhinə qətnamə qəbul etdi.

Rus əsgərləri Türkiyə'dən qayıdarkən 1918 ili fevralın 18-də Borçalı bəylərindən Mursaqulların Almaz ağa, Cöyrü oğlu Qara başlarına dəstə yığıb, Sandar stansyasında şalonlara həmlə etdilər, silahlar ələ keçirmək istədilər. Xalq dilində “Şalon qırğını” olaraq bilinən bu atışmada yüzlərcə yurddaşımız öldürüldü, bir çoxu zindanlara yollandı. Arçil Yadigarov Rus əsgərlərindən camaatı qurtardı. Cöyrü oğlu Qara qaça bildi. Öldürülənlər arasında Mursaqullardan Almaz ağa, Əbzər ağa, İsmayıl ağa, leytenant Abdulla ağa da varıydı.

1918-in mayında güney Qafqazda üç xalq cümhuriyyətinin istiqlal bəyannamələri oxunandan sonra Borçalı üç çümhuriyyət arasında son dərəcə mürəkkəb mübahisəli əraziyə çevrildi. Gürcüstandakı bütün müsəlmanlar adından Borçalı'nın sünnü qazısı Yusif əfəndi Allahyarzadə, şiə qazısı Məhəmməd Şeyx Məhəmmədəli, Borçalı xeyriyyə cəmiyyətinin sədri Qurbanəli əfəndi Xəlilzadə və başqaları müraciət qəbul edərək, “mərkəzi üsul-idarə Tiflis şəhərində olmaqla Türkiyə'nin himayədarlığı altında “Qarapapaq” adıyla yarımmüstəqil xanlıq kimi tanınması” haqqında məsələ qaldırdılar. Borçalı məsələsi haqqında Gürcüstan'la Azərbaycan arasında yazışmalar bir yana qaldı, üçüncü dövlətin – Ermənistan'ın iddiaları gücləndi. Erməni siyasətbazları fitnələrə əl atdılar, qəfildən Ermənistan qoşun hissələri Gürcüstan'ın sərhəd postlarına basqına keçdilər. Gürcüstan'ın ultimatumuna məhəl qoymayan Erməni qoşunu hücumu davam etdirdi. Şüləver–Sadaxlı qisminin döyüş meydanına çevrilməsiylə ilgili olaraq qəza inzibati idarələri Şüləver'dən Yekaterinenfeld'ə köçdü. Ermənilər qan tökə-tökə irəlilədilər. Yerli müsəlmanlar öz başlarına özləri çarə qılmaqdan ötrü tədbirlər tökdülər. Təcavüzdən qorunmaq üçün Qars İslam Şurası'nın bünyəsində Borçalı Milli Şurası oluşduruldu, onun rəisi Qars İslam Şurası'nın rəisi olmuş Kəpənəkçi Emin ağa Hacalıyev seçildi.


downloaded from KitabYurdu.org

Dekabrın 17-də Borçalı üstündə Erməni–Gürcü müharibəsi rəsmən bəyan olundu. Voronsovka, Yekaterinenfeld, Sadaxlı, Dəmyə, Ləmbəli, Saral, Ağməmmədli, Bəytərəfli, Axlılələ, Allahverdi tərəflərdə qanlı savaşlar getdi. Dekabrın 31-də ingilislərin müdaxiləsiylə müharibə dayandırıldı. Yanvarın 9-dan 17-dək Tiflis'dəki Ermənistan – Gürcüstan konfransında Loru neytral (tərəfsiz) bölgə sayıldı. (Borçalı üstündə müharibə və onun sonucları müəllifin "Paralanmış Borçalı..." kitabında ayrıntılı şərh olunmuşdur).

* *

... Borçalı qəzasının ərazisi 1902-də 6.567, 1905-də 6.870, 1915-də 6.408, 1917–21 illərində 4.360 kvadrat kilometriydi.

... Yüzilin başlarında Tiflis qubernyasında bizimkilər 107.623 nəfəriydilər, bunun 63.337-si Borçalı qəzasında, 7749-u Tiflis qəzasında, 6635-i Tiflis şəhərində yaşayırdı. Borçalı qəzasında bizimkilər Borçalı nahiyəsində 36,065 nəfəri, Trialet nahiyəsində 10.560 nəfəri, Yekaterinenfeld nahiyəsində 13.762 nəfəri, Loru nahiyəsində 3.058 nəfəri təşkil edirdilər. 1918-də də Borçalı'da və Qarayazı'da əhalinin çoxu bizimkiləriydi. Özəlliklə, Borçalı'nın orta hissəsində əhalinin 93 faizi (36.615 nəfər), Qarayazı'da 88,8 faizi (7.419 nəfər) bizimkilərdən ibarətiydi.

... Üzdə olan, seçilən öndər adamlarımızdan yüzilin ilk illərində Borçalı ellərinin kətxudaları olmuş Baydar'da – Molla Abdulla İbiş oğlu, Dəmirçihasanlı'da – Osman Sadıq oğlu, Görarxı'da – Məmmədsöyün Süleyman oğlu, Sadaxlı'da – Nağı Adıgözəl oğlu, Arıxlı'da – Yolçu Nəbi oğlu, Qızılhacılı'da – Hümbət Nəzərəli oğlu, Qaçağan'da – Kərbəlay İsmayıl Miki oğlu, Körpülü'də – Aslan Mürşüd oğlu, Qırıxlı'da – Xəlil Mustafa oğlu, Saral'da Məşədi Balı Bala oğlu, Bolnis-Kəpənəkçi'də – Allahverdi Göyüş oğlu, Darbaz'da – Alı Əhməd oğlu, Saraclı'da – Paşa ağa Naibzadə, Sarvan'da – Əliməmməd Söyün oğlu, Faxralı'da – Təhməzqulu Dünyamalı oğlu, Ərçivan-Sarvan'da – Hümbət Kərbəlay Əhməd oğlu, habelə Ağtəhlə'də – Həsənəli Kərbəlay Əli oğlu, Qaraçalar'da – Ömər İbrahim oğlu, Gölkənd'də (Candar) – Həsən Çopur oğlu, Qacalar'da (Kosalı) – Cəlil Əhməd oğlu, Sığnaq qəzasının Muğanlı icmasında – Əli Dünyamalı oğlu, Qanlıkənd'də – Murtuzəli İsmayıl oğlu, Telav'ın Qaracalar'ında İlyaz ağa Səfiyev, Tiflis'də vəzifələrdə işləmiş Həsən və Sadıq Yadigarovlar, 1912-də "Bəsdir, Oyan" kitabını yazmış, 1915-də Tula'da haqqında kitab çıxmış, 1918-də Qars İslam


downloaded from KitabYurdu.org

Şurasının rəisi seçilmiş Emin ağa, 1916-da Rus əsgərlərinə divan tutmuş Qaçağanlı Mustafa Tağı oğlu, Məmmədtağı Axund oğlu, Qasımlı Kərəm, 1919-da Gürcüstan Müəssisan Məclisi'nin üzvü seçilmiş Hüseynqulu Məmməd oğlu Məmmədov, habelə Tiflis'ə gəlib Borçalıların içtimai işlərinə yaxından qatılmış Borçalı qəza komissarı, Özəl Güney Qafqaz Komitəsi'nin Borçalı qəzasında vəkili Əbdürrəhim Bəy Haqverdiyev, Gürcüstan Milli Şurası'nın üzvləri, Borçalı qəza qlasnısı Əziz Şərif, Əliheydər Qarayev, Mirzə Hüseyn Həsənzadə, Gürcüstan Müsəlman Milli Məclisi'nin sədri Əlimirzə Nərimanov, ağsaqqallar, mərhəmətləriylə seçilmiş Yüzbaşıların Kərim ağa, Mansır ağa, Uzunbaşoğlu Məhəmməd, Molla İsə, Dəli Nəsib, Məmmədəli bəy, Qurban ağa, Haqverdi, Yusuf əfəndi, Yunus əfəndi, İsaoğlu Nuru, Hacılıların İsa, Qobeslərin Kərim, Kəlbi ağa, Rüstəm ağa, Aslan ağa, İsrafil ağa, Süleyman ağa, Rəşid ağa, Çopur Mustafa, Molla Paşa, İsmayıl kişi, Qazı əfəndi, Ağ Molla, Kolqıranoğlu İsmayıl, Alıoğlu Paşa, Molla Musa, Şatıroğlu İsmayıl, Əsgər kişi, Ömər kişi, Dünyamalı kişi. Çıraq kişi, Əlləzli Əbdüləli, Şirətli Söyünqulu, Həsənli Təhməzqulu, Balammədli İman, Böyük Ağa, Ayorta Qara və başqalarının hörməti böyüküydü.

... 1910-da Kəpənəkçi Emin ağanın təqdim etmiş olduğu, indi Gürcüstan Dövlət Muzeyində qorunan “Borçalı azərbaycanlı qadınının geyim dəsti” – arxalıq, çəmbərə, çalma-kələğay, şərf, şalvar-tuman, məzər, çorab, köynək o vaxtkı etnoqrafik geyim tərzimiz haqqında çox qiymətli saxlançdır.

... Bu illərdə çəmi quberniyada 114 müsəlman məktəbi varıydı və onlarda 680 şagird oxuyurdu, habelə 1905-də Arıxlı'da, 1910-da Sadaxlı'da, Görarxı'da, sonra Qaçağan'da, Qasımlı'da, Saraclı'da, Faxralı'da, Saral'da, Qızılkilsə'də, Lök-Candar'da, Soyuqbulaqda dünyəvi məktəblər açıldı. Yüzə qədər məscid və dini məktəblərimiz, Cəlil Məmmədquluzadə'nin şəxsi məktəbi, “Leyli” qızlar məktəbb, Tiflisdə'ki Azərbaycan Xalq Universiteti, Azərbaycan məktəbləri, ev təhsili ocaqları da maarifimizə təkan vermişlər. Arıxlı'dan Hüseyn, Sirəçəddin, Ziyəddin Əfəndizadələr, Tiflis'dən Teymur Qulubəyov, Əlimirzə Nərimanov, Məmməd bəy Ömərbəyov, Məmməd bəy Məmmədov, Ələsgər Abbasov, Faxralı'dan Mirzə Rza Əlizadə, Sarvan'dan Kərim Şərifli, Rüstəm Şərifli, Hüseyn Minasazlı, Təcis'dən Ziyad Şərifov, Telav-Qaracalar'dan Əbdül Manafi-Sofiyev və başqaları Qori seminaryasının Borçalı yetirmələriydi. 1918–1920


downloaded from KitabYurdu.org

illərində ana dilində tədrisə keçidlə bağlı milli maarifimiz də gəlişdi. Tiflis'də üç məktəb, habelə Şeyx Nizami adına yüksək dərəcəli ibtidai məktəb, Borçalı'da Arıxlı, Bolnis-Kəpənəkçi, Görarxı, Qızılhacılı, Sarvan, Sadaxlı, Təcis, Qaçağan, Kosalı, Muğanlı kəndlərində ibtidai məktəblərimiz fəaliyyət göstərirdi. Ancaq yenə də genəl durumdan rahatsızlıq vardı. Nəriman Nərimanov yazırdı: "Borçalı bəyləri, ağaları kimi qeyri ölkələrdə xabi-qəflətdə qalanlara təəccüb etməlidir! Nə əcəb bunlar qeyri şəhərlərdə din qardaşlarının hümmətini görüb, ya eşidib hümmətə gəlməyiblər?".

... Tiflisdə yaşamış ilk maarifçi qadınlarımızdan Rəhilə Hacıbababəyova, Azərbaycanın ilk peşəkar qadın rəssamı Qeysər Kaşıyeva, gözəl musiqiçi, pianoçu Kişvər Əliyeva, görkəmli xanəndə Məçid Behbudov, akvarel, portret, tablo ustadı Abbas Huseyni, əslən Sarvan kəndindən olan Abdulla Şaiq, yazıçı-publisistlər Ömər Faiq Neymanzadə, Hüseyn Minasazlı, aşıqlar, el şairləri Nəbi, Ağacan, Sadıq, Bayram, Balakişi, Güllər Pərisi, Dollu Əbuzər, Tüləhmədoğlu, Yetim Söyün, Usuf, Abbas, Şikəstə Pəri, Alxas ağa, Hüseynxan, Hüseyn, İbrahim Abdulla, İsmayıl, Hasan, Nədir, Şaban, dramaturqlar Kərim Şərifli, Mirzə Əli Abbasov və başqaları Borçalı–Tiflis mədəni-ədəbi mühitinin yetirmələri olmuşlar.

"Molla Nəsrəddin" dərgisinin Borçalı təmsilçisi Mirzə Həsən Məcruh onun səhifələrində Borçalı həyatını işıqlandırmışdır. 1918–1920 illərində Tiflis'dəki “Şərq” basmaxanasında azərbaycanca kitablar (o sıradan Kolayır kəndindən şair Məhəmməd Rzazadə Mühəqqər'in “El şeirləri” toplusu) buraxılmışdır, “Gələcək”, “Al Bayraq”, “Yeni Dünya”, “Tartan-Partan”, “Vətən” dərgiləri, qəzetləri çıxmışdır, teatr truppaları fəaliyyət görsətmişlər.

* * *

1921-ci il 12 fevral gecəsi Sovet ordusu Şüləver'də şura bayrağı dalğalandırdı.

Gürcüstan'da şura hökuməti qurulan kimi oluşdurulmuş İnqilab Komitəsi özəl bəlgəylə Borçalı'nın taleyini yerli əhalinin öhdəsinə buraxdı. Rusya Kommunist (Bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Qafqaz Bürosunun qərarıyla oluşdurulmuş ərazi məsələlərini tənzimləyən komissiya iyunun sonlarında Tiflis'dəki iclasında Loru probleminə ayrıca baxdı, iyulun 7-də Qafqaz Bürosu Stalin'in


downloaded from KitabYurdu.org

iştirakıyla öz iclasında bütün neytral (tərəfsiz) zonanın Ermənistan tərkibinə daxil edilməsi haqqında qərar çıxardı. Ermənilərə “beynəlmiləlçilik” siyasətiylə peşkəş verilən Loru–Voronsovka bölgəsi 2.575 kvadrat kilometrə yaxınıydı, bu, Borçalı qəzasının, demək olar, yarı parasıydı.

Gürcüstan Müsəlmanlarının İşləri Şurasının sədri Ömər Faiq: “Əhalisinin 80 – 85 faizini müsəlmanlar təşkil edən Borçalı qəzasında heç kəs onlarla hesablaşmır... Bütün Borçalı qəzası öz-özlüyündə qarşı-qarşıya duran iki düşərgəyi xatırladır: bir tərəfdən azlıq təşkil edən Almanlar, Ermənilər, Aysorlar, Malakanlar, Gürcülər, Yunanlar – yönətənlər; digər tərəfdən çoxminlik müsəlmanlar kütləsi – yönətilənlər kimi”.

1929-da Borçalı qəzası rayonlara bölündü. Bölgədə kəndliləri kütləvi şəkildə kollektiv təsərrüfatlara (kolxozlara) yazmağa başladılar, ilin sonlarında Borçalı rayonunda MTS (maşın-traktor stansiyası) yaradıldı. Kolxoz quruluşunun gedişatı Borçalı'da qarmaşıq oldu. Şura hökumətinin tərəfdarlarıyla əleyhdarları üzləşdilər. Sarvan, Görarxı, Qızılhacılı, Qaçağan, Sadaxlı, Arıxlı, Faxralı... ellərini silahlı üsyan bürüdü. Dəmirçihasanlı'da İsaxan üsyanı da bu vaxt oldu (sözgəlişi: bu haqqında Hamlet İsaxanlı'nın qiymətli məqaləsi dərç olunmuşdur – "Xalq qəzeti", 1996, sayılar 148, 149, 150). Kulaklığı ləğv etmək, "təmizlik" bəhanəsiylə, xalqın gözünü qırmaqdan ötrü bir çoxları güllələndilər, yaxud çox-çox uzaqlara sürgünə göndərildilər. 1932-də kollektivləşmə başa çatdı. Kolxoza girməyənlərə vergi qoyuldu, köhnə zənginlərə birər inək saxlandı, qalan mal-qarası kolxoza verildi.

1937-nin repressiyası (bulanımı) Borçalı'yı da göynətdi...

1941–1945 illəri İkinci Cahan Hərbində Sovet ordusu sıralarında Alman faşistlərinə qarşı Borçalı'dan minlərlə gənc vuruşdu, neçələri geri qayıtmadılar.

1950-li illərdə bərpa, altmış-yetmişli illərdə, qismən də sonra aqrar-sənaye təsərrüfat-iqtisadiyyat yönündə gəlişim Borçalı'da da rahat getdi, beşillik planlar artıqlamasıyla ödənildi, bir çox sənaye obyektləri oluşduruldu, inşa-tikinti genişləndi.

Səksənli illərin sonlarına doğru yaşayışda qarmaşıqlıq görülməyə, duyulmağa başladı. 1989 iyunun 24-də Marneuli şəhər meydanındakı mitinqdən sonra bölgədə toplumsal-siyasal durum gərginləşdi.


downloaded from KitabYurdu.org

* *

... 1922–1929 illəri arası Borçalı qəzasının ərazisi 2.952 kv. km., 1949-da Dmanisi rayonu 1.223, Marneuli 970, Bolnisi 747, Qardabani 714 kv. km., 1979-da Dmanisi 1.208, Marneuli 955, Bolnisi 804, Qardabani 1.734 kv. km. olmuşdur. 1926-da qəzada 16 nahiyə, 185 kənd, 1949-da Marneuli rayonunda 70, Bolnisi rayonunda 44, Qardabani rayonunda 19, Dmanisi rayonunda 18 kənd varıydı.

Rəsmi statist hesabatlarda Azərbaycanlıların sayı 1922-də Borçalı qəzasında 47.562, 1923-də 42.036 (68,9%), 1926-da 50.979 (59,3%), 1959-da Gürcüstan'da 153.600 (3,8%), 1970-də 217.800 (4,6%), 1989-da 307.556 (5,7%) qeydə alınmışdır.

1926 ili əhalisayımına görə, Türklər (bizi belə adlandırırdılar) Borçalı qəzasında çoxluğu tuturdular, belə ki, Borçalı (Sarvan) rayonunda 37.005 nəfər genəl əhalinin 23.680-i (64%), Lüksemburq rayonunda 25.174 nəfərin 15.060-ı (60%), Başkeçid rayonunda 24.468 nəfərin 12.254-ü (50%) bizimkiləriydi, bundan əlavə, Zalqa rayonunda 1.856, Ağbulaq rayonunda 834 nəfər soydaşımız varıydı. Kəndlər üzrə bizimkilər (ailə–nəfər): Borçalı rayonunda Araplı 61 – 258. Aşağı Saral 81 –320, Yuxarı Saral 61 – 267, Axlılələ 42–182, Axlımahmudlu 44 – 194, Bəyazitli 20 – 56, Dəmyə-Görarxı 56 – 340, Daştəpə 20 – 37, İmir 53 – 175, Seyidxoçalı 30 – 105, Qayaxoçalı 20 – 99, Qırıxlı 89 – 216, Yuxarı Qullar 22 – 48, Aşağı Qullar 32 – 104, Hacıisəkənd 8 – 61, Baydar 160 – 582, Gültəpəli 24 – 126, Ləcbəddin 95 – 546, Bəyük Muğanlı 133 – 617, Kürtlər 167 – 556, Əzizkənd (İvanbəyli) 131 – 1050, Görarxı 325 – 2378, Səbriyəkənd (Mamğallı) 155 – 914, Ambarovka (Ambarlı) 21 – 133, Dəmirçihasanlı (Kəpənəkçi) 135 – 480, İlməzli 41 – 240, Kosalı 171 – 734, Böyük Keşəli 113 – 602, Bala Keşəli 24 – 198, Ağkörpü 8 – 34, Ağqula 25 – 109, Zirəkli 4 – 17, Mamay 52 – 96, Mollaoğlu 45 – 192, Sadaxlı 445 – 2033, Bala Muğanlı 65 – 198, Sarvan 484 – 2493, Qızılhacılı 404 – 1888, Candar 93 – 366, Hallavar 38–129, Böyük Bəylər 36 – 106, Bala Bəylər 29 – 89, Ağməmmədli 105 – 575, Baytallı 19 – 51, Bəytərəfçi 33 – 140, Təkəli 150 – 495, Quşçu 29 – 90, Qaçağan 266 – 1246, Ulaşlı 70 – 258, Qasımlı 140 – 688, Qırıxlı-Muğanlı 50 – 207, Xacıkəzli 13 – 72, Canəhmədli 8 – 33, Xocornu 148 – 172, habelə Şüləver 48 nəfər (qatışıq), Marneuli 109,


downloaded from KitabYurdu.org

Sandar (stansiya) 26 nəfər; Lüksemburq rayonunda Bolnis-Kəpənəkçi 408 – 2257, İnçəoğlu 23 – 117, Mığırlı 24 – 102, Sarallar 20 – 155, Dəmirsu 11 – 44, Görcülər 18 – 67, Abdallı 40 – 232, Ağayurt 79 – 290, Araqala 36 – 191, Bəytəkər 22 – 123, Musapirilər 32 – 288, Muşəvlər 53 – 314, Seneb 8 – 36, Zol-Güvəc 91 – 474, Qaradaş 11 – 68, Qaratikən 6 – 33, Çürük Qəmərli 11 – 40, Aşağı Güləver 28 – 153, Yuxarı Güləver 39 – 231, Darbaz 208 – 1144, Dəmirli 20 – 109, Kipircik 15 – 102, Əsmələr 8 – 43, Qoçulu 76 – 383, Cəfərli 37 – 144, Sisqala 30 – 172, Dəştioğullar 40 – 184, Mollaəhmədli 9 – 54, Saraclı 316 – 1438, Yuxarı Qoşakilsə 33 – 168, Aşağı Qoşakilsə 68 – 371, Faxralı 470 – 2321, Şahbuzlu 46 – 236, Arıxlı 306 – 1585, Kolagir 82 – 430, habelə Lüksemburq 316, İmirhasan 104 nəfər; Başkeçid rayonunda Hamamlı 127 – 858, Əngirəvan 21 – 133, Yuxarı Bəzəkli 18 – 80, Aşağı Bəzəkli 52 – 325, Boğazkəsən 13 – 22, Dəllər 31 – 253, Məmişli 64 – 362, Yuxarı Oruzman 82 – 490, Aşağı Oruzman 45 – 273, Səfərli 76 – 463, Axçingil 3 – 11, Başkeçid 12 – 45, Bağçalar 15 – 104, Dunus 26 – 195, Gəyliyən 42 – 305, Ormeşən 67 – 487, Qızılkilsə 88 – 588, Şindilər 70 – 462, Şorşolet 11 – 78, Yırğançay 174 – 1078, Dağ Muğanlı 45 – 355, Lök-Candar 49 – 325, Saatlı 40 – 295, Qamışlı 72 – 509, Armudlu 23 – 112, Gödəkdağ 26 – 155, Göybulaq 4 – 19, Dağ Arıxlı 41 – 290, Dağ Qızılhacılı 67– 423, Yaqublu 59 – 377, Lager 38 – 198, Məmişlər 20 – 113, Mehtiağalar (Muzdurlar) 12 – 65, Salamməlik 29 – 158, Salamməlik-Səfihli 33 – 183, Saca 87 – 476, Soqutlu 8 – 30, Qarabulaq 110 – 765, Qəmərli 67 – 406, Şahmarlı 40 – 248, Söyünkənd 17 – 70 nəfər; Zalqa (Barmaqsız) rayonunda Ərcivan-Sarvan 151 – 760, Gəldiqar 33 – 231, Tecis 96 – 466, Minaskənd 7 – 37, Çölyan 64 – 355, Ağbulaq'da 4, Dağet 8, Şıxeli (Qəmərli) 249, Kosalar 572 nəfər.

12 nahiyədə kargüzarlıq (dəftrxana işlri) Türkcə aparılırdı.

Cəmi Gürcüstan'da 1923-də 72.926 (3,8%) Azərbaycanlı qeydə alınmışdı. Borçalı qəzasından əlavə, Tiflis qəzasında 12.711 (9,5%), Sığnaq qəzasında 5.199 (4,1%), Telav qəzasında 1.552 (1,7%), Duşet qəzasında 119 (0,2%), Qori qəzasında 249 (0,1%), habelə Tiflis şəhərində 3.255, Qori şəhərində 19, Telav şəhərində 14, Kutais şəhərində 46 nəfər bizimki varıydı. 1926-da Tiflis rayonunda 11.444 (Avçala 24, Qrmağele 157, Ağtəhlə 1.792, Qardaban 16, Qışlaq 83, Qaratəhlə 842, Qaracala 711, Suçəkən 8, Vedzis 21, Telovan 59,


downloaded from KitabYurdu.org

Txinval 101, Msxaldid 133, Şləməngdərə 19, Zəylilərdərə 49, Codoret 101, Soğanlıq 738, Qocor 14, Birlik 158, Qışlaq 163, Təzəkənd 388, Mixaylovka 45, Nazarlı 1.621, Rustavi 14, Ulyanovo-Voyekovo 179, Kosalı 2.004, Qaratəpə 1.071, Yuxarı Kəpənəkçi 338, Aşağı Kəpənəkçi 86, Candar 661); Məngilis rayonunda 280 (Göhnar 40, Zəzəkənd 68, Nəbillər 154, Məngilis 18); Msxeta rayonunda 243 (Sixisdziri-Cömbərli 117, Calabaşı 126); Tiflis şəhərində 5.836; Qare-Kaxet (Saqareco) rayonunda 1.429 (Qombor 574, İkievli 70, Paldı-Çənçqərib 37, Muğanlı 1.118); bütövlükdə Gürcüstan Sovet Cümhuriyyətində 72.986 nəfər soydaşımız yaşayırdı.

1989-da Marneul rayonunda 91.923 (76,3%), Bolnis rayonunda 53.808 (66%), Qardaban rayonunda 48.781 (42,5%), Dmanis rayonunda 33.107 (63,9%), Tiflis şəhərində 17.000 (1,3%), Saqareço rayonunda 15.804 (26,3%), Rustavi şəhərində 11.576 (7,3%), Kaspi rayonunda 2.872 (5,2%), Zalqa rayonunda 2.281 (5,1%), Msxeta rayonunda 2.199 (4%), Karel rayonunda 1.426 (2,8%) nəfər olmuşuq.

... 1920–1924 illəri arası Borçalı'dan, o sıradan Oruzman, Kəpənəkçi, Darvaz, Bəzəkli, Yırğançay, Qəmərli, Ağalıq, Faxralı ellərindən, Qarayazı'dan, Loru'dan, Qaraçöp'dən, Ahısqa'dan 45 min Qarapapaq dəyişmə yoluyla Qars tərəflərə aparıldı.

1944-də Borçalı'dan, Ahısqa'dan 115 min əhali, 198 kənd Qazaxıstan çöllərinə sürgün edildi.

1989–1991 illərdə bəlli olaylar, Erməni–Azərbaycanlı qarşıdurmasının Borçalı'ya da sirayət etməsi sonucunda baş dəhlizimizin Başkeçid qapısının Dağ-Muğanlı, Saatlı elləri gizlin sövdələşmə tələsinə urcah olub boşaldı, Bolnis şəhərindən 760, Kazret qəsəbəsindən 450, Dmanis şəhərindən 120 ailə, başqa yerlərdən də xeyli adam Azərbaycan'a köçdü.

... 1924–1925 illəri arasında Qorunçaq (Maşaver), Qələmçə (Qantiadi) kəndlərinə Gürcüstan'ın orta bölgələrindən, 1941-də Asuret'ə, Bolnis'ə və 1956-da Racisuban'a İmeret'dən, Svanet'dən, Raca'dan, 1989-da ayrı-ayrı yerlərə Svanet'dən Gürcü ailələri köçürülüb yerləşdirildilər.

... Milli təhsilimiz maraqlı gəlişim yolu keçmişdir. Sovet yönətiminin ilk çağlarında kəndlərimizdə dördillik ibtidai məktəblər, yeddiilliklər, doqquzilliklər, kəndli-gənclər məktəbləri, Tiflis'də,


downloaded from KitabYurdu.org

Sarvan'da, Lüksemburq'da, Başkeçid'də, Ahısqa'da padaqoji texnikumlar açıldı. 1934–1935 tədris ilində Gürcüstan'da cəmi 33.114 nəfər Türk (Azərbaycanlı) balası təhsil alırdı, bunun 4840-ı Borçalı rayonunda, 3556-sı Başkeçid rayonunda, 3314-ü Lüksemburq rayonunda, 1843-ü Qarayazı rayonunda, 1055-i Tiflis şəhərində, 367-si Ağbulaq rayonunda, qalanları başqa bölgələrdə idi. Sonralar da icbari (zorunlu) orta öyrətim gerçəkləşdirildi.

... Ellərimizin bəziləri rəsmən başqa cür adlandırıldı: Sarvan kəndi – Borçalı kəndi (1932, 13 fevral), Barmaqsız kəndi – Zalqa qəsəbəsi, Qaratəpə kəndi – Qarayazı kəndi (1932, 22 dekabr), Şüləver qəsəbəsi – Şaumyan qəsəbəsi (1932, 28 dekabr), Ağbulaq qəsəbəsi – Tetrisxaro qəsəbəsi (1940, 19 oktyabr), Lüksemburq qəsəbəsi – Bolnisi qəsəbəsi (1943, 3 aprel), Valdheym kəndi – Kirovisi kəndi (1943, 5 avqust), Traubenberq kəndi – Tamarisi kəndi (1944, 18 fevral), Qarayazı qəsəbəsi – Qardabani qəsəbəsi, Başkeçid kəndi – Dmanisi qəsəbəsi, Borçalı kəndi – Marneuli qəsəbəsi, Qarayazı rayonu – Qardabani rayonu, Başkeçid rayonu – Dmanisi rayonu, Borçalı rayonu – Marneuli rayonu (1947, 18 mart), Qarakilsə kəndi – Vake kəndi (1949, 1 ıyul), Qələmçə kəndi – Qantiadi kəndi, Qorunçaq kəndi – Maşaver kəndi, Mahmudlu kəndi – Mtisdziri kəndi, Armudlu kəndi – Pantiani kəndi, Qaşqatala kəndi – Sakire kəndi, Dəmirbulaq kəndi – Sarkineti kəndi, Busuqala kəndi – Kariani kəndi (1949, 12 iyul), Çatax kəndi – Poladauri kəndi (1951, 6 sentyabr), Görarxı kəndi – Alget kəndi (1959, 3 avqust), Boğazkəsən kəndi – Tğispiri kəndi (1959, 9 noyabr); sonra Soğanlığ'ın adı Poniçala, Bolnis-Kəpənəkçi'nin adı Kvemo-Bolnisi qoyulmuşdur...

(1994-də Bolnisi rayonunda kəndlərimizin adlarının qeyri-rəsmi olaraq dəyişdirilməsinə cəhd göstərilmişdir).

... Öndər soydaşlarımızdan əllinci illərədək Xəlil Hacılarov, Əşrəf Yüzbaşov, Məmmədhəsən Yüzbaşov, Mansır ağa Kərim oğlu, Əli Tağızadə, Həsən Qapalov, Kərim Şərifov, Adil Kərəkməzli, Ömər Faiq, Əbdül Eyyubov, Hüseyn Zeynalov, Məhəmməd Qarabağlı, Əlixan Hüseynov, Əli Bağırov, Dəllər Qaraca, Səməd Şərifov, Zahid Zeynalov, Əziz Əzizov, İbrahim Acalov, Məmi Çəlilov, Hacı Lələ, Uzunbaşoğlu Nəbi, Qlava Tanrıverdi, Cəlal Aşırov, Sinəninöyünün Nəbi, Keçəllərin Baba kişi, Əli Rzazadə, Əlimirzə Nərimanov, Əsgər Məmmədəlizadə, Cıcıroğlu Söyün, Ziya Borçalı, Əli Mursaqulov, Böyükağa Talıblı, Yəhya Qarabağlı, Əliyar Qarabağlı, Ömər


downloaded from KitabYurdu.org

Osmanlı, Çopur oğlu Alı, Çopur Alı, Qoca oğlu Qoca, İsmayıl Yaqubov, Məhəmmədəli Məsilli, Vəli oğlu Haçı, Haçabaş oğlu Mehdi, Seyid Hüseyn Hadızadə, Molla Mustafa oğlu Mahmud, İsaxan və Qurban Hacıbayramlılar, Bəkir Mustafayev, Əmrah Aslanov, Tahir İsayev, Mirzə Hacıyev, Paşa Əliyev, Hüseyn əfəndi, Kərim Rəhimov, Məşədi kişi, Yavıx oğlu Söyün, Həsən Məmmədov, Həbib Əlizadə, Seyfulla Əlizadə, Qızxanım Əfəndizadə, İbad Əliyev, Vahid Əliyev, Hacı Hacıyev, Mustafa Qazızadə, İbrahim Sadıqov, Həsən Əlləz oğlu, Müseyib Güləhmədzadə, Paşa Əkbərov, Osman Məmmədəli oğlu, Mövlud Nadirov, Müseyib Məmmədov, Məmməd Vəliyev, Yusif Məmmədəlizadə, Lətif Bayramov, Məmməd Əlməmmədov, Mustafa Məmmədov, Murtuz Bağırov, Binəli Mahmudov, Allahverdi Eyyubov, Xeyransa Sultanova, İsmayıl Axundov, Əli Süleymanov, Rüstəm Gülməmmədov, Yunis Məmmədzadə, İslam Axundov, İsmayıl Mursaqulov, Mövlud Nazıyev, Sədi Müftiyev, Musa Xəlil oğlu, Salatın İnayətzadə, Rəşid pəhləvan, Zor Məmməd, Rüxsarə Şərifova, Həsən Mollayev, Məmməd Əlizadə, Əli Sultanov, Osman Eyyubov, Əziz Mursaqulov, Kazım Nəbiyev, Abdulla Mahmud oğlu, İbrahimxəlil Rzaquluyev, İsa Mahmudov, Yunis Abdullayev, Əhməd Quluyev, İsmayıl Qaralov, Qocaoğlu İsə, Molla Qara, Molla Şərif, Ayvazoğlu Məhəmməd, Şəkər ağa, Keçəllərin İsmayıl, Qazıöyünün Şəmil, Yetimoğlu Hümbət, Nağıoğlu İsmayıl, Molla Həmidoğlu Diri, Şərifli Musa, Minə qarı, Hürü Kərimova, Hürü Çarçıyeva, Seyid Abbas, Seyid Əsədulla, Məhəmməd ağa Mursaqulov, Qara Sona, Gövhər xanım, Cəmil Orucov, Aslan Orucov, Həbib Zeynalov, Şəmistan, Həsən Xeyirlilər, Məmid Musayev, Hüseynqulu Şabanov, Musa Əliyev, Həsən Səbri, Həsən Mursaqulov, Ənnağı Mursaqulov, Haçıxəlil Bayramov, Məmməd Cəfərli, Məhəmməd Süleyman oğlu, İbrahim Süleymanov, Allahverən Süleymanov, Nəsib Haçıyev, Əli Fərəçoğlu, İslam Yusifov. Hüseyn Mehti oğlu, Ələkbər Seyfi, İbrahim İsfahanlı, Əli Şıxıyev, Hüseynalı Bayramov, Səfər İrişov, Əli əfəndi, İbrahim Tağıyev, Məçid Seyidov, Təkəli Mehti ağa, Əmrah ağa, Rüstəm Şərifov, Sarı Məhəmməd, Kərim Kərimov, Şəmistan Əliyev, Mirzə Məmmədov, Abbas Ağayev, Nədir Hacıyev, Yunus Haçıyev, Mədəd Muradov, Əyyub Aşırov, Qəhrəman Aşırov, Molla Çamal, Molla İbad, Məmiş Hüseynov, Əhməd Eminov, Muxtar Qurbanov, Muxtar Əliyev, Alı Xanzadə oğlu, Kəyan Naibov, Mehdi Məmmədov, Oruc Qocayev,


downloaded from KitabYurdu.org

Hümbət Daşdəmirov, Bağır Hümbətov, Ömər Ömərov, Məmməd Həsənli, Xaçca Şıxıyeva, Tanrıverdi, Əsəd, Əsgər Qarabağlılar, Mələyoğlu Qaraca, Mələyoğlu Mahmud, Nəbi Əhmədov, Aqronom Hümmət, Molla Xalıl, Oyçuoğlu Məhəmməd, Oyçuoğlu Söyün, Molla Musa, Molla Məhəmməd, Ağmollaoğlu İsə, Cəfəröyünün Nəbi, Xalsaöyünün Allahverdi, Mələyoğlu Binnət, İdris Məmmədov, Abbasəli Quluyev, İdris Məhəmməd oğlu, İsgəndər Rüstəmov, Xalıl Musa oğlu, Hacıxəlil Həsənov, Mursağlıöyünün İsə, Söyün Aşır oğlu, Abdallı Qəşəm, Mahmud Rüstəmoğlu, Xanmədöyünün Mirzə, Kərim Qurbanov, İsa Gülməmmədov, Rüstəm oğlu Hacıxəlil, Qayalı Binnət, Alıöyünün Məmmədqulu, Alıöyünün Abdal, Mahmud Gərəkməzli, Hətəm Ayvazov, Qasım Əliyev, Qaraqaşoğlu Məhəmməd, Mollahəmidoğlu Məhəmməd, Molla Mahmud, Təhməzoğlu Vəli, Məmmədoğlu Yunus, Qəşəng Məmməd, Məşədi Əli, Nəbi Nəbiyev, Məmməd Qurbanov, Xubanoğlu İsə, Cəlal İbrahimov, Cüllet oğlu Salman, Müseyib Əlizadə, Hüseynpaşa Qarayev, Əli Kələyev, Bəşir Əliyev, Alı Bədəlli, Mehdi oğlu Məhəmməd, Parabaşoğlu Camal, Qaracaoğlu Məhəmməd, Molla Sədi, Lahıcoğlu Abdı, Mustafa Qurbanov, Qara Bediyev, Bilal Məmmədov, Əmiraslan Əmiraslanov, Oruc Hətəm oğlu, Seyid Mirağa, Seyid Həşim, Şeyx Məhammədəli, Əli Yusufov, Əli Məhərrəmov, Hümmət Cəfərov, Kərimağa oğlu Məhəmməd, Axund Xəlil, Molla Qurban, Arıxməmmədoğlu Namaz, Orucoğlu Asdan, Gəncəoğlu Namaz, Gəncəoğlu Söyünalı, Almədəd Qazızadə, Qaracaöyünün İbrahim, Seyid Miri, Sofuoğlu Mahmud, Talıb kişi, Şərifoğlu Məhəmməd, Xocaoğlu Hamza, Mərdanoğlu İsmayıl, Şirinoğlu Yunus, Məşədi Qəhrəman, İdnoy kişi, Hacıqulu İdnoyoğlu, Gülxanım Mirzəyeva, Rüstəm Məmmədov, Halay Yusifov, Yusif Nəbiyev, Bəxtiyar Nağı oğlu, Həmid Qurbanəli oğlu, Şahalı Zeynal oğlu, Molla kişi Mursağullu, Həsənoğlu Məhəmməd, Oruç Nəsibov, Mehralı Həsənov, Əlnamaz Əlizadə, Qaraş Məmmədov, Məhəmmədəli Məmmədov, Həsrət Bayramov, Koroğlu Əhməd, Mehralı Əhmədov, Nurəli Süleyman oğlu, Abbasəli Qarabağlı, Hasanalı Adıgözəl oğlu, Əlibala Göyçəyev, Carçı oğlu Söyün, Məşədi Əhməd, İman oğlu Söyün, Sarı oğlu Alı, Kərim oğlu Rüstəm, Sarı oğlu Nəsib, Qoca oğlu Qurban, Əlləz Orucov, Şamil Yolçuyev, Məhəmməd Səfərov, İbrahim İbrahimov, Süleyman İsgəndərzadə, Məcidoğlu Söyün, Xıdıroğlu İslam, Məmmədoğlu Tağı, Orucoğlu Alı, Qurbanoğlu Məhəmməd, Yusif Süleymanov, Səməd Əhmədov,


downloaded from KitabYurdu.org

Hümmət Əhmədov, İsmayıloğlu Məmməd, Qaraxanlıların Nəsib, İsə, Məhəmməd Abbasov, Xeyransa Mehdiyeva, Əcəbnaz Məmmədova, Əmirxan Abbasov, Güllü Söyün qızı, Sultan Bayram qızı, Hürzət Məmmədova, Söyün İsmayıl oğlu, İsmayıl Ocaqqulu oğlu, Qiyas Orucov, Ziyəddin İsmayılov, Məmməd Qocayev, Məhərrəm İsmayılov, Şəfioğlu Əmiraslan, İncəoğlu İsmayıl, Alıoğlu Kərəm, Orucoğlu Abbas, İsə Nazıyev, Abdulla Acalov, Qara Osman, Osman ağa, Baba Seyid, Qurbanoğlu Rəhim, Təhməzquluoğlu Nədir, Həmid İsmayılov, Qara Nəvi, Sarı Usuf, Şəmiloğlu Süleyman, Əsmələr İsə, Məşədi Heydar, Tamaların Qurban, Xəlifələrin Abbas, Cəbrayıl, Hasanqara, Bozoğlu Məhərrəm, Sərməstli Qara kişi, Səməd Xəlilov, İsrafil Abbasov, Osman Çavkalov...;

Əllili illərdən sonra sayseçmə yurddaşlarımızdan Aslan Mansırov, Mahmud Quluyev, Məmməd Nəbizadə, Məhəmmədəli Novruzov, Əli Əliyev, Hüseynqulu Məmmədov, İsmayıl Çıraqov, Yusif Hacıyev, Abbas Kərimov, Məmməd Bayramov, Yunus Bayramov, Xan Oruç oğlu, İslam İsayev, Binnət Mahmudov, Musa Həsənov, Abbas İsmayılov, Bəstioğlu Məhəmməd, Daşdəmir Qocayev, Əjdər Tağıyev, İslam Bədəlli, Rüstəm Həsənov, Məhəmmədəli Babakişiyev, Əli Qocayev, Ordenli Qərib, Həsən Qarayev, Qoca Fətullayev, Hacı Daşdəmirov, Abdulla Daşdəmirov, Neymət Tomayev, Vəli Tomayev, Şahvələd Musayev, Qulu Quluyev, Nəbi Musayev, Məsim Əliyev, Eyvaz Həsənov, Nəbi Nəbizadə, Çoban Musayev, Qəhrəman Şabanov, İmran Kərimov, Yusif heydərov, Teymurxan Çovdarov, Yusif Yusifov, Yusif Çerpanov, Zəhra Çıraqova, İsa Xəlilov, Gülsənəm Əliyeva, Sona Verdiyeva, Kəklik Mikiyeva, Flora Dəmirçiyeva, Tamam Abdullayeva, Mahmud Kərimov, Təhməz Pirverdiyev, Həsrət Gəncəyev, Məmməd Xiyalov, Əbdüləli Qarabağlı, Zamanağa Zamanov, Abbasəli Məmmədov, İbrahim Məmmədov, Teymuraz Cəfərli, Məsmə Alı qızı, Yəhya Məmmədov, Şaban Qaralov, Mehralı Cəlilov, Polux Poluxov, Tofiq Qarayev, Zülal Seyidov, Həsən Həsənov, Kamal Hacılarov, Emin Eminov, İsə Bayramov, Pənah Mahmudov, Şatırlı Ələddin, Yolçu Çıraqov, Niyazi Acalov, Cəlil Kələyev, Kamal Məmmədov, Bəkir Qaralov, Almaz Rzaquliyev, Abbas Fətullayev, Hüseynəli Məmmədov, Əli Yüzbaşov, İsgəndər Mursaqulov, Məsim Məmmədov, Məhərrəm Həsənov, Mustafa Aslanov, Daşdəmir Bayramov, Cəlal Musayev, Məmməd Sadıqov, Veyis Mehmanov,


downloaded from KitabYurdu.org

Mehralı Abbasov, Bədirxan Gərəkov, Süleyman Süleymanlı, Kamil Məmmədov, Polad Məmmədov, Valeh Hacıyev, Çahangir Orucov, Ziyadxan Məmmədov, İstanbul Bayramov, Noyruz Bayramov, Allahverdi Hümmətov, Rza Qurbanov, Fərhad Gəncəyev, İmran Həsənov, Roza Xudayeva... və çoxlarını görsədə bilərik.

... Aşıqlar, el şairləri Abbasəli Quşçu, Sadıq Sultanov, Nəbi Faxralı, Məcruh, Mühəqqər, Şenlik, Xındı Məmməd, Ağacan, Usuf, İbrahimxəlil, Xəstə Namaz, İsa Borçalı, Məsim Bəyazitli, Düdükçü Dursun, Teymur, Əlixan Qarayazılı, Dədə Əmrah, Hüseyn Saraclı, Sədi Ulaşlı, Nədir Mollaoğlu Faxralı, Təhlə Novruz, Musa, Abbasqulu, Göycə, Kamandar, Yetim Mahmud, Məhəmməd Sadaxlı, Əhməd Sadaxlı, Nurəddin Qasımlı, Əli Hüsənoğlu, Əli Faxralı, Həsənəli Təhməzoğlu, Cavad Həsənoğlu, İslam, Əhəd, Murad, Aslan, Hüseyn Qırıxlı, Gülabı, Səməndər, Ziyəddin, Mürsəl, Hacı Şindili, Şamı, Bafəli, Rza, Cəmil, Allahverən, Xoca Məhəmməd, Sona, Oruc, Alıqara və b.; şairlər, nasirlər Ziya Borçalı, Cəmil Mursaqulov, Vəli Tomayev, Məmmədhüseyn Bəxtiyarlı, Hidayət Bayramov, Tahir Hüseynov, Abbas Abdulla, Eyvaz Borçalı, İsa İsmayılzadə, Vilayət Rüstəmzadə, Əflatun Saraclı, Mövlud Süleymanlı, Vəli Əliyev, Əlixan Binnətoğlu, Dünyamalı Kərəm, Əli Səngərli, Əli Abbasov, Rəşid Hacallı, Zəlimxan Yaqub, Valeh Hacı, Bəhram Mehdi, Əli Vüqarlı, Talıb Nikbin, Mədəd Coşğun, Səadət Buta, Tariyel Qəribli, Osman Əhmədoğlu, Əlixan Düşkün, Müzəyyət Yusifli, Çoban Rəşid, Allahverdi Təhləli, İmir Məmmədli, Eyvaz Əlləzoğlu, Əbdüləli, Tapdıq Yolçu, Dilqəm, Zahid Ələmpaşalı, Yaşar, İmdad, Qurban Əzizli, Nizami Məmmədzadə, Aslan Görarxılı, Rafiq Hümmət, Qasım Abbasəli, Zümrüd Qurbanlı, Məhəmməd Həsənli, Səməd Qaraçöp, Rəşid Faxralı, Nizami Saraclı, Bahəddin Oruclu, Murtuz Ərcivanlı, Tapdıq Qızılhacılı, Dəryeynur, Çoban Amma və b.; tərcüməçilər Nəsib Yusifoğlu, İmir Məmmədli; alimlər Abbas Kirəcli, Ziya Borçalı, Əliyar Qarabağlı, Adil Mişiyev, Valeh Hacıyev, Həmid Vəliyev, Mədəd Çobanov, Şurəddin Məmmədli, Gülnara Gocayeva, Akif Nuruyev, Telman Quluyev, Fərhad Xubanlı, Alı Musayev, Mahmud Haçıxəlilli və b. saz-söz ocağımızı şöləndirmişlər. 1947-ədək Tiflis Azərbayçan Teatrı, 20-li illərdə Gürcüstan Türk Yazıçılar Cəmiyyəti, Borçalı'da ədəbi dərnəklər, 30-lu illərdə Gürçustan Yazıçılar İttifaqının Azərbaycan bölümü, 70–80-li illərdə “Çeşmə”, “Dan Ulduzu”, “Pöhrə”. “Qönçə” ədəbi birlikləri, “Sevinc”, “Könül”,


downloaded from KitabYurdu.org

“Sarvan” musiqi ansamblları fəaliyyət göstərmişlər. “Yeni Fikir”, “Yeni Kənd”, “Dan Ulduzu”, “Qızıl Şəfəq”, “Gənc Nəsl”, “Yeni Qüvvə”, “Sovet Gürcüstanı” qəzetləri. dərgiləri. rayon qəzetləri çıxmışdır. “Əşar Məcmuəsi”, “Qığılçım”, “Çeşmə”, “Dan Ulduzu” topluları nəşr olunmuşdur.

Gürcüstan'ın müstəqillik, istiqlal qazanması mücadilələrinə yerli Azərbaycanlılar da fəal qatılmışdılar. bir ara Borçalı'da insan, maşın oğurluğu, quldurluq, soyğunçuluq mafiya səciyyəsi daşımışdı.

Bu gərginlikdə “Qeyrət” xalq hərəkatı toplumsal həyatımızda önəmli rol oynamışdı.

1995-də partiya siyahısıyla Novruzov, Müqəddəs Neymətov, Hidayət Hüseynov, Ramiz Bəkirov müstəqil Gürcüstan'ın parlamentinə üzv seçilmişdilər.

Milli ictimai, mədəni-xeyriyyə birliklərimiz – “Qeyrət”, “Dayaq”, “Ozan”, “Birlik”, “Ümid”... cəmiyyətləri fəaliyyət göstərmişlər.

... Genəl əhalisayımızda 1990-da 555 nəfər əskilmə, 1991-də 1.947 nəfər artım, 1992-də 2.904 nəfər artım, 1993–1996 illərində qismən sabit artım qeydə alınmışdı. Hesablamalarda sayımız yarım milyon görsədilmişdir.

... Yaklaşıq 200 milli məktəbimiz, kollecimiz, Tbilisi Dövlət Pedaqoji Universitetində dil-ədəbiyyat bölümümüz vardı. Marneulidə bir neçə ali təhsil ocağında Azərbaycanlı gənclər mütəxəssislər olaraq yetişmişlər.


downloaded from KitabYurdu.org

# İYİRMİBİRİNCİ YÜZİL

Gürcüstanda 2002-ci ilin yanvarında keçirilmiş əhalinin siyahıya alınmasının nəticələrinə görə (bax, "საქართველოს მოსახლეობის 2002 წლის ეროვნული საყოველთაო აღწერის ძირითადი შედეგები" – Gürcüstan əhalisinin 2002-ci il birinci milli hamılıqla siyahıyalınmasının əsas nəticələri, Tbilisi: Gürcüstan Dövlət Statistika Departamenti, 2003; 3 cilddə, Gürcücə), Gürcüstandakı azərbaycanlılar barəsində önəmli bilgilər əldə edirik.

2002-ci ildə Gürcüstanın uluslararası aləmdə tanınmış sınırlar daxilində ərazisi 69.500 kvadrat kilometrə, əhalisi 4.601.500 nəfərə bərabər olmuşdur.

Gürcüstanda ümuməhalinin 83,3 faizini Gürcülər (3.661.173 nəfər), qalan qismini (16,7%) başqa millətlərin təmsilçiləri tuturlar.

Azərbaycanlılar yığcam yaşayan rayonların ərazi, əhali göstəriciləri:

| rayonlar | ərazisi (kv.km.) | əhalisi (nəfər) | ölkə əhalisinə nisbətdə |
|---|---|---|---|
| Marneuli rayonu | 935 | 124.332 | 2,7% |
| Qardabani rayonu | 1.304,1 | 115.140 | 2,6% |
| Bolnisi rayonu | 804 | 81.920 | 1,7% |
| Dmanisi rayonu | 1.198,8 | 52.208 | 0,6% |

2002-ci il üçün azərbaycanlıların sayı aşağıdakı rəqəmlərlə ifadələnir:

- Diyarlar üzrə:
  - Kvemo (aşağı) Kartli 224.606 45,1 %
  - Kaxet 40.036 9,8 %
  - Şida (daxili) Kartli 5.768 1,8 %
  - Msxeta-Mtianeti 2.248 1,8 %
  - Acarstan muxtariyyəti 542 0,1 %
  - Imereti 274 0,1 %


downloaded from KitabYurdu.org

- Sameqrelo-Zemosvaneti 142 0,1 %
- Quriya 91 0,1 %
- Samsxe-Cavaxeti 59 0,1 %
- Raca-Leçxumi 47 0,1 %
- Abxaziya muxtariyyəti 6 0,3 %

➢ Rayonlar üzrə:

- Marneuli rayonu 98.245 83,1 %
- Qardabani rayonu 49.993 43,7 %
- Bolnisi rayonu 49.026 65,9 %
- Saqareco rayonu 18.907 31,9 %
- Dmanisi rayonu 18.716 66,8 %
- Laqodexi rayonu 11.392 22,3 %
- Telavi rayonu 8.373 11,9 %
- Kaspi rayonu 3.962 7,6 %
- Msxeta rayonu 2.236 3,5 %
- Zalqa rayonu 1.992 9,5 %
- Tetricğaro rayonu 1.641 6,8 %
- Kareli rayonu 1.183 2,3 %
- Dedopliscğaro rayonu 1.019 3,3 %
- Qori rayonu 607 0,4 %
- Axmeta rayonu 152 0,4 %
- Xelvaçauri rayonu 151 0,2 %
- Siqnax rayonu 118 0,3 %

Habelə Kobuleti (79 nəfər), Gürcaani (58), Sxaltubo (55), Ozurqeti (55), Zuqdidi (47), Lançxuti (33), Samtredia (24), Borjomi (24), Saqeri (22), Lentexi (21), Vani (18), Kvareli (17), Adıgün (17), Xaşuri (16), Xobi (16), Axalsixe (13), Çiatura (10), Abaşa (10), Senaki (10), Xaraqauli (8), Martvili (8), Keda (7), Zestafoni (7), Salencixa (7), Tkibuli (6), Duşeti (5), Bağdati (5), Xoni (5), Tianeti (4), Terjola (4), Oni (4), Xulo (3), Çoxatauri (3), Axalkalaki (3), Axalqori (3), Ninosminda (2), Kazbeqi (1), Şuaxevi (1), Çxorotsku (1) rayonlarında cüzi sayda soydaşımız siyahıya alınıb.

➢ Ölkə miqyaslı şəhərlərdə:

- Tbilisi 13.751
- Rustavi 4.993
- Batumi 301
- Kutaisi 132


downloaded from KitabYurdu.org

- Poti 43

➢ Rayon miqyaslı şəhərlərdə:

- Marneuli 17.875
- Qardabani 7.176
- Dmanisi 308
- Bolnisi 10

➢ Kəndlər üzrə (əhalinin say çoxluğu ilə düzülür):

| | |
|---|---|
| Sadaxlı | 9.486 |
| Qaracalar (Telav) | 8.270 |
| Qızılhacılı | 7.124 |
| Faxralı | 6.891 |
| Bolnis-Kəpənəkçi | 6.766 |
| Ləmbəli | 6.254 |
| Nazarlı | 5.808 |
| Soğanlıq–Ponicala | 5.698 |
| Kosalı (Qarayazı) | 5.612 |
| Alget (Görarxı) | 5.017 |
| Arıxlı | 4.876 |
| Ağtəhlə | 4.229 |
| Qaracalar (Qarayazı) | 4.141 |
| Qaçağan | 3.974 |
| Darbaz | 3.743 |
| Sabirkənd | 3.713 |
| Tüllər | 3.698 |
| Qabal | 3.654 |
| Sərticala-Muğanlı | 3.558 |
| Keşəli (Kürüstü) | 3.322 |
| Candar (Qarayazı) | 3.118 |
| Keşəli (Qaraçöp) | 2.983 |
| Qaratəhlə | 2.936 |
| Qasımlı | 2.921 |
| Ağəmmədli | 2.867 |
| Saraclı | 2.841 |
| Gəncələ | 2.745 |
| Yırğançay | 2.678 |
| Qaracalar (Qabal) | 2.576 |
| Uzuntala | 2.333 |


downloaded from KitabYurdu.org

| | |
|---|---|
| Vaxtangis | 2.332 |
| Kolagir | 2.319 |
| Təzəkənd (Görarxı) | 2.230 |
| Zol-Güvəc | 2.183 |
| Əzizkənd | 2.170 |
| Təzəkənd (Qarayazı) | 1.856 |
| Yor-Muğanlı | 1.830 |
| Qaş-Muğanlı | 1.815 |
| Dəmyə-Görarxı | 1.815 |
| Şüləver | 1.787 |
| Aşağı-Saral | 1.745 |
| Imirhəsən | 1.717 |
| Kürtlər | 1.711 |
| Yuxarı-Qullar | 1.704 |
| Təkəli | 1.682 |
| Birlik | 1.655 |
| Qoçulu | 1.623 |
| Birinci-Kosalı | 1.622 |
| Hamamlı | 1.596 |
| Ikinci-Kosalı | 1.587 |
| Lecbədin | 1.538 |
| Daştəpə | 1.462 |
| Imir | 1.445 |
| Kəpənəkçi | 1.383 |
| Düzəyrəm | 1.323 |
| Qırıxlı | 1.262 |
| Ambarovka | 1.249 |
| Baydar | 1.236 |
| Bala-Muğanlı | 1.205 |
| Dəllər-Müşəvən | 1.194 |
| Mollaoğlu | 1.180 |
| Ayorta | 1.174 |
| Kalinin | 1.156 |
| Kirəc-Muğanlı | 1.155 |
| Yuxarı-Saral | 1.135 |
| Qazlar | 1.134 |
| Araplı | 1.118 |
| Yuxarı-Qarabulaq | 1.114 |


downloaded from KitabYurdu.org

| | |
|---|---|
| Kosalar | 1.056 |
| Aşağı-Qoşaisə | 1.053 |
| Ilməzli | 1.033 |
| Axalşen | 1.030 |
| Ferma | 909 |
| Məmişli | 908 |
| Yuxarı-Oruzman | 901 |
| Xidisğuri-Körpüdibi | 899 |
| Daşdıoğullar | 893 |
| Paldı (Baldoy) | 874 |
| Ulaşlı | 859 |
| Hasanxocalı | 846 |
| Abdallı | 829 |
| Axlı-Lələli | 805 |
| Ərcivan-Sarvan | 794 |
| Qızılkilsə | 774 |
| Bəzəkli | 763 |
| Axlı-Mahmudlu | 758 |
| Hacıisakənd | 750 |
| Sop | 746 |
| Səfərli | 738 |
| Musoprian | 724 |
| Qəmərli | 713 |
| Mamey–Kirovka | 706 |
| Arxilosğali | 700 |
| Aşağı-Güləver | 698 |
| Sakadaqiano-Tatuşağı | 678 |
| Aşağı-Oruzman | 660 |
| Qarabağlı–Cicmatian | 643 |
| Gəyliyən | 640 |
| Aşağı-Qullar | 628 |
| Incəoğlu | 618 |
| Tecis | 607 |
| Yuxarı-Qoşaisə | 604 |
| Cəfərli | 541 |
| Tedosminda | 541 |
| Mığırlı | 530 |
| Seyidxocalı | 527 |


downloaded from KitabYurdu.org

| | |
|---|---|
| Yuxarı-Güləver | 522 |
| Sarallar | 501 |
| Yaqublu | 498 |
| Yenikənd-Qayaqocalı | 492 |
| Bəytərəfçi | 483 |
| Kirovis | 481 |
| Şindilər | 467 |
| Dunus | 454 |
| Quşçu | 452 |
| Arakol | 450 |
| Xancığazlı | 436 |
| Təzəkənd (Burma) | 433 |
| Armudlu–Pantian | 410 |
| Baytallı | 400 |
| Qazret | 400 |
| Aqara | 400 |
| Bala-Bəylər | 395 |
| Gödəkdağ | 362 |
| Samsevris-Şəmşiöyü | 361 |
| Dəmirli | 359 |
| Qamışlı | 355 |
| Dağ-Qızılhacılı | 341 |
| Şahmarlı | 341 |
| Aşağı-Qarabulaq | 333 |
| Tamaris (qəsəbə) | 330 |
| Dəllər (Dağ) | 313 |
| Poladaur | 311 |
| Cəngilər | 300 |
| Vazian | 296 |
| Çölyan-Qızılhacılı | 295 |
| Ləvitana (Zezman) | 290 |
| Bərtəkər | 289 |
| Hallavar | 288 |
| Əsmələr | 286 |
| Vake | 285 |
| Codoret | 280 |
| Lök-Candar | 258 |
| Qaradaş | 249 |


downloaded from KitabYurdu.org

| | |
|---|---|
| Suqala | 243 |
| Qaratikan | 240 |
| Ormeşən | 206 |
| Böyük-Bəylər | 200 |
| Burma | 200 |
| Qombor | 200 |
| Şıxlı | 193 |
| Molla-Əhmədli | 192 |
| Sisqala | 181 |
| Xutor-Lecbədin | 177 |
| Xocornu | 176 |
| Əngrəvan | 162 |
| Sənəb | 157 |
| Ağqula | 150 |
| Kipircik | 140 |
| Namtvrian | 137 |
| Hüseynkənd | 135 |
| Nörgüğ | 124 |
| Şahbuzlu | 120 |
| Çopurallar | 108 |
| Saca | 106 |
| Ambartəpə | 106 |
| Məmişlər | 102 |
| Ağalar | 100 |
| Tamaris | 100 |
| Kasriscğali | 100 |
| Leninovka | 100 |
| Kvenatkosa | 100 |
| Telovan | 100 |
| Salamməlik | 98 |
| Napilnar (Nəbillər) | 86 |
| Aqarak | 78 |
| Axalkalak | 74 |
| Gödəklər | 73 |
| Muxran | 70 |
| Budyonovka | 55 |
| Kaloubani | 55 |
| Köhnə-Vecis | 54 |


downloaded from KitabYurdu.org

| | |
|---|---|
| Boğazkəsən-Tğispiri | 53 |
| Balıc | 50 |
| Bala-Darbaz | 40 |
| Samğeret | 40 |
| Axalsopeli–Təzəkənd | 37 |
| Livad | 33 |
| Daha | 30 |
| Soğutlu | 27 |
| Cızqar–Cincğar | 20 |
| Sakire | 19 |
| Qora | 19 |

Azərbaycanlılar Gürcüstan ərazisində cəmi 284.761 nəfər (141.237 kişi, 143.524 qadın) göstərilir ki, bu da ümuməhalinin 6,5 faizi deməkdir. Bizim qeyd: Bir faktı vurğulayaq ki, rəsmi məlumat-sorğu kitabında Gürcüstanda müsəlmanların sayının 433.784 nəfər olduğu bildirilir. Bizim əlavə: Rəsmi statist məlumatdan fərqli olaraq, GÜRCÜSTANDA AZƏRBAYCANLILARIN SAYI 500000 (YARIM MILYON) NƏFƏR HESAB EDILIR, ayrıca özəl (necə deyərlər, şəhər-şəhər, kəndbəkənd) araşdırmalarda Gürcüstanda Azərbaycanlıların sayı 620 min nəfər hesablanmışdır.

Xatırladaq ki, 1989-cu ilin əhalisayımının nəticələrində Gürcüstandakı soydaşlarımızın sayı 307.556 nəfər olmuşdu. Deməli, son 13 il ərzində, başqa sözlə, Gürcüstanın müstəqilliyi dövründə azərbaycanlıların sayında 22.795 nəfər azalma olmuşdur.

Bununla belə, xatırladaq ki, azalma təkcə azərbaycanlılarda olmamış, bu illər ərzində ölkədə ümumiyyətlə 1.029.306 nəfər, o cümlədən 126.220 nəfər Gürcü, 188.282 nəfər Erməni, 273.501 nəfər Rus və s. azalmışdır. Bunun müqabilində həmin müddət ərzində Gürcüstanın ümuməhalisində Azərbaycanlıların faiz payı 0,8 faiz artmışdır, yəni bu rəqəm 1989-cu ildə 5,7 faiz idisə, 2002-ci ildə 6,5 faizə yüksəlmişdi.

Genəlliklə, artım–azalım tərəzisində Azərbaycanlıların sayı baxımından artım – 6.322 nəfər Marneuli rayonunda, 3.103 nəfər Saqareco rayonunda (Qaraçöpdə), 1.212 nəfər Qardabani rayonunda, 289 nəfər Zalqa rayonunda; azalım – 14.391 nəfər Dmanisi rayonunda, 6.583 nəfər Rustavi şəhərində, 4.782 nəfər Bolnisi rayonunda, 3.249 nəfər Tbilisi şəhərində, 1.090 nəfər Kaspi


downloaded from KitabYurdu.org

rayonunda müşahidə olunmuşdur.

Rəsmi statistika bağlamında önəmli bir məqam açıqlanır: GÜRCÜSTANDA AZƏRBAYCANLILAR SAY ETIBARILƏ GÜRCÜLƏRDƏN SONRA IKINCI, QEYRI-GÜRCÜLƏR ARASINDA BIRINCI YERI TUTURLAR.

Belə ki, ölkədə əhalinin say çoxluğu baxımından üçüncü yeri tutan Ermənilərin sayı 248.929 nəfərdir. Hərgah əvvəlki siyahıyaalmada (1989-cu ildə) Gürcüstan əhalisinin 8,1 faizini Ermənilər və 5,7 faizini Azərbaycanlılar təşkil edirdilərsə, 2002-ci ildə bu rəqəmlər müvafiq olaraq 5,7 və 6,5 faiz nisbətlərində dəyişmişdi.

Gürcüstanda cinslər arasında tənasübdə ən yaxşı göstərici Azərbaycanlılara aiddir. Belə ki, hər min nəfər kişiyə Azərbaycanlılarda 1016 qadın gəlirsə, bu rəqəm Ruslarda 2507, Ermənilərdə 1138, Gürcülərdə 1106-dır.

Eləcə də, əhalinin yaş bölgüsü baxımından da ən üstün göstəriciyə Azərbaycanlılar malikdirlər. Belə ki, uşaqlar və yeniyetmələr Azərbaycanlılarda 27,1 faizi təşkil edir, halbuki bu göstərici Gürcülərdə 20,9 faiz, Ermənilərdə 19,8 faiz, Ruslarda 8,4 faizdir.

Gürcüstandakı Azərbaycanlı əhalisinin orta yaşı 30,7 ildir. Azərbaycanlıların yaş qrupları üzrə sayı belə bölünür: 1 yaşa qədər 4.202 (2.333 oğlan, 1.869 qız); 2–9 yaşlılar 46.821 (25.020+21.801); 10–19 yaşlılar 60.977 (31.245+29.622); 20–29 yaşlılar 45.517 (23.290+22.227); 30–49 yaşlılar 80.817 (39.168+41.676); 50–59 yaşlılar 17.672 (8.296+9376); 60–79 yaşlılar 30.060 (13.484+16.576); 80–89 yaşlılar 2.338 (632+1.706); 90–99 yaşlılar 601 (120+481); 100 və 100-dən yuxarı yaşlılar 64 nəfər (6+58). Deməli, bir ildə Gürcüstanda 4.202 azərbaycanlı balası dünyaya gəlmiş, bunun da 2.333-ü oğlan (55,5%), 1.869-u qız uşağıdır (44,5%). 33.063 nəfər ahıl yaşlı (60 yaşdan yuxarı) ağsaqqalımız və ağbirçəyimiz ömür-gün sürür, bunlardan da 64 nəfər yurddaşımızın yaşı 100 ötmüşdü.

Soydaşlarımızın 283.414 nəfəri, yəni 99,5 faizi öz ana dilində danışır, 43.024 nəfər Gürcü dilini, 75.207 nəfər Rus dilini, müəyyən qismi də başqa dilləri sərbəst bilir.

Soydaşlarımızın 281.146 nəfəri Gürcüstan ərazisində doğulanlardır, başqa sözlə desək, soydaşlarımızın cəmi 3.584 nəfəri (1,25 faizi) özgə yerlərdən, o cümlədən 2.039 nəfər Azərbaycandan,


downloaded from KitabYurdu.org

902 nəfər Ermənistandan, 356 nəfər Rusyadan, 159 nəfər Qazaxstandan, cəmi 30 nəfər uzaq xaricdən gəlmişdi.

Azərbaycanlı əhalinin bütövlükdə Aşağı Kartli diyarında 62,5 %, o sıradan Marneuli rayonunda 86,4 %, Bolnisi rayonunda 85 %, Dmanisi rayonunda 74,4 %, Qardabani rayonunda 43,6 %, Saqareco rayonunda 40,4 %, Laqodexi rayonunda 25,6 %, Telavi rayonunda 13,4 %, Zalqa rayonunda 10,5 %-i kənd yerlərində yaşayırlar.

Gürcüstanda 171 kənddə elliklə azərbaycanlılar məskundurlar.

Gürcüstanda əhalisinin çoxluğu baxımından ən iri kənd Sadaxlı kəndidir – burada 9.486 nəfər məskundur! Bu baxımdan ikinci yerdə Msxeta rayonunun Diğom kəndi (8.746 nəfər), üçüncü yerdə yenə də azərbaycanlılar yaşayan Telav-Qaracala kəndi (8.270 nəfər) durur. Qızılhacılı, Faxralı, Bolnis-Kəpənəkçi, Ləmbəli, Nazarlı, Soğanlıq-Ponicala, Kosalı (Qarayazı), Alget kəndləri də əhalisi 5.000 nəfərdən çox olan kəndlər cərgəsində öncül yer tuturlar.

* * *

Azər Süleymanov, Kamal Muradxanlı, Allahverdi Hümmətov, Ramil Bayramov da Gürcüstan Parlamentının üzvləri kimi yerli azərbaycanlıları təmsil etmişlər.

”Gürcüstan” qəzeti ictimai, iqtisadi, mədəni-ədəbi həyatımızın güzgüsü olaraq qalır, eyni zamanda "Qarapapaqlar", "Yazı", "Meydan" dərgiləri, "Region", "Ədəbi Gürcüstan", "Ziya" qəzetləri vb mətbuat orqanları çıxır.

Tbilisi'də Mirzə Fətəli Axundzadə adına Mədəniyyət Muzeyi, Marneulidə Gürcüstan Azərbaycanlıları Mədəniyyət Mərkəzi vardır.

Məscidlərimizin əksəri fəaliyyətdədir. Borçalı Aşıqlar Birliyi, Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan bölməsi fəaliyyət göstərməkdədirlər. Kəndlərimizdə saz dərnəklərimiz vardır.


downloaded from KitabYurdu.org

◘

... EHEY, ALIN YAZIM, QAN YADDAŞIM – ULU TARİXİM!
NƏ QƏDƏR AÇİQ-AŞKARSANMİŞ!..

◘

II İRAKLİ:
“Borçalılar yaxşı, mərd adamlardır”.

İLYA ÇAVÇAVADZE:
“Azərbaycanlılar (Borçalılar) silah gəzdirməyi çox xoşlayırlar. O, acından ölər, amma bir xəncər tapar, hələ bir oğluna da. Qılınc da, tüfəng də...”

AKAKİ SERETELİ:
“Ağa Məhəmməd xan Tiflisi mühasirəyə alanda... Gürcülər tərəfdən vuruşanlar arasında Qazax-Borçalılar da varıymışlar. Onlar Gürcüstan uğrunda sanki vətənləri uğrunda başlarından keçmişlər”.

MUSTAFA AĞA ARİF:
“Hanı Baydar-Borçalı'nın bəyləri,
Meydan günü bir-birindən yeyləri”.

ƏLİYAR QARABAĞLI:
“Borçalı kimi bir yerin tarixini öyrənib yazmaq çox şərəfli işdir”.

Akademik ZİYA BÜNYADOV:
“Bir arzum var: Qazax–Borçalı mahalının tarixi ilə gələcəkdə kimsə ciddi məşğul olmalıdır. Çünki, belə bir böyük və cəsur camaatın uzun əsrlər boyu halı və vəziyyəti haqqında hələ ki, ciddi bir söz nə deyilib, nə də yazılıb”.


downloaded from KitabYurdu.org